Hər kəs ədalətli olacaq

ƏDALƏT

## Şuşada "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının qala-konserti olub




**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində start götürən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının mayın 10-da Cıdır düzündə qala-konserti olub.**

Adalet.az xəbər verir ki, qala-konsertdə festivalda iştirak edən ölkələrin incəsənət ustaları çıxış edib.

Konsert çərçivəsində "Xarıbülbül" kompozisiyası, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkiyə və Türkmənistan incəsənət ustalarının təqdimatında "Söz meydanı" vokal-instrumental kompozisiya, "Türk dünyası virtuozları" ansamblının ifasında "Çahargah bəhsi", "Əfsanə Turan", "Xalq xəzinəsi" kompozisiyaları və iştirakçı ölkələrin ifaları, rəqs qruplarının digər rəngarəng çıxışları təqdim edilib.

Qala-konsert bütün iştirakçıların ifasında "Odlar yurdu Azərbaycan" kompozisiyası ilə başa çatıb.

## "Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın blokadasına son qoyulacaq"



**Naxçıvanda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi qeyd edilib.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev "Twitter" hesabında yazıb."Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi Naxçıvanda doğulduğu yerdə Bakıda yaşayan və Ankaradan akkreditə olunmuş diplomatik korpusla birgə qeyd edilib. Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın blokadasına son qoyulacaq və bütün region üçün yeni imkanlar yaranacaq", - deyə ölkə rəhbərinin köməkçisi bildirib.

## Deputatlarımız Türkiyədə seçkiləri müşahidə edəcəklər

**Milli Məclisin bir qrup deputatı prezident və parlament seçkilərini müşahidə etmək üçün mayın 11-də Türkiyə Respublikasının Ankara və İstanbul şəhərlərinə səfər edəcəklər.**

Adalet.az xəbər verir ki, bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Səfər çərçivəsində Milli Məclisin komitə sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, deputatlar Ağalar Vəliyev və Anar Məmmədov TÜRK PA, deputat Azay Quliyev ATƏT PA, deputatlar Rafael Hüseynov və Kamal Cəfərov AŞPA xətti ilə Türkiyədə mayın 14-də keçiriləcək prezident və parlament seçkilərinə hazırlıqla tanış olacaq və seçki günü məntəqələrdə prosesin gedişini, vətəndaşların fəallığını izləyəcəklər.

## Çavuşoğlu: "Bizim olan nə varsa Azərbaycanındır"



**"Bizim olan nə varsa Azərbaycanındır".**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Antalyada çıxışı zamanı deyib.

O xatırladıb ki, Azərbaycan Ermənistanın torpaqlarını işğal etməyib: "Əksinə, 30 ildən sonra öz torpaqlarını azad edib".

## BMT: "İranda bu il ən azı 209 nəfər edam olunub"

**BMT-nin İnsan Haqları üzrə Ali Komissarı Volker Türk İranda edamların sayının çox olmasından narahat olduğunu bildirib və hakimiyyəti əksər ölkələrdən nümunə götürərək ölüm hökmünü ləğv etməyə çağırıb.**

Onun sözlərinə görə, bu il İranda hər həftə orta hesabla 10-dan çox adam edam edilir ki, bu da dünyada ən yüksək göstəricilərdən biridir. "Yanvarın 1-dən indiyədək ən azı 209 nəfər edam edilib, onların əksəriyyəti narkotiklərlə bağlı cinayətlərə görə ittiham olunanlar üstünlük təşkil edib.

Üstəlik, edam edilənlər arasında qeyri-mütənasib sayda müxtəlif azlıqların nümayəndələri də var", - BMT rəsmisi qeyd edib. İnsan Hüquqları üzrə Ali Komissar vurğulayıb ki, şəffaflığın olmaması səbəbindən edamların dəqiq sayı məlum deyil və real rəqəmin daha çox olacağı ehtimal edilir.

"Təəssüf ki, İran keçən il təxminən 580 nəfərin edam edildiyi eyni yoldadır. Bu, xüsusilə ölüm hökmünün ümumdünya ləğvi üçün artan konsensus nəzərə alınmaqla, dəhşətli rəqəmdir", - Türk deyib.

## Ərdoğan: "Bizim millətə xidmət eşqimiz heç vaxt bitməz"



**"Bizim mahnımız da, millətə xidmət eşqimiz də heç vaxt bitməz".**

Adalet.az-ın məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan özünün "Twitter" hesabında yazıb.

Bir gün əvvəl Kırklareli, Edirne, Tekirdağda olduğunu bildirən dövlət başçısı bu bölgələrin onun siyasi fəaliyyətində çox fərqli və xüsusi yeri olduğunu vurğulayıb.

"Oxuduğumuz bir şeirə görə haqsız yerə cəzalananda Kırklareli bizi Pınarhisarda qonaq etdi. Biz Pınarhisar həbsxanasına göndərilərkən yüzminlərlə insanın axıtdığı göz yaşlarını heç vaxt unutmarıq... Partiyamızın üfüqünü orada çəkdik, Türkiyə ilə bağlı arzularımızı orada təcəssüm etdirdik, gələcəyə baxışımızı orada formalaşdırdıq", - deyə o bildirib.

Dövlət başçısı hər bir insan kimi, onun da çox istədiyi, lakin həyata keçirə bilmədikləri olduğunu etiraf edib.

"Bürokratik oliqarxiyanın əngəllədiyi, müxalifətin əngəllədiyi, marginal təşkilatların sabotaj etdiyi layihələrimizi saya-saya bitirə bilmərik", - deyə Ərdoğan vurğulayıb.

Buna baxmayaraq, o, bu əngəl siyasətinə boyun əymədiklərini və əsərlərilə Türkiyəni bəzədiklərini qeyd edib.

"Mayın 14-dən sonra Türkiyənin böyüməsi və güclənməsi üçün fəaliyyətimizi davam etdirəcəyik", - deyə Türkiyə prezidenti vəd verib.

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 18 (6011) 12 may 2023-cü il | Qiymәti 40 qəpik

## Hərbi qulluqçumuz şəhid oldu



**Ermənistan silahlı qüvvələri bölmələrinin qəsdən törətdiyi təxribat nəticəsində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Novruzəlizadə Orxan Elxan oğlu şəhid olub.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib. Azərbaycan Ordusunun bölmələri tərəfindən qəti cavab tədbirləri görülür. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid hərbi qulluqçumuzun yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

## BU GÜN ÜÇÜN 400 MİN AZƏRBAYCANLI ŞƏHİD OLMUŞDU...



**Vaqif Səmədoğlunun 9 Mayla bağlı bir xırda şeiri var, deyir: "Günün bəxtinə bax ey". Doğrudan da 365 günün ən bəxtəvər günüdü 9 May - Qələbə günüdü. Müharibənin sona çatması günüdü. Və bu gün uğrunda 400 min azərbaycanlı şəhid olub. Və həmin 400 min azərbaycanlının xətrinə mən də 9 Mayı əziz bir gün kimi həmişə yaşayıram.**

İndi bizim öz 9 Mayımız var, bu 10 Noyabrdı - Ermənistanın kapitulyasiya aktına imza atdığı gündür. Tariximizə qızıl hərflərlə yazılan gündür 10 Noyabr.

Vaqif Səmədoğlu sağ olsaydı 10 Noyabr haqqında da gözəl bir şeir yazardı və deyərdi: "Günün bəxtinə bax ey".

# Şuşa Zəfərimizin rəmzidir



***"Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam".***

***Bunu Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində deyib.***

***"Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi... Ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır", - deyə Azərbaycan Prezidenti bildirib.***

## Xüsusi təyinatlılar "Qapıcıq" zirvəsinə yürüş etdi



**Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlıları Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Naxçıvan Muxtar Respublikasının ən hündür nöqtəsi olan "Qapıcıq" zirvəsinə yürüş edib.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib. Ordubad rayonu ərazisində yerləşən və hündürlüyü 3905 metr olan "Qapıcıq" zirvəsinə qalxan hərbi qulluqçularımız Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini yad edib, Azərbaycan Respublikasının üçrəngli bayrağını dalğalandırıb və Dövlət Himnimizi səsləndiriblər.

Sonda xüsusi təyinatlılar Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyini tərənnüm edən lövhəni qaya üzərində bərkidiblər.

## Hande Harmancı: "Koronavirusla bağlı pandemiya dövrü bitib"

**"Koronavirusla bağlı pandemiya dövrü bitib, lakin xəstəlik hələ davam edir".**

Bunu APA-ya açıqlamasında Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan Nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib.

O bildirib ki, COVID xəstəliyi hələ də var, sadəcə olaraq fövqəladə vəziyyət dövrü ortadan qaldırılıb.

"Bundan sonra bütün ölkələr koronavirusla bağlı vəziyyəti izləməyə davam etməlidirlər. Necə ki, qrip xəstəliyi var, COVID də var. Bir vaxtlar qrip xəstəliyi də pandemiya şəklində ortaya çıxmışdı. Lakin indi sadəcə xəstəlik kimi qalıb. Digər tərəfdən genomika araşdırmaları davam etdirilməlidir. Bildiyimiz qədəri ilə Azərbaycan da bu istiqamətdə tədqiqatlar aparır. Təbii ki, bundan sonra da yenə pandemiyalar olacaq. Prosesləri yaxından izləməliyik ki, gələcəkdə ortaya çıxa biləcək hər hansısa pandemiyalara vaxtında müdaxilə edə bilək".

Hande Harmancı koronavirusa qarşı vaksinasiya prosesinin davam etdirilib-etdirilməməsi zərurətinə də aydınlıq gətirib.

O bildirib ki, bununla bağlı qərarı hər bir ölkə müstəqil olaraq verir.

Aqil ABBAS
aqilabbas@rambler.ru



## ABŞ VƏ AVROPA DÖVLƏTLƏRİ ƏRDOĞANI NİYƏ İSTƏMİR?

*Qardaş Türkiyədə prezident seçkilərinə bir neçə gün qalıb. Əsas iki namizəd var - sayın Rəcəb Tayyib Ərdoğan və Kamal Kılıçdaroğlu.*

*ABŞ və Avropa dövlətləri pul buraxıb demək olar ki, Türkiyə mətbuatını və sosial şəbəkələri satın alıblar və yönləndiriblər sayın Ərdoğanın əleyhinə. O cümlədən televiziya kanallarının əksəriyyətini də. Kılıçdaroğlunu dəstəkləyirlər.*

*Yəni ABŞ və Avropa dövlətləri başqa bir dövlətin açıqdan-açığa daxili işinə qarışır. Hətta öz mətbuat vasitələrində Ərdoğanı təhqir etməkdən belə çəkinmirlər.*

*Niyə Ərdoğana düşməndirlər? Bunun əsas səbəbi sayın Ərdoğanın Qarabağ savaşında Azərbaycanı dəstəkləməsidir. Avropa Birliyi hətta utanmadan deyir ki, niyə sayın Ərdoğan Azərbaycana dronlar, PUA-lar, "Bayraktar"lar verdi?*

**Bax:səh-2**

## Ukrayna Prezident Aparatının əməkdaşı müharibədə öldürüldü



**Ukrayna Prezident Aparatının əməkdaşı Aleksey Titarenko cəbhə xəttində öldürülüb.**

**Adalet.az xəbər verir ki, bu barədə Ukrayna PA-nın rəhbəri Andrey Yermak yazıb.**

**Titarenko Zelenskinin ofisində Daxili və Humanitar Siyasət Direktorluğunun baş məsləhətçisi vəzifəsində çalışıb.**

**O, Donetsk vilayətində gedən döyüşlərdə həlak olub.**

## TIXACDAN NECƏ CAN QURTARMAQ OLAR?

Deməli, belə. Bir nəfər Molla Nəsrəddinlə rastlaşır, molla soruşur ki, necə yaşayırsan? Həmin şəxs qayıdıb deyir ki, molla külfət böyük, ev darısqal, çox tıncıxıram.

Molla:

**- İnəyin var?**

**- Var.**

**- Onu da gətir evə.**

Aradan bir az keçir, yenə rastlaşırlar. Molla soruşur ki, vəziyyət necədir?

**- Çox pis.**

**- Atın var?**

**- Var.**

**- Onu da gətir evə.**

**- Baş üstə.**

Aradan bir on gün keçir, yenə rastlaşırlar. Molla soruşur ki, vəziyyət necədir?

**- Lap pis.**

**-Qoyun-quzun var?**

**- Var.**

**- Onları da gətir evə.**

Aradan bir on beş gün keçir, yenə rastlaşırlar. Molla soruşur ki, vəziyyət necədir?

**- Molla, həzrət Abbas haqqı, qırılırıq.**

**- Get inəyi evdən çıxart.**

On gündən sonra yenə rastlaşırlar.

**- Vəziyyət necədir?**

**- Bir az babatlaşdıq.**

**- Get atı da çıxart.**

Yenə bir on gün keçir. Molla soruşur ki, vəziyyət necədir?

**- İndi-indi rahat nəfəs alırıq.**

**- Get qoyun-quzunu da çıxart.**

Aradan bir on gün də keçir, molla soruşur ki, ə, qaqa, indi vəziyyət necədir?

- Molla, Allah balalarını saxlasın, elə rahatıq, gen-bol, hava...

İndi Formula-1 qurtarandan sonra şəhərimizin əhalisi də bir balaca gen nəfəs ala bilir. Qabaq tıxac iki saat idisə, indi düşüb bir saata. Bir-iki dəfə də belə Formula-1 keçirəndən sonra lap geniş nəfəs ala biləcəyik.

İradə TUNCAY
iradetuncay@rambler.ru

## Birinci olmaq hər oğulun hünəri deyil



***Bizim yeni, yaxın tariximizin qısa fasilə ilə ən uzunmüddətli hakimiyyəti Onun əlində olmuşdu - Heydər Əliyevin. Təbii ki, haqqında bu qədər tariflər deyilmiş, - içində səmimisi və umacaqlısı olmaqla, bir şəxs haqqında nəsə bir söz demək çətindir. Cəhd eləyək***

***Sadə, orta hallı bir ailənin övladı olub əyalət şəhərciyindən böyük Kremlə, siyasi olimpə yüksələn bir yol keçmişdi. Əslində O, bir az da sovet hakimiyyətinin övladı idi. Çünki o dövrdə fəhlə oğlunun müxtəlif vəzifə pillələri ilə qalxması mümkün sayılırdı. Sadəcə ZƏKA, BACARIQ və QABİLİYYƏT olmaq şərti ilə. Əsas məsələ də elə bu idi. ZƏKA! Onu hamıdan fərqləndirən. Düzdür, xarici görkəmi də hər kəsə bənzəmirdi. Hər zaman hər yerdə diqqəti öz üstünə çəkməyi bacaran bu hündürboy, alagöz yaraşıqlı oğlanın içindəki istedadlardan biri də bu idi. Və bu istedad Ona dövlətçiliyi olmayan bir xalqın bəlkə min ildir içində qalmış arzularını reallaşdırmaq imkanı yaratdı. İndi kənardan baxıb çox hadisələrə fərqli şərh vermək olar. Ancaq etiraf eləməyi də bacarmaq lazımdır ki, hər zaman zamanın gedişini dəyişməyi, hadisələri idarə etməyi, yönəltməyi yalnız və yalnız O bacarırdı. Ona görə də az vaxt ərzində 2 dəfə ölkənin birinci şəxsi olmağı bacarmışdı. Birinci olmaq hər oğulun hünəri deyil. Biz bunu yaxın tariximizdə yaşadıq. Balaca bir ailəni doğru-düzgün idarə eləmək çətin olur. O ki ola Azərbaycan kimi qarışıq, mürəkkəb və təzadlı məmləkəti idarə eləmək. Bura qəribə bir yerdi. Burada müxtəlif psixologiyalar toqquşur. Əsarətin yaratdığı hiylə, məkr, qul düşüncəsi türk etnosunun qan yaddaşı ilə gələn iddialarla üz-üzə gəlir. Çətinə düşəndə təzim eləyənlər, ikiqat olmağı bacaranlar bir az artıran kimi padşahlıq umusunda olurlar. Bütün bu adamların ipini yığıb hər kəsə yerini göstərmək bacarığını da Allah hər kəsə vermir. Zahiri parıltılarıyla bərabər hakimiyyət həm də ağır bir yükdür. Bu yükü daşımağı da hər kəs bacarmır. Milyonların həyatının məsuliyyəti, bu məsuliyyətdən irəli gələn vəzifələri də icra eləməyi hər kəs bacarmır.***

## Prezident və birinci xanım Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin açılışında iştirak ediblər.**

Adalet.az xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına və birinci xanıma Şuşa Otel-Konqres Mərkəzi Kompleksində yaradılan şərait barədə məlumat verib.

Xatırladaq ki, erməni işğalı dövründə burada Azərbaycan Prezidentinin təbirincə desək, "şeytan yuvası" - "parlamentin" binasının tikintisi planlaşdırılırdı. Ancaq indi həmin yerdə beşulduzlu otelin açılışı gerçəkləşdirilir. Prezident İlham Əliyev Şuşaya ilk səfərində - 2021-ci il yanvarın 14-də bu barədə demişdi: "Qondarma rejim bəyan etmişdi ki, "Dağlıq Qarabağ respublikası"nın "parlamentini" Şuşa şəhərinə köçürəcək. Beləliklə, Şuşa şəhərini erməniləşdirmək üçün növbəti cəhd edilməli idi. Bax, bu binanı onlar "Dağlıq Qarabağ respublikası"nın "parlament" binası kimi inşa etməyə başlamışdılar. Ancaq çatdıra bilmədilər. Biz gəldik, bu torpağın sahibləri gəldi, onları buradan qovdu və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi".

Təməli 2021-ci il avqustun 29-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulan Şuşa Otel-Konqres Mərkəzi Kompleksi şəhərin mərkəzində - Zəfər yolunun üzərində yerləşir. 2022-ci ildə - "Şuşa İli"ndə Karvansaray konsepti əsas götürülən layihənin inşasına başlanılıb. Tikinti işlərinə yerli və xarici şirkətlər cəlb edilib. Bina həm klassik, həm də postmodern memarlıq üslubunda layihələndirilib və mürəkkəb konstruktiv quruluşa malikdir.

Bildirilib ki, beşulduzlu kompleks müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn olunub. Binanın daxili dizaynı Azərbaycanın iqliminin, mədəniyyətinin, tarixinin müxtəlifliyini və zənginliyi əks etdirir. Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin xarici görünüşündə ornamental kompozisiyalar və milli memarlıq elementləri tətbiq olunub. Həmçinin fasadın üzlənməsində Şuşanın tarixi binalarının tikintisində işlənilən yerli daşdan istifadə olunub. Bundan əlavə, mərkəzin eyvanları, şimal və cənub fasadları ənənəvi memarlıq quruluşunda, Şuşanın tarixi binalarının - XIX əsrə aid Zöhrabbəyovun evi, Üzeyir Hacıbəyovun ev-muzeyinin tikintisində istifadə olunmuş taxta tərkibli materiallardan (əsasən palıd) hazırlanıb. Binanın fasad örtüyünün üzərində və vestibülün girişinin üzlüyündə təbii Şuşa daşı ilə hazırlanmış relyef işləmələr mövcuddur.

Kompleks fərdi üslubu, yüksək keyfiyyəti və çoxsaylı xidmət növləri ilə fərqlənir. Nadir memarlıq həlli ilə diqqəti cəlb edən, dörd mərtəbədən və zirzəmidən ibarət Şuşa Otel-Konqres Mərkəzi Kompleksində 154 otaq, konfrans və ziyafət zalları, restoran, hovuz, SPA, fitnes və digər xidmət bölmələri yaradılıb.

Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin texniki təchizatı, idarəetmə və enerji təminatı sistemi beynəlxalq standartlara uyğun qurulub. Belə ki, kompleksdə tətbiq olunan müasir idarəetmə panelləri səmərəli fəaliyyəti, təhlükəsizliyi və qonaqların rahatlığını təmin edəcək. Bununla yanaşı, binada ən yüksək texniki normalara uyğun havalandırma sistemləri tətbiq olunub. Kompleksin elektrik enerjisi ilə fasiləsiz və dayanıqlı təmin olunması məqsədilə generatorlar quraşdırılıb. Həmçinin binanın dam örtüyündə yüksək enerji səmərəliyini təmin edən Günəş enerjisi panelləri də yerləşdirilib ki, bu da "təmiz" enerjiyə keçid istiqamətində görülən işlərin növbəti nümunəsidir.

Qeyd edək ki, Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin kitabxanasında 1000-ə qədər kitab mövcuddur. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY, ölkəmizdəki bir sıra səfirliklər (Türkiyə, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Özbəkistan, Türkmənistan) və Tatarıstanın daimi nümayəndəliyi bu kitabxanaya ümumilikdə 215-ə qədər kitab hədiyyə edib.

Oteldə "Miras Rəsm Qalereyası" tərəfindən Azərbaycanın mədəni irsinə həsr olunan, "Doğma Mədəniyyət Ocağımız" şüarı altında sərgi açılıb. Sərgidə Qarabağdan olan korifey sənətkarlarımızın, eləcə də, Azərbaycanın bu bölgəsindən ilham almış şəxslərin əsərləri nümayiş olunur. Ekspozisiyada Xalq rəssamları Nadir Əbdürrəhmanov, Maral Rəhmanzadə, Altay Hacıyev, Səttar Bəhlulzadəyə məxsus 23 rəsm əsəri, o cümlədən qarabağlıların portretləri, eləcə də bu ərazinin gözəl dağ mənzərələri yer alıb. Qarabağ mövzusundan ilhamlanan Xalq rəssamı Akif Əsgərovun, heykəltəraşlar Cavanşir Məmmədovun və Müşfiq Heydərovun 6 sənət nümunəsi də tamaşaçılara təqdim olunur.

Kompleksin ətrafında mövcud ağaclar qorunmaqla geniş sahə yaşıllaşdırılıb, yeni ağaclar və bəzək gülləri əkilib, həyətində müasir interyerə malik daxili bağ salınıb. Burada qapalı və açıq avtomobil dayanacaqları vardır.

Dövlət başçısına və birinci xanıma məlumat verilib ki, kompleksin yaxınlığında XVIII əsrin sonlarında Ağa Məhəmməd şah Qacarın Şuşaya hücumu ərəfəsində şəhərin müdafiəsinin təşkili məqsədilə İbrahimxəlil xanın göstərişi əsasında fəaliyyət göstərən silah emalatxanası və hazır silah-sursatın saxlanılması üçün anbar və emalatxananın həyətində qazılmış təsərrüfat quyusu da buraya gələcək qonaqlara nümayiş etdiriləcək.

***

Qeyd edək ki, Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın iqtisadiyyata reinteqrasiyası ölkəmizin inklüziv və dayanıqlı inkişafı üçün əlavə üfüqlər açır. İşğaldan azad olunmuş torpaqlarımızın zəngin iqtisadi potensialı bu ərazilərin bərpası və yenidən qurulması prosesini də sürətləndirir.

İşğaldan azad edilmiş torpaqlarımız tarixi-mədəni dəyərləri ilə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var.

Bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabət qabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər həyata keçirilir. Bu baxımdan Füzuli və Zəngilanda tikilən, Laçında təməli qoyulan beynəlxalq hava limanları azad edilmiş ərazilərimizin turizm potensialının reallaşmasında, turist cəlbində mühüm rol oynayacaq.

Şuşa şəhəri tarixən Azərbaycanın mədəni, ictimai, siyasi həyatının mühüm mərkəzlərindən biri olub. 1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilib. Həmin qərarın nəticəsində Şuşada tarixi-mədəni irsin qorunması istiqamətində əhəmiyyətli addımlar atılıb. Lakin işğal nəticəsində Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri düşmən tərəfindən talan edilib, şəhərin memarlığına və milli-mədəni irsimizə misli görünməmiş ziyan vurulub.

İkinci Qarabağ müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Məhz Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrildi, tariximizə Zəfər Günü kimi həkk olundu. Şuşa Zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Memarlıq və şəhərsalma sənətinin parlaq incisi olan Şuşa, həmçinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib.

**Şuşa mədəniyyət paytaxtı olduğu kimi turizm mərkəzi olmaq imkanına da malikdir. Burada təbiət və mədəniyyətin nadir ahənginə şahid olmaq mümkündür. Şuşa şəhəri həm fəsil, həm də nadir memarlıq üslubu baxımından fasiləsiz turizm potensialına sahibdir və bu potensiala uyğun turizm infrastrukturunun yaradılmasına xüsusi diqqət yetirilir.**

# Xalq Ulu Öndər Heydər Əliyevin simasında nicat yolunu gördü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə Şuşa şəhərindən xalqa müraciət edib.**

Azərbaycan Prezidenti bildirib ki, Azərbaycan xalqı Ulu Öndərin arzusunu çin etdi: "Bütün Azərbaycan Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. İlin əvvəlindən bu günə qədər və ilin sonuna qədər həm ölkəmizdə, həm müxtəlif ölkələrdə bir çox tədbirlər keçirilmişdir və keçiriləcəkdir. Azərbaycan öz böyük oğlunun xatirəsinə böyük hörmətlə yanaşır.

Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi. Ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır.

Bütün quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır. Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görə bilirsən ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir.

Azərbaycan xalqı Ulu Öndərin arzusunu çin etdi. Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi".

Heydər Əliyevin bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etdiyini vurğulayan İ.Əliyev bildirib ki, "Sovet Azərbaycanı dövründə - 1969-82-ci illərdə Azərbaycanı ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşmışdır. Məhz o illərdə yetişmiş kadrlar müstəqil Azərbaycanda və bu gün də fəaliyyət göstərərək bizim ümumi inkişafımızı təmin edirlər.

Azərbaycan xalqının faciələri Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra başlamışdır. 1987-ci ildə istefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmışdılar və Azərbaycan xalqının faciələri o gündən başlamışdır. Əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər.

Ulu Öndərin gücü və müdrikliyi Azərbaycanı bir çətir kimi qoruyurdu. 20 Yanvar faciəsindən sonra yenə də xalqımızın haqq səsini dünyaya məhz Ulu Öndər çatdırmışdır. Yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək öz haqq səsini ucaltmış, sovet hökumətinin, Sovet İttifaqının rəhbərliyinin bu qanlı əməlini pisləmiş və bu qırğınla bağlı dünyaya bəyanat vermişdir".

Azərbaycan Prezidenti bildirib ki, "Sovet İttifaqının repressiv maşını Heydər Əliyevə qarşı geniş hücuma keçmişdir və onun Moskvada qalması artıq mümkün deyildi. 1990-cı ilin iyul ayında Ulu Öndər Moskvadan Bakıya gəlmiş, ancaq ovaxtkı Azərbaycan rəhbərliyi onu da ona çox görmüşdür. Bu səbəbdən də Ulu Öndər Naxçıvana getmiş və orada yaşamağa başlamışdır.

Naxçıvanda ağır günlər davam edirdi, Naxçıvan tam blokadada idi. Naxçıvanın, ümumiyyətlə, gələcəkdə yaşaması ilə bağlı çox böyük təhlükələr var idi. Ulu Öndər Naxçıvanı qorudu və inkişaf etdirdi.

Məhz Ulu Öndər Heydər Əliyevin qətiyyəti, fəaliyyəti nəticəsində Naxçıvan torpaqları erməni işğalına məruz qalmadı. Azərbaycanda hakimiyyətdə olan



qüvvələr hər vəchlə çalışırdı ki, Heydər Əliyev Naxçıvandan uzaqlaşdırılsın. Naxçıvan blokadada boğulurdu, xain qüvvələr isə Naxçıvana qarşı təxribatlar törədirdilər, desant göndərirdilər, çevrilişə cəhd edirdilər. Sanki istəyirdilər ki, Naxçıvan da işğal altına düşsün. Ancaq xalq buna imkan vermədi, öz lideri ətrafında sıx birləşmişdir.

Məhz Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Bayrağı Naxçıvan Ali Məclisinin sessiyasında Dövlət Bayrağı kimi təsis edilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmışdır, Sovet İttifaqının və sonra artıq Rusiyanın hərbi birləşməsi olan motoatıcı diviziya Naxçıvandan çıxarılmışdır. Heydər Əliyev uzun illər ərzində xidmət etdiyi Sovet İttifaqı Kommunist Partiyasının sıralarından çıxmışdır və faktiki olaraq müstəqilliyə gedən yol Naxçıvandan başlamışdır."

Azərbaycanın müasir siyasi sisteminin də məhz Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayan İ.Əliyev bildidb ki, "1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin partiyaya sədr seçilməsi faktiki olaraq Azərbaycanda müasir siyasi sistemin yaranmasına səbəb olmuşdur. Çünki Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaranmışdır, ovaxtkı antimilli iqtidara qarşı müxalifət kimi. Yeni Azərbaycan Partiyasının yaranması bütün Azərbaycanda böyük əks-səda vermişdir. Azərbaycanın müxtəlif bölgələrindən partiyaya üzv olmaq istəyənlərin axını müşahidə edilirdi və qısa müddət ərzində Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsinə çevrilmişdir və bu gün də bu, belədir".

1992-ci ilin may ayında məhz milli xəyanət və satqınlıq nəticəsində Şuşanın düşmənə təhvil verildiyini qeyd edən Azərbaycan Prezidenti bildidrib ki, "doxsanıncı illərin əvvəllərində hakimiyyətdə olanlar ancaq şəxsi mənafeyi düşünürdülər, talançılıq, soyğunçuluq, özbaşınalıq, anarxiya, xaos, torpaqlar əldən gedirdi.Hakimiyyətdə qalmaq üçün hətta vətəndaş müharibəsinə də rəvac verdilər. Məhz hakimiyyətə gəlmək üçün Şuşanı boşaltdılar. Şuşa işğal olunandan bir ay sonra AXC-Müsavat cütlüyü hakimiyyətə gəlmiş və öz arzusuna çatmışdır. Şuşa işğal olunandan sonra Laçının taleyi də böyük təhlükə altında idi və on gün sonra Laçın da işğal olundu. 1993-cü ilin aprelində isə Kəlbəcər işğal olundu və beləliklə, Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı".

"1993-cü ilin real mənzərəsi - özbaşınalıq, quldurluq, xaos, anarxiya" adlandıran prezident bildirib ki, Xalq Ulu Öndər Heydər Əliyevin simasında nicat yolunu gördü: "Heydər Əliyev 1993-cü ilin oktyabrında böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Dərhal ciddi islahatlara başlanıldı. Bütün azadlıqlar təmin edildi. AXC-Müsavat cütlüyü tərəfindən tətbiq edilmiş antidemokratik senzura qaydaları ləğv edildi. Azərbaycan dünyaya açıldı, beynəlxalq təcridə son qoyuldu. Böyük diplomatik səylər göstərildi, Qarabağ həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı, beynəlxalq təşkilatlar işğalla bağlı ədalətli və bizim mövqeyimizi gücləndirən qərar və qətnamələr qəbul etmişlər.

1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin kontraktı" ölkəmizin inkişafında növbəti bir dönüş nöqtəsi idi. İndi Azərbaycan dövlətinin payına düşən mənfəət neftinin 75 faizi bu gün bizim iqtisadiyyatımızı gücləndirir. Azərbaycan dövləti "Əsrin kontraktı"nın icrasına bir manat vəsait qoymayıb. Ancaq mənfəət neftinin 75 faizi Azərbaycana gəlir. Bu gün xarici şirkətlərlə aparılan neft-qaz əməliyyatları çərçivəsində minlərlə milli kadr yetişib. Bu gün "Əsrin kontraktı"nın icrasında işləyən insanların 90 faizi Azərbaycan vətəndaşlarıdır. Elə kadrlar yetişdi ki, bu gün istənilən sahədə işləyə bilərlər. Bu da ölkəmizə böyük əlavə üstünlük verir".

Azərbaycanın Avrasiyada nəqliyyat mərkəzlərindən birinə çevrildiyini qeyd edən İ.Əliyev bildidrib ki, məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Avropa-Qafqaz-Asiya Beynəlxalq Nəqliyyat Dəhlizinə dair çox böyük və mötəbər beynəlxalq konfrans keçirilmişdi. Məhz o illərdə bu gün "Orta Dəhliz" dediyimiz layihənin bünövrəsi qoyuldu - Avropa-Qafqaz-Asiya. Bu dəhlizin Azərbaycan ərazisindən keçməsi o illərdə şərtləndirildi. Halbuki bəziləri bunu istəmirdilər. Əfsuslar olsun, bu gün də eləələri var ki, Azərbaycanı bu strateji layihədən kənarda qoymaq istəyirlər, amma onların arzuları gözlərində qalacaq.

Azərbaycan Prezidenti bildirib ki, Ulu Öndər Heydər Əliyevin neft strategiyası bu gün imkan verir ki, biz Qarabağı, Zəngəzuru yenidən quraq: "1994-cü ildə "Əsrin kontraktı", 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amildir.

Ölkəmizin geosiyasi önəmi böyük dərəcədə artıb. Bu gün Azərbaycan qazı 6 ölkəyə nəql edilir. Bir il ərzində bu ölkələrin sayı 10-a çatacaq, ondan sonra daha da geniş coğrafiyanı əhatə edəcək. Bu, həm bizə gəlir gətirir, həm bizim siyasi çəkimizi, həm də təsir imkanlarımızı artırır.

Azərbaycanın uzunmüddətli strategiyası çox aydındır və daxili resurslara hesablanıb. Azərbaycan Ulu Öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib. Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Maliyyə resurslarımız, maddi vəziyyətimiz imkan verir ki, ancaq öz daxili resurslarımız hesabına yaşayaq və daxili resurslar hesabına Qarabağı, Zəngəzuru yenidən quraq".

Ölkə rəhbəri bildirib ki, "müharibədən cəmi iki il yarım keçəndən sonra artıq keçmiş köçkünlərimizi iki kəndə qaytarmışıq. 10 kəndin bünövrəsi son günlərdə qoyulubdur. Bütün şəhərlərin Baş planları tərtib edilib və bütün şəhərlərdə indi genişmiqyaslı inşaat işləri aparılır.

İkinci Qarabağ müharibəsindəki Qələbə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Bu Zəfər Azərbaycan durduqca qalacaq, bizim qəlbimizdə, yaddaşımızda, kitablarda, əsərlərdə. Bu, qəhrəmanlıq dastanıdır. Bu, misli görünməmiş qəhrəmanlıqdır.İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi.

Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi. Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq.

Bu gün Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, biz öz doğma torpaqlarımızda qururuq, yaradırıq. Qarabağın və Zəngəzurun bərpası missiyasını da uğurla icra edəcəyik. Necə ki, Ulu Öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhədburaxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı da şərəflə yerinə yetirəcəyik.

**Nicat Novruzoğlu**

## XİN: "Ermənistan Azərbaycana qarşı hərbi təxribatlarını artırır"



**Ermənistan sərhədyanı bölgələrdə Azərbaycana qarşı hərbi təxribatlarını artırır.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistan tərəfindən növbəti hərbi təxribatlar barədə məlumatında qeyd olunub.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş məlumata əsasən, mayın 10-u axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədib və bu təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu ağır yaralanıb.

Ermənistan tərəfinə təxribatlarına son qoyulması və qəsdən vəziyyətin gərginləşdirməməsi barədə xəbərdarlıq edilməsinə baxmayaraq, mayın 11-i səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələri vəziyyəti daha da gərginləşdirərək Azərbaycan Ordusunun mövqelərini minaatanlardan atəşə tutub, təxribatlar nəticəsində bir nəfər hərbi qulluqçumuz həlak olub.

Ermənistanın təxribatlarının hər zaman olduğu kimi sülh sazişi üzrə danışıqların intensivləşdiyi, eləcə də liderlər arasında gözlənilən danışıqlar fonunda baş verməsi Ermənistanın sülh prosesində maraqlı olmadığını göstərir.

Ermənistanın danışıqlar prosesinə xələl gətirən bu kimi əməlləri ciddi formada beynəlxalq ictimaiyyət tərəfindən rədd edilməli və qınanılmalıdır.

Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri bütün lazımı tədbirləri görür.

Vəziyyətin qəsdən gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

## Hüquq müdafiəçisi: "Əfv sərəncamı humanist addımdır, dəstəkləyirik..."

**Xəbər verdiyimiz kimi Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Prezident İlham Əliyev əfv sərəncamı imzaladı.**

Hüquq müdafiəçisi Novella Cəfəroğlu Adalet.az-a açıqlaması zamanı əfv sərəncamının təqdirəlayiq bir addım olduğunu bildirib:



"Dorğurdan da Cənab Prezident tərəfindən imzalanan əfv sərəncamı çox humanist addımdır, dəstəkləyirik. 800 nəfərə yaxın insan ailəsinə qovuşub. Bizim bir az siyasi motivlərlə həbs edilən şəxslərlə bağlı narahatçılığımız var. Çünki o sıradan olan adamlardan çox az sayda məhbus azadlığa çıxıb. Bu məsələni də həll etmək lazım idi ki, Azərbaycana heç bir ölkə irad tutmasın. Amma bütün hallarda biz əfv sərəncamını dəstəkləyirik, gözəl addımdır".

Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə imzalanan bu əfv sərəncamı "müstəqil Azərbaycan tarixində ən böyük əfv aktıdır".

"Sərəncama əsasən 801 məhkum əfv olunmuş, onlardan 463 şəxs azadlıqdan məhrumetmə cəzasından, 220 şəxs azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilmişdir".

**Vasif Əlihüseyn**

*Aqil ABBAS*

## ABŞ VƏ AVROPA DÖVLƏTLƏRİ ƏRDOĞANI NİYƏ İSTƏMİR?

***Qardaş Türkiyədə prezident seçkilərinə bir neçə gün qalıb. Əsas iki namizəd var - sayın Rəcəb Tayyib Ərdoğan və Kamal Kılıçdaroğlu.***

***ABŞ və Avropa dövlətləri pul buraxıb demək olar ki, Türkiyə mətbuatını və sosial şəbəkələri satın alıblar və yönləndiriblər sayın Ərdoğanın əleyhinə. O cümlədən televiziya kanallarının əksəriyyətini də. Kılıçdaroğlunu dəstəkləyirlər.***

***Yəni ABŞ və Avropa dövlətləri başqa bir dövlətin açıqdan-açığa daxili işinə qarışır. Hətta öz mətbuat vasitələrində Ərdoğanı təhqir etməkdən belə çəkinmirlər.***

***Niyə Ərdoğana düşməndirlər? Bunun əsas səbəbi sayın Ərdoğanın Qarabağ savaşında Azərbaycanı dəstəkləməsidir. Avropa Birliyi hətta utanmadan deyir ki, niyə sayın Ərdoğan Azərbaycana dronlar, PUA-lar, "Bayraktar"lar verdi?***

***Heç kəsə sirr deyil ki, böyük Türkiyə dövləti uzun illər ABŞ-ın dediyi ilə oturub-durub. Dəmirəl də bizi çox sevirdi, amma çətin anımızda bizə Allahın bir vertolyotunu vermədi ki, Kəlbəcər camaatını çıxaraq. Səbəbi də o idi ki, Türkiyə NATO-nun üzvüdür, ABŞ-dan və NATO-dan icazəsiz bizə yardım edə bilməz. Sayın Turqut Özal da ABŞ-ın qorxusundan bizi tək qoydu və məzhəb söhbəti elədi.***

***Amma sayın Ərdoğan nə ABŞ-ı vecinə aldı, nə NATO-nu. 44 günlük müharibədə yanımızda oldu, bu gün də yanımızdadır. Və bundan başqa da sayın Ərdoğanın hesabına Türkiyə güclü bir dövlətə çevrilib, söz sahibidir, daha ABŞ-ın hər bir əmrinə "baş üstə" demir. Əksinə, ABŞ-a və Avropa dövlətlərinə qətiyyətlə öz yerini göstərir.***

***Məni maraqlandıran odur ki, baxıram sosial şəbəkələrdə bir qrup azərbaycanlı da qoşulub ABŞ-ın və Avropanın siyasətinə, sayın Ərdoğanın əleyhinə kampaniya aparır.***

***Bu günlərdə bir qrup dostlarla Türkiyədə işgüzar səfərdə oldum. İyirmiyə qədər qeyri-hökumət təşkilatları ilə, siyasi partiyalarla, universitet rektorları ilə, kürd qardaşlarımızla görüşlərimiz, söhbətlərimiz oldu. Və canlı şahidi olduq ki, Türkiyə sayın Ərdoğan deyir!***

***Sayın Ərdoğanın əleyhinə kampaniya aparan azərbaycanlı soydaşlarımıza onu demək istərdik ki, ürək bulandırmayın. Seçim Türk xalqınındır, 14 mayda da Cümhur ittifaqının qələbəsini görəcəksiniz.***

## Hikmət Mirzəyev şəhid Pəncəli Teymurovun məzarını ziyarət etdi



**Azərbaycan Silahlı Qüvvələrinin general-leytenantı, Xüsusi Təyinatlı Qüvvələrin komandanı Hikmət Mirzəyev Xüsusi Təyinatlı Qüvvələrin şəhid hərbçisi Pəncəli Teymurovun mərazını və ev muzeyini ziyarət edib.**

Adalet.az xəbər verir ki, bu haqda şəhid Pəncəlu Teymurovun ailəsi məlumat verib. H.Mirzəyev bir qrup hərbçiylə birlikdə Astaranın Əzərüd kəndinə gedərək şəhid Pəncəlinin anası Vahimə xanımla görüşüb.

Xatırladaq ki, H.Mirzəyev 2016-cı il Şanlı aprel döyüşlərinin və Vətən müharibəsinin hərbi rəhbərlərindən biridir. "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. O, Cəbrayıl rayonunun və Şuşa şəhərinin azad olunması əməliyyatlarına rəhbərlik edib.

Xatırladaq ki, "Qoca qurd" ləqəbli Pəncəli Teymurov 1981-ci il martın 24-də Atsara rayon Əzrüd kəndində anadan olub. 17 il Silahlı Qüvvələrimizdə xidmət edib. "İgidliyə görə" medalı ilə təltif edilib. Aprel döyüşlərimiz zamanı qəhrəmancasına şəhid olan Pəncəli Teymurov ölkə başçısı tərəfindən "Vətən uğrunda" medalı ilə təltif edilib. Ailəli olan gizirimizin çox təəsüf ki, övladı olmayıb. Pəncəli öz toyunda çıxış edərək şəhid olmaq istədiyini demişdi. Şəhidimizin toyunda onda tanınmış müğənni Manaf Ağayev iştirak edib.

**Allah cəmi şəhidlərimizə rəhmət eləsin!**

**Vasif Əlihüseyn**

## Politoloq: "Rusiyanın məğlubiyyəti yaxınlaşır..."



**"Rusiya düşərgəsində gözləyirlər ki, ukraynalılar əks-hücuma keçəcəklər. Bilirlər ki, Ukrayna ordusunu Qərb dövlətləri kifayət qədər müasir silahlarla təchiz edib"**

Bu Adalet.az-a açıqlamasında politoloq Zərdüşt Əlizadə deyib. Politoloq Rusiyanın artıq müharibəni uduzduğunu bildirib: "Onlar istehkamlar tikirlər, səngərlər qazırlar, müqavimət göstərməyə çalışırlar. Amma artıq rus ordusunun əks-hücum potensialı çox aşağıdır. Rusiyanın 40-50 min arası etiyat qüvvələri var, onların da döyüş qabiliyyəti aşağıdır. Hər halda bu cür hərbi uğursuzluqlar, itkilər ona gətirib çıxarır ki, əsəblər gərilib və it kimi boğuşmağa başlayıblar. Bir məsəl var deyir ki, "qələbənin atası çox olar, məğlubiyyət həmişə yetim qalar". Məğlubiyyət artıq yaxınlaşır, hamı məsuliyyəti boynundan atamağa çalışır, bir-birilərini ittiham edirlər. Priqojin də müdafiə nazirini və baş qərargah rəisini ona görə ittiham edir ki, Bahmutdakı uğursuzluqların səbəbi odur ki, onlara kifayət qədər silah-sursat verməyiblər".

## "Bu görüşlər olduğu ərəfədə belə təxribatların törədilməsi görünür ki..."

**"Bu təxribatların baş verməsi əlbəttə ki, Ermənistan hərbi siyasi hakimiyyətinin üzərinə düşür. Bu onlar tərəfindən törədilən haldır və birinci dəfə deyil. Bundan öncə də belə təxribatlar baş verib. Yəni üçtərəfli bəyannamənin imzalanmasında iki il yarımdan çox vaxt keçir. Ermənistan tərəfi Azərbaycanın Qarabağ bölgəsində, yaxud Azərbaycan-Ermənistan şərti dövlət sərhədində bu cür təxribatları dəfələrlə həyata keçirib. Bu da növbəti təxribatdır"**

Bunu Adalet.az-a açıqlamasında politoloq Samir Hümbətov deyib. Politoloq Ermənistanın qəsdən daim bu cür təxribatlar törətdiyini bildirib: "Düşünmürəm ki, bu təxribat sonuncu olacaq. Ermənistan tərəfində artıq bu cür təxribatların baş verməsi adi hala çevrilib. Hesab edirəm ki, hətta bu, Ermənistan ordusu daxilində kənar qüvvələrin təsiri altında da baş verə bilər. Çünki Ermənistan ordusu daxilində kənar qüvvələrin təsiri çoxdur. Xüsusilə də Rusiyaya, İrana, Fransaya, ABŞ-a məxsus olan, onların əmriylə işləyən şəxslər var. O baxımdan hesab edirəm ki, baş verən təxribat da məhz daha çox danışıqlar prosesini pozulmasını hədəfləyir. Bilirsiniz ki, xarici işlər nazirləri Vaşinqtonda görüşüblər və bəzi irəliləyişlərin olmasıyla bağlı fikirlər var. İndi isə mayın 14-də liderlər səviyyəsində Brüsseldə və arıyca Moskvada görüş keçirilməlidir. Bu görüşlər olduğu ərəfədə belə təxribatların törədilməsi görünür ki, danışıqlar prosesini pozmağa hesablanıb. Eyni zamanda, nəzərə almaq lazımdır ki, Paşinyan Moskvada səfərdədir. Adətən liderlərin səfərləri zamanı bu cür təxribatların baş verməsinin şahidi olmuşuq".

**Vasif Əlihüseyn**

## DİN-də "Heydər Əliyev ili"nə həsr olunmuş tədbir keçirildi



**Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasətçi Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibəti ilə mayın 6-da Daxili İşlər Nazirliyinin rəhbər heyəti, əməkdaşları və hərbi qulluqçuları Fəxri xiyabana gələrək Ulu Öndərin abidəsi önünə çiçək dəstələri düzüblər.**

Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib.

Sonra nazirlikdə ümummilli liderin yubileyinə həsr olunmuş tədbir keçirilib.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tədbiri giriş sözü ilə açaraq Ulu Öndər Heydər Əliyevin yeni Azərbaycanın qurulmasında, onun müstəqilliyinin, iqtisadi-siyasi əsaslarının möhkəmləndirilməsində, ölkəmizin beynəlxalq birliyin tam və bərabərhüquqlu üzvünə çevrilməsində, demokratik imicinin yüksəldilməsində, ümumən dövlətçilik tarixində müstəsna xidmətləri barədə ətraflı qeyd edib, daxili işlər orqanlarının formalaşmasında və inkişafında rolunu, şəxsi heyətə diqqət və qayğısını vurğulayıb.

**Tədbir iştirakçıları qarşısında Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun şöbə müdiri, tarix üzrə elmlər doktoru, professor Ədalət Qasımov ”Azərbaycan xalqının tarixi taleyində Heydər Əliyev fenomeni” mövzusunda əhatəli çıxış edib. Tədbirdə ümummilli liderin zəngin həyat yolundan və fəaliyyətindən bəhs edən ”Heydər Əliyev və 44 günlük Zəfər Yolu” sənədli filmi nümayiş olunub. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə elan olunmuş ”Heydər Əliyev ili” çərçivəsində silsilə tədbirlər Nazirliyin Polis Akademiyasında, Ali Hərbi Məktəbində, Əlahiddə Çevik Polis Alayında, Bakı şəhər Baş Polis İdarəsində, ərazi polis orqanlarında və hərbi hissələrində də keçirilib, həmçinin konfranslar, intellektual yarışlar, idman turnirləri, müsabiqələr, ağacəkmə aksiyaları və sair təşkil edilib.**



*Rüstəm Hacıyev*

## Kissincer danışıqların vaxtını bəyan etdi

*Rusiya-Ukrayna müharibəsinin nə vaxta qədər davam edəcəyi sualı ətrafında müzakirələr dayanmır. Bir çox siyasi ekspertlər qarşıdurma tərəflərinin danışıqlar masasına oturmaq üçün irəli sürdüyü tələblərə əsaslanaraq bu müharibənin sonsuzluğa qədər davam edəcəyini bildirirlər. Bəzi siyasətçilər isə, bu müharibənin Üçüncü dünya müharibəsinə çevrilə biləcəyi barədə xəbərdarlıqlar edirlər.*

*Danışıqlar masasına oturmaq üçün, Rusiya Krım yarmadası da daxil olmaqla işğal etdiyi ərazilərin Ukrayna tərəfindən tanınması, Ukrayna isə, beynəlxalq hüquqla tanınan ərazilərindən rus qoşunlarının qeyri-şərtsiz çıxarılması şərtlərini irəli sürürlər. Təbii ki, bu şərtlər nə Rusiyanı, nə də Ukraynanı qane etmir.*

*Dünyaca tanınmış siyasətçi, Amerika Birləşmiş Ştatlarının keçmiş dövlət katibi Henri Kissincer CBS Sunday Moring telekanalına verdiyi müsahibəsində bildirib ki, Rusiya ilə Ukrayna arasında sülh danışıqları bu ilin axırlarına yaxın baş tuta bilər.*

*Kissincerin sözlərinə görə, Çin tərəfinin münaqişənin həlli ilə bağlı təklif etdiyi sülh planı ”hər şeyi öz yerinə qoya bilər”. ”Mən hesab edirəm ki, bu ilin sonunadək biz danışıqlar prossesinin başlandığl haqqında danışa biləcəyik”- deyə siysətçi bəyan edib. Bundan başqa ABŞ-ın eks dövlət katibi güman edir ki, hazırda Ukrayna böhranı qırılma anına yaxınlaşır.*

*Henri Kissincerin dünya siyasətini dərindən analiz etmək bacarığının dəfələrlə şahidi olmuşuq. Eks dövlət katibi yəqin ki, həm Rusiyanın, həm də ABŞ başda olmaqla NATO-ya üzv dövlətlərin müharibəni davam etdirmək güclərinin getdikcə tükənməsi səbəbindən ən azından danışıqlar masasına oturmaqdan başqa çarələri qalmayacağlnı nəzərdə tutaraq belə bir proqnoz verir.*

*Bundan başqa, Kissincer daha əvvəllərdən də bildirdiyi kimi, Ukrayna tədricən neytral mövqe tutmalı, ABŞ-In təkidi ilə NATO-ya daxil olmaq niyyətlərindən geri çəkilməlidir. Çünki, Moskvanın Kiyevin alyansa üzv olması ilə heç vaxt razılaşmayacağı hamıya məlumdur.*

*Rusiya NATO qüvvələrinin sərhədlərinin lap yaxınlığında yerləşməsi və ölkənin strateji dərinliklərini nəzarətə götürməsini qəbul edə bilməz.*

*Qalır danışıqların şərtlərində tərəflərin şərtlərini yumşaltmaq məsələsi. Prossesin ən çətin və həlləki cavabı məlum olmayan hissəsi bu sualın cavabındadır. Deyək ki, Kiyev NATO-ya üzvlük iddiasından əl çəkə bilər və Rusiyanın da istədiyi kimi neytral mövqe tuta bilər.*

*Lakin Ukraynanın haqlı olaraq rus qoşunlarının işğal etdiyi ərazilərdən çıxarılması, ərazi bütövlüyünün bərpa olunması tələbləri Kreml tərəfindən yerinə yetirilə bilərmi? Xüsusilə də, Rusiya öz ərazisinə daxıl etdiyi Krımdan əl çəkməyə razılıq verərmi?*

*Rusiya prezidenti kimi fəaliyyətə başladığı gündən umperiyanın bərpası iddialarını ortaya qoyan Vladimir Putinin hakimiyyətini davam etdirəcəyi müddətdə bunun baş verə biləcəyi inandırıcı görünmür.*

*Onun, Kissincerin bəyan etdiyi kimi, sülh danışıqlarının ilin axırınacan baş tutacağı vaxtadək hakimiyyətdən uzaqlaşdırılacağını mümkün variant kimi qəbul etmək isə, heç inandırlcı deyil.*

*Bəs onda ABŞ-ın eks dövlət katibi hansı hesablamalarına görə qətiyyətlə belə bir qənatə gəlib? Hər halda yuxarıda da qeyd etdiyim kimi, Henri Kissincer dünyanın ən ağıllı, dünya siyasətini daha dərindən analiz edən siyasətçilərdən biri, bəlkə də birincisidir.*

*Yəqin dünyada proseslərin tez bir zamanda və gözlənilmədən dəyişə bilməsi təcrübəsindən çıxış edərək, cəsarətlə belə bir proqniz verib.*

*İlin axırı uzaqda deyil. Gözləyərik, görərik. İlin axırı siyasətçilər üçün uzaqda deyil, Ukrayna üçün, Ukrayna xalqı üçün çox uzaqdadır.*

*Hələlik isə Ukraynada qanlı müharibə davam edir, hər gün munlərlə, on minlərlə mərmi partlayır, insanlar qırılır, şəhər və kəndlər dağılır, infrastrukturlar məhv edilir. Milyonlarla dinc sakunlər doğma yurd yuvalarlnı tərk edib, verilən məlumatlara görə, bir ildən artıqdır ki, davam edən müharibədə hər iki tərəfdən ölənlərin sayı yarım milyona çatıb və yaxud yarım milyonu keçib.*

*Hələ ilin sonuna kimi nələr baş verəcək, daha nə qədər insan ömrü kəsiləcək...*

## Fuad Nəcəfli: "Zəngəzur dəhlizi reallaşdırıldıqdan sonra Naxçıvan üçün böyük perspektivlər açılır"

**Zəngəzur dəhlizi reallaşdırıldıqdan sonra Naxçıvan üçün böyük perspektivlər açılır.**

Adalet.az xəbər verir ki, bunu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan televiziyasına müsahibəsində deyib. F.Nəcəfli bildirib ki, perspektiv planlar sırasında Naxçıvan Muxtar Respublikasının ”yaşıl enerji” dəhlizinə çevrilməsi prioritetlərdən biridir. İqtisadiyyatın müxtəlif sahələrində inkişaf proqramları işlənib hazırlanır:”Xüsusilə, ərzaq təhlükəsizliyinin və əhalinin məşğulluğunun təmin olunması işində roluna görə aqrar sahənin inkişafına



daha çox diqqət ayrılır. Bu sahə ilə sıx bağlı olan meliorasiya və irriqasiya sistemlərinin müasirləşdirilməsi və su təminatının, su keyfiyyətinin yaxşılaşdırılması vacib məsələlərimizdən biridir. Naxçıvan Muxtar Respublikasında özəl sektorun inkişaf etdirilməsi, sahibkarlığa dəstək və investisiyaların cəlbi də əsas hədəflərimiz sırasındadır.

Ümumilikdə xammal potensialı daha çox olan ərazilərimizdə ailə təsərrüfatlarına, kiçik və orta biznesə dəstək, subsidiyaların verilməsi ən vacib məqamlardan biridir. Qarşıdakı əsas məqsədlərimizdən biri daxili və xarici bazarlar üçün ”Orqanik Naxçıvan” ekoloji təmiz qida məhsullarının istehsal, emal, tədarük və çatdırma zəncirini formalaşdırmaqdır. Naxçıvan Muxtar Respublikasında yeni başlayan işlərdən biri də ərazinin mineral xammal ehtiyatlarının yenidən öyrənilməsidir. Hesab edirik ki, mövcud potensial əsasında rəqabətədavamlı yeni sənaye müəssisələrinin qurulması mümkündür ki, bunun da nəticəsində iqtisadi inkişaf tempi sürətlənəcək”.

Səlahiyyətli nümayəndənin sözlərinə görə, istehsal və xidmət sektoru üzrə ixtisaslaşan onlarla brendin ötən 3 ayda Naxçıvana gəlməsi onu göstərir ki, Naxçıvan investisiyalar üçün cəlbedici məkandır:

”Yaxın günlərdə Naxçıvanda yeni duz istehsalı zavodu və mineral sular istehsalı sahələri də fəaliyyətə başlayacaq. Ordubadda ənənəvi konserv və ipəkçiliyin yenidən canlandırılması da hədəfimizdir”./report

## Polkovnik: “Şuşaya buraxılsaydım, 147 şəhidin nəşi qalmış ərazini göstərərdim”

***31 il əvvəlin bu günü ... Bu gün Ermənistan silahlı qüvvələrinin Rusiyanın 366-cı alayının 40 zirehli texnikasının köməyi lə Azərbaycanın dibər guşəsi Şuşa şəhərini işğal etməsinin ildönümüdür.***

***Adalet.az xəbər verir ki, 1992-ci il mayın 7-dən 8-nə keçən gecə erməni hərbi birləşmələri 11 min nəfərlik qoşunla üç istiqamətdən Şuşa şəhərinə hücum edib və Şuşa talan olunub. Həmin gün nəinki, şuşalıların, qarabağlıların eləcə də, bütün azərbaycanlıların ən ümidsiz, kədərli, məğlub olduqları bir gün kimi yaddaşına həkk olundu. Şuşa rayonunun Malıbəyli kəndində doğulub boya-başa çatmış peşəkar hərbçi, ehtiyatda olan polkovnik Azay Kərimovla həmin günü bir daha xatırlayacayıq.***

**- Cənab Polkovnik, 3 ildir Şuşa düşmən işğalından azad olub. Artıq 8 may bizi əvvəlki illərdə olduğu qədər ağrıtmır... 2020-ci ilə qədər və 2020-ci illərdən sonra 8 mayı siz necə hiss edirsiniz?**

- Hər zaman bunu təkrar etmişəm ki, 2020-ci ilə qədər bir hərbçi olaraq , bir şuşalı kimi gündüz oturanda da, işləyəndə də, yemək yeyəndə də, gecə yatanda da yalnız Şuşanı azad etməyin yolları barədə düşünmüşəm. Hər gün beynimdə əməliyyat planları hazırlamışam, xəritələr çəkmişəm, hesabatlar aparmışam. 2020-ci ilə qədər nəinki Şuşa, hətta 7 rayonumuzun da işğaldan azad olunacağına Allahın möcüzəsi hesab eləyirdim. Nəhayət 2020-ci ilin noyabrında Şuşa ermənilərdən azad oldu.... Əslində bu möcüzə deyildi, bu Azərbaycan Ordusunun peşəkar, psixoloji hazırlığı, əsgər və zabitlərimizin əməyidir..

**- Şuşanın azad olması xəbərini necə qarşıladınız?**

- O anı nə vaxt xatırlayıramsa, yenə kövrəlirəm. Bəli, Şuşa işğaldan azad olanda ömrümdə ilk dəfə idi ki, bir zabit olaraq hönkürtü ilə ağladım. Çünki Şuşa və 7 rayonun işğaldan azad olunması Azərbaycanı dünyada məğlubiyyət biabırçılığından, soydaşlarımızı xəcalət hissindən , tənqid və təhqirlərdən qurtardı. Təəssüf ki, 2020-ci ildən bu günə qədər yenə eyni hissləri keçirirəm, ürəyim sakit deyil. Çox şey bilirəm, xırdalamaq istəyirəm. Daha dəqiqi, nə qədər ki, Xankəndidə, Xocalıda 10 mindən çox rus hərbçisi var, mən Şuşanı təhlükədə görürəm. Hazırki, durum mən istədiyim , ar-






zuladığım səviyyədə deyil, deyə sevinə də bilmirəm.

**- Neçə dəfə getmisiniz Şuşaya?**

-Düz 3 dəfə ”portal”a müraciət eləmişəm. Bilmirəm, hansı səbəbdəndirsə, məni Şuşaya buraxmırlar. Heç dövlət səviyyəsində dəvət edən də olmayıb. İncimirəm. (festival və turlar ı nəzərdə tutur-red Ə.R ) Amma baxıram, 1992-ci ilin martından, aprelindən Şuşanı qoyub, qorxusundan Bakıya qaçanların hamısı Şuşada ”boydu-boyduya” verib, şəkil çəkdirirlər, ”canım Şuşam ” deyib , özlərini reklam edirlər.

Bu da xətrimə dəymir. O vaxt Şuşanın icra hakimiyyətinin başçısı rəhmətlik Nizami Bəhmənov və şəhər sovetinin sədri Vaqif Hüseynov Şuşa şəhərində mənə 3 otaqlı ev vermişdilər. Mən o evdə bir dəfə olsun uzanıb rahat dincəlmədim. O evdə qalmırdım . 777 saylı xüsusi təyinatlı əlahiddə hərbi hissənin kazarmasında qalırdım. Maraqlı olan, daha doğrusu məni incidən odur ki, indi siyahıya alınma gedir, məni heç o siyahıya da almırlar. Evimisə özümə qaytarmaq istəmirlər.

**- Axı niyə? Siz 1990-cı ilin iyulundan doğma Şuşanızın, Malıbəyli kəndinin erməni quldurlarından müdafiəsinə qoşulmusunuz, Malıbəylidə insan qırğının qarşısının alınmasında şücaət göstərmisiniz, 6500 nəfərin həyatını xilas etmisiniz.... Qarabağda döyüşmüş, canını torpaq yolunda fəda etmiş qaziyə qarşı bu nə soyuq münasibət?**

- Bilmirəm.... 28 il 7 ay orduda xidmət etmişəm, bunun 16 ildən çoxunu Azərbaycan Ordusunda xidmət göstərmişəm. Qarabağda əlimdən gələndəndə artıq eləmişəm, hər şeyimi qurban vermişəm bu müharibəyə, hər şeyimi...3 dəfə ağır yaralanmışam, 31 ildir, elə indi də o travmaların yaraların acısını yaşayıram. Hazırda xəstəxanada yatıram, vəziyyətim heç yaxşı deyil ..Bildiyim odur ki, elə bil məni heç kim görmür, duymur, hesaba almır... *(Susur)*

**- Bu 3 ildə siz ora getsəydiniz nəyi dəyşdirə bilərdiniz, baş vermiş hansı olayın üstünü aça bilərdiniz?**

- Bilirsiniz, indi ora gedənlərin çoxu Gəncə qapısının, Qala qapısının qarşısında şəkil çəkdirirlər. Ordan təxminən 2-3 km Albertin vurduğu tanka çatmamışa qədər 3-ü şuşalı olmaqla 147 insan o zonada şəhid olub. Bu günə qədər də nə adları çəkilir, nə də axtaran var.Orada 147 nəfər Ramiz Qənbərovun, 25 nəfər Tofiq Oğuzun, 15 nəfər Fəxrəddin Səfərovun batalyonundan, 777saylı xüsusi təyinatlı əlahiddə hərbi hissədən 25 nəfər həlak olubdur. Hələ indiyə qədər nə o uşaqların adlarını çəkən var, nə onların axtarılıb tapılması üçün təşəbbüs göstərən. Nə də bunun üçün yuxarı instansiyalardan icazə istəyən var. Bu şəhidlərin hamısı o torpaqdadır, icazə verilsə o uşaqların hamısını axtarıb tapmaq mümkündür. İzləyirəm, deməli, Şuşaya gedənlərin heç birisi, istər adi vətəndaş, istərsə də keçmiş hərbçilər lər olsun, həlak olan o hərbçilərin aşkarlanmasında maraqlı deyillər. Amma mən 90 faiz onların harada, hansı səmtdə şəhid olduqlarını bilirəm. Məni buraxsınlar, gedim kimin harda həlak olduğunu, nəşi harda qaldığını göstərim.

**- Azay bəy, bir dəfə, Vətən müharibəsindən çox əvvəl sizdən müsahibə götürürdüm, sual verdim ki, ən böyük arzunuz nədir? Dediniz ki, azad olunmuş Şuşanı görmək! Sonra da gülümsəyərək əlavə elədiniz ki, Şuşada sizə müsahibə vermək! Şükür həmin arzunuz yerinə yetdi, Şuşa azaddır! Bəs nə vaxt gedək Şuşaya, qarış -qarış gəzdiyiniz, sevdiyiniz o yerlərdə mənə daha maraqlı bir müsahibə verəsiniz?**

- Məsəl var, deyirlər, ömür bitir arzu bitmir. İndi də başqa arzum var.

İstəyirəm ki, Fuzulinin Əhmədbəyli kəndindən başlayaraq Şuşaya gedən 82 km-lik yol ilə yox, Ağdam - Şuşa arasındakı 28 km-lik yolla yurduma gedim. Bax, onda bütün ağrılarım sakitləşəcək, ürəyim narahat qalmayacaq, incikliklərimi unudacağam. Hə, bax onda sizə də bir müsahibə məndən!

**- İnşallah! Bu həm də bir Ağdamlı kimi mənim arzumdur! Allah ikimizi də arzumuza çatdırsın! Hələlik isə salamat olun! Allah sizə şəfa versin!**

**Əntiqə Rəşid**

## Ermənilər Hadrutdakı tikintilərə əsəbləşdi: «Kitabxanamız, 39 min 720 kitabımız hanı?»

**Sosial şəbəkələrdən və mediamızdan Hadrut qəsəbəsində gedən tikinti-quruculuq işləri erməniləri əməlli-başlı təəssüfləndirib.**

Adalet.az xəbər verir ki, nəfəsləri də yalanla gedib gələn ermənilər medialarında yenə fitnəfəsadlarla dolu xəbərlər yaymaqdadırlar.

Beləki Azərbaycan mətbuatının, daha dəqiq Report saytının video -xəbərdə binanın itdiyini görən İsaakyan adına Mərkəzi Kitabxananın direktoru Varsik Amircanyan həmin videodan götürdüyü fotolardı paylaşaraq :” Azərbaycanlılar işğal (?) etdikləri Hadrut (Ağoğlan )şəhərinin mərkəzi kitabxanasını dağıdıblar” yazıb..

”Hadrutun mərkəzi kitabxana binası hələ 1932-ci ildə tikilib. Azərbaycanlıların yayımladığı videodan da görünür ki, kitabxananın binasından demək olar ki, heç nə qalmayıb”, - kitabxananın direktoru bildirib.

Onun sözlərinə görə, 2020-ci ilin məlumatına görə, kitabxananın fondu 39 min 720-yə yaxın kitab olub. Təxminən 750-800 oxucu var idi. Hazırda kitab fondundan heç bir məlumat yoxdur.

V. Əmircanyan sərsəmləyinə davam edərək ”Azərbaycan mədəni vandalizminin” növbəti təzahürünü beynəlxalq məhkəmələrdə qaldırmaq üçün qondarma ”Artsax Dövlət Mədəni İrsin Mühafizəsi Şurası”na müraciət edəcəklərini bildirib.

***P.S.** Yeri gəlmişkən biz də bu uydurmaçılara bəzi həqiqətləri deyək: Əslində nəinki tək Hadrut, bütün Qarabağ Azərbaycan torpağıdır. Orda nəyi sökmək, nəyi tikmək Azərbaycan dövlətinin qərarıdır. Qaldı sizin ”qiymətli kitablar”a onlarda mütləq tikinti abadlıq işləri zamanı ”xeyirli əməllər”də istifadə edilir. Allah torpağımızı mikroblardan qoruyan ordumuza və tikinti quruculuq işləri görən vətəndaşlarımıza qüvvət versin!*

*Zatən o kitablar sizdə olarkən onların heç bir insani xeyiri və yaxud tərbiyəvi əhəmiyyəti olmayıb. Yəni, kitablardan xatircəm olun!*

*Qaldı da kitabxananın sökülməsinə, ondan da nigaran qalmayın. Ötən gün Prezidentin Xocavənd rayonu üzrə səlahiyyətli nümayəndəsi Əli Zeynalov açıqlama yayıb ki, Qarabağ iqtisadi rayonuna daxil olan Hadrut qəsəbəsində tikinti-quruculuq və bərpa işləri geniş vüsət alıb.*

*Deyib ki, Hadrut qəsəbəsinin inzibati ərazisinin tikintisinin 2024-cü ilin martında başa çatdırılması planlaşdırılır:” Hadrut qəsəbəsində inzibati*



*mərkəzin ümumi sahəsi 4,2 hektar təşkil edir. Buraya inzibati bina, bələdiyyə binası, mədəniyyət mərkəzi və infrastruktur qurumlarının binaları daxildir.*

*Həmçinin 360 yerlik tam orta məktəbin bərpa edilərək istifadəyə verilməsi nəzərdə tutulub”*

*Amma ötən ildən bizə aydındır ki, Hadrutda infrastruktur layihələrinin icrasına başlanıldı. Avtomobil yolu və ”Hadrut” yarımstansiyasının təməli qoyuldu, qəsəbədə məscidin tikintisinə start verildi.*

*Həmçinin Hadrut qəsəbəsində ilk yaşayış məhəlləsinin də Prezident tərəfindən təməli qoyulub. Yaşayış məhəlləsində birinci mərhələdə tikiləcək evlərin sayı 28 ədəd olacaq. Həmin evlər 1, 2, 3, 4 və 5 otaqlı olmaqla sahəsi 70-120 kvadratmetr təşkil edəcək. Bundan başqa, Hadrut qəsəbəsində olan 360 şagird yerlik tam orta məktəbin də 2025-ci ilə qədər bərpa olunaraq istifadəyə verilməsi nəzərdə tutulub. Ümumilikdə isə Hadrut qəsəbəsində tikiləcək və bərpa olunacaq obyektlər və ətraf ərazilərin abadlaşması işləri də 2025-ci ildə başa çatması planlaşdırılıb.*

*Yəni narahatçılığa da ehtiyac yoxdu, o köhnə kitabxananın yerində çox gözəl və müasir standartlara uyğun kitabxana, mədəniyyət evi və sair tikiləcək!*

**Əntiqə Rəşid**

*Mehman Muradlı*
*Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, Bakı şəhəri 22 saylı Vəkil Bürosunun direktoru*



## Heydər Əliyev – Yüzilin ədalət tanrısı

**Böyük liderlərin həyatın bütün sferalarında - istər sosial, istər siyasi ,istərsə də sadə insanların məişətində izləri əbədi qalır. Heydər Əliyev məhz yüzilliyin ədalət tanrısı kimi hər bir azərbaycanlının həyatında izləri var.**

**Ədalət elə bir məhfumdur ki, onun nəfəsi olmadan nə insan, nə də dövlət yaşaya bilər. Heydər Əliyevin Azərbaycanın və azərbaycanlıların taleyinə dönüşü bizi ilahi ədalətlə tanış etdi. Məhz onun sayəsində indi müstəqil Azərbaycan vətəndaşı olmaq qürurunu yaşayırıq. Onun sayəsində yetmiş ildən çox davam edən Sovet əsarəti, daha sonra isə hakimiyyət davasına görə xalqı ölümə sürükləyənlərdən xilas olduq.**

**Xalqın yaddaşı - daş yaddaşıdır. Xalq hər şeyi xatırlayır. Xalqın yaddaşında isə liderlər ədalət tərəziləri ilə qalır. Ədalət tərəzisi isə hamının əlində eyni cür işləmir. Tarixdən qısa xatırlatma :**

**Tarix dərsi**

**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin təsisçisi olduğu ”Xalq qəzeti”ndə 2016-cı ildəyayımlananyazıda da, bildirilir ki, İsa Qəmbər 1992-ci il iyunun 16-da barələrində ölüm hökmü verilən 7 nəfərin bağışlanması haqqında vəsatətləri rədd edib.**

**Həmin şəxslərin cəzası 1993-cü ilin fevralında icra edilib.**

**1993-cü il yanvarın 5-də daha iki məhbusun bağışlanılmasından imtina edilib. Həmin dövrdə Prezident Milli Azadlıq Hərəkatının lideri Əbülfəz Elçibəy olub. Əfv olunmayan həmin şəxslər aşağıdakılar idi:**

**1.Boqdanov Roman Yeqoroviç**

**2. Salman Fərmanov**

**Ümumilikdə, bağışlanılması üçün barələrində müraciət edilən doqquz məhbusun səkkizi güllələnib, doqquzuncu şəxs isə hökmün icrasına qədər vəfat edib.**

**Qeyd edək ki, ölüm cəzası hazırda qüvvədə olmayan Cinayət Məcəlləsindəmüstəsna cəza tədbiri kimi nəzərdə tutulurdu.**

**Daha bir tarixi xatırlatma: Ulu öndər Heydər Əliyev 1998-ci il yanvarın 22-də ölüm hökmünün ləğv olunması haqqında təşəbbüsləMilli Məclisə müraciətində cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək idealları rəhbər tutmaqla ölkədə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəldiyini bildirib. Bu tarixi bəyanatın zəruriliyini əsaslandırıb. Milli Məclis dövlət başçısının ölüm hökmü ilə əlaqədar təklifini dəstəkləyibvə 1998-ci il fevralın 10-da bu tarixi qərarı qəbul edib. Ölüm hökmünün ləğvi ilə Azərbaycanın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşmüşdür. Ulu öndər ölüm hökmünü ləğv etməklə bəşəri humanizmə və beynəlxalq hüquq normalarına sadiqliyini bir daha nümayiş etdirib.**

**Amnistiya - Müstəqil həyat bəxş edən lider: 1995-2003-cü illər ərzində Ümummilli Lider Heydər Əliyev tərəfindən ümumilikdə 3104 məhkuma şamil edilməklə, 32 əfv fərman və sərəncamı imzalanıb. Eyni zamanda, Ulu Öndər Heydər Əliyev Azərbaycanda amnistiya aktlarının qəbulunu da mütərəqqi ənənəyə çevirmiş və onun təşəbbüsü ilə 7 amnistiya aktı qəbul edilib. Bu amnistiya aktları 77 mindən artıq insana şamil olunmuş və nəticədə həbsdən azad edilmiş insanlar ailələrinə və cəmiyyətə qovuşub.**

**Heydər Əliyev ədaləti demək - insan həyatının dəyərlilyi demək idi.**

**Milli hüquq**

**Dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev isə hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi.**

**Yeni Konstitusiyanın layihəsinin hazırlanması kimi cox ciddi və məsuliyyətli vəzifəni bilavasitə öz üzərinə götürən dahi öndərimiz bununla bağlı xüsusi yaradılmış Komissiyaya şəxsən rəhbərlik etmişdir.**

**”Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik”**

**Yeni polis:**

**Heç şübhəsiz ki , doxsanıncı illərin əvvəllərində ki hərc-mərclik, siyasi çaxnaşmalar, qeyri-sabitlik dövlətin və vətəndaşın taleyini məhvə aparırdı. Heydər Əliyev ədalətinin şəfəqləri ölkəmizin üzərinə düşdükdən sonra Azərbaycandakı ictimai həyat məhz hüquq-mühafizə orqanlarının sayəsində bərqərar oldu. Polisin fasiləsiz fəaliyyəti, anti-terror əməliyyatlarının müstəsna rolu vətəndaş və polis arasındakı Sovet uçurumunu da yox etdi. Polis, hazırda ”qarşı tərəf” deyil, vətəndaşla eyni cərgədə dövlət üçün addımlayan sarsılmaz qüvvədir.**

**Müstəqil Azərbaycan vəkilliyinin müəllifi Heydər Əliyev**

**Azərbaycanda vəkilliyin müstəqil təsisat kimi formalaşması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin rəhbərliyi ilə bu sahədə aparılan islahatların davamlılığı, qəbul edilən qanunlar vəkillik peşəsinin inkişafı üçün atılan vacib addımlar idi.Heydər Əliyevin sayəsində vəkillik layiq olduğu münasibətə çata bildi. Vəkilliyin nüfuzu artdı , vəkillər peşə məsuliyyətini daha dərindən anladı.**

**Ulu öndərə qədər hüquq fakültəsində təhsil alan gəncliyin arzusu prokuror, hakim idisə, yüksələn vəkillik nüfuzu sayəsində indi həm də vəkillik peşəsidir.**

**Dahi lider gözəl anlayırdı ki, vəkillik peşəsi ədalətin məhəng daşıdır, onurğa sütunudur. Bu sahə nə qədər möhkəm olarsa, ədalətin zəfər çalması daha çox asanlaşar.**

**Hazırda müstəqil Azərbaycanın hər bir vəkili Ulu öndərin islahatları nəticəsində rahat və prinsipal fəaliyyət sahibi olaraq fəxr hissi duyur. Təməlini Heydər Əliyevin qoyduğu bu islahatların ardıcıllığı nizamlı şəkildə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir.**

**Yazımı böyük liderin kəlamı ilə bitirirəm. Çünki düha sözündən sonra artıq şərhə ehtiyac yoxdur.**

**Onun hər kəlamı tarixi idi : Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.**

## ÜST: “Pandemiya başlayandan ən azı 20 milyon insan COVID-19-dan ölüb”

**Pandemiya başlayan 2020-ci ildən bəri ən azı 20 milyon insanın COVID-19-dan öldüb.**



Adalet.az xəbər verir ki, bu barədə Ümumdünya Səhiyyə Təşkilatının rəhbəri Tedros Adhanom Ghebreyesus bildirib.

Onun sözlərinə görə, rəsmi rəqəmlərə görə, 2020-ci ildən bəri təxminən 7 milyon insan koronavirusdan ölüb, lakin real rəqəmlər bundan qat-qat yüksəkdir. ”Biz ən azı 20 milyon ölüdən danışırıq” deyə Ghebreyesus qeyd edib.

Daha əvvəl ÜST aprelin 3-dən aprelin 30-dək dünyada təxminən 2,8 milyon insanın koronavirusa yoluxduğunu, 17 mindən çox insanın dünyasını dəyişdiyini bildirmişdi. Ölənlərin sayı əvvəlki dörd həftə ilə müqayisədə 30% azalıb.

Mayın 3-nə olan məlumata görə, ÜST pandemiyanın başlanğıcından bəri 765,2 milyon insanın koronavirusa yoluxması və 6,9 milyon insanın ölümü barədə məlumat alıb.

Eminquey

# Sözümü Qər"i"bçiliyə salmayın



*Xalq nəyə önəm verir?*
*Geyimə, şouya, pul-paraya*

*Əşşi, indi deyəcəksiniz, ağızdan çıxan sözə, mən də deyəcəyəm ki, kimlər bu xalqın üzünə nələr deməyib, xalq da unudub güzəranına davam edib, bu məqam bir kərəm də burda yabalaşacağıq. Bu səbəb, demirəm.*

*Onu deyirəm ki, Tural və Turan cütlüyünün sadəcə olaraq bir fiqur olduğunu ağlınıza birdəfəlik həkk etsəniz şad-xürrəm ömür sürərsiniz. Bu uşaqların arxasında böyük bir komanda işləyir. O komanda yaxşı bilir ki, Avropa nə istəyir, siz nə istəyirsiniz. Baş sındırmağa da gərək yoxdur ha. Xalqın gündəminə düşmək istəyirsənsə oranı-buranı aç, əndrəbadi geyin, əcaib tərzin olsun, hazırsan. Çək-çevir edib uzağı iki-üç günə unudacaqlar.*

*Mən o uşaqları görən kimi dedim, bıy, Hacı Nuranı ikiyə bölüb yarışmaya göndəriblər ki?! Bu sözümü də qər(i)bçiliyə saldınız. Gah Hacı Nuranın xeyriyyəçiliyindən dəm vurdunuz, gah da bu uşaqların ana-ata itkisindəm qəm vurdunuz. Yenə də bir nəticəyə varmadınız.*

*İndi geyib gül tumanı, anam vay, nənəm vay, Səkinə dayıqızı nay nay. Nay-nay demişkən, çox qəribə xalqsınız.*

*Qadın paltarı geyinən Rəfaellə Coşquna bir ayrı qəzəb püskürürsünüz, güllü paltar geyinən bu iki gəncə bir ayrı qaxmar durursunuz. Sizdən nə qavrayaq?*

*Dərdiniz mənə gəlsin, nə istəyirsiniz? Niyə özünüzü Azərbaycan bayrağı kimi yox, ingilis bayrağı kimi aparırsınız? Barmağınızı qatlayın, uzağı bir-iki barmaq qatlayarsınız ki, Eurovisiondakı çıxışlarımız milliliklə iç-içə olub. Əksərən avropoid kimi çıxmışıq o səhnəyə. Niyə? Onu əmr verənlər bilər. Amma bir şeyi yaxşı bilirik, saqqallı qızdan tutmuş ukraynalıya qədər, bu yarışma artıq öz sənət tərəfini başqa şeylərə təhvil verib. Arenadı, hansı mesajı vermək istəyirsən, çıx, ver. Öz seçimindi.*

*Bu iki gəncin musiqi nömrəsinin, tərzinin isə Azərbaycan mədəniyyətinə, musiqisinə heç bir dəxli yoxdur. Görünür daha bir dəxlisizliklə yenə qər(i)bçiliyə meyillənmişik. Olsun. Bizim get-gəllərimiz çox olur, axırda bir yerdə qərar tutacağıq da.*

*Dodaq dərbətmək üçün*
*Qəzet satıcısı qışqırırdı:*
*- "İkinci nəşr... 100 min lirə... ikinci nəşr... 100 min lirə..."*
*Biri pulu verib qəzeti götürüb gedir. Bir azdan geri qayıdıb satıcıya deyir:*
*- Niyə yalan danışırsan? 100 min lirəyə satdığın qəzetin üzərində "qiyməti 50 min lirədir" yazılıb.*
*Qəzet satıcısı cavab verir:*
*- "Ay dayı! Qəzetin hər yazdığına inanacaq qədər sadəlövhsən?"*

***P. S** Qəzetə inanın, amma şoumenlərin fəndlərinə qəti düşməyin. Sadəlövh olmayın.*

## 6-cı sinif dərsliyində "xiyar" söhbəti



Rövşənin bu hərəkəti məktəbdə müxtəlif danışıqlara səbəb olmuşdu. Hətta bunu pis yerə yozanlar da vardı. "Yəqin, təzə-tər xiyarlara gözü düşüb". "Yox, alçaya meyil salıb", — deyərək bəzi yoldaşları onu ələ salırdılar. Müəllimlər və başqa şagirdlər Rövşən barədə bu cür danışıqları eşidəndə rədd edirdilər, çünki onun təmiz və tərbiyəli uşaq olduğuna şübhələri yox idi.
Yalnız riyaziyyat müəllimi Rövşəndən nigaran idi, onun hərəkətlərinə şübhə ilə baxırdı. Buna da səbəb lap birinci görüşdə, birinci riyaziyyat dərsində Rövşənin şuluq salması olmuşdu: bir cərgə dalda oturan Xanış kağızı yumurlayaraq çırtmak-

**Bu foto 6-cı sinif ədəbiyyat dərsliyindən çəkilib. Görəsən bu kitabın müəllifi özü hansı düşüncənin sahibidir? Bu cür cümlələr 6-cı sinifdə oxuyan uşaqlara hansı mesajı ötürmək üçündür?**

Hətta mətndə deyilir ki, müəllimi də ondan şübhələnirdi. Nə var ki, yazıq uşaq şuluqluq edibmiş.

Dərsliklərdə bir xeyli belə mətnlərə, şeirlərə rast gəlmək mümkündür. Bu kimi şeylər ya gözdən qaçıb, ya da belə lazımdır deyə düşünülür təhsilə baxan səlahiyyətlilər tərəfindən.

Hər halda bu mövzuda təhsil işçiləri ilə sorğu keçirib oxuculara təqdim edəcəyik.

**Emin**

## Ermənistanda əsir saxlanılan azərbaycanlı əsgərə 11 ildən artıq cəza verildi



**Ermənistan məhkəməsi əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən yolu azaraq Ermənistan tərəfə keçən və orada əsir saxlanılan Azərbaycan hərbçisi Aqşin Bəbirovu 11,5 il müddətinə azadlıqdan məhrum edib.**

Adalet.az xəbər verir ki, məlumatı "Sputnik Armeniya" yayıb.

A.Bəbirov "sərhədi qanunsuz keçmək, silah və sursat daşımaqda" ittiham olunub. Məlumata görə, Ermənistanda əsir saxlanılan digər azərbaycanlı əsgər Hüseyn Axundovun "cinayət işi üzrə istintaq" davam edir.

## Jurnalist Aytac Aslan: "Adam nə qədər əxlaqsızlığın təbliğini eşidər axı?!"




**"Lap göz zövqümü, qulaq zövqümü qoydum kənara, adam nə qədər əxlaqsızlığın təbliğini eşidər axı?!"**

Bu fikirləri Adalet.az-a danışan jurnalist, Bakıvaxtı.az saytının əməkdaşı Aytac Aslan söyləyib.

O efirdən, TV-lərdən şikayətlənib.

"Adam arada istəyir ki, televizoru açıb əyləncəli nəsə izləsin. Nə vaxt kanalları çevirsəm 3-5 səsi olmayan eyni toy müğənniləri yığılıb evli kişiləri sevməklərindən, ərlərini "sənət" üçün atmaqlarından, "həci"lərindən danəşırlar. Maksimum fərqli söhbət Tik-Tokdan onlara atılan hədiyyələr olur. Vallah türklərin pavyon müğənniləri daha səviyyəli söhbət edərlər.

Bu gün bir çox insan niyə gözəl səsləri, əsl sənət adamlarını ancaq Türkiyədə hansısa verilişə çıxanda, sosial şəbəkədə paylaşanda tanıyırlar? Bu adamlara görə. Adam nə qədər efirdə bu uğursuz estetik əməliyyat nümunələrini görər axı?! Lap göz zövqümü, qulaq zövqümü qoydum kənara, adam nə qədər əxlaqsızlığın təbliğini eşidər axı?! Az qala boyunlarına medal asıb çıxalar ki, mənim də "həci"m var, mən də evli kişi sevib ev yıxmışam. Bu dəqiqə Azərbaycanda kiminsə qızı desə ki, müğənni olmaq istəyirəm qoymazlar. Verilişlərin apardığı təbliğata görə müğənni deyəndə ağıla əxlaqsızlıq gəlir, istedad, səs, sənət yox. Nə olardı ki, televiziyalarda müəyyən limit olardı. Məsələn, 3 ay ərzində bir adamı yalnız bir dəfə çağıra bilərsən".

**Eminquey**

# Günün qaranlıq saatlarında...

**Bütün hərəkət iştirakçıları, o cümlədən sürücülər və piyadalar həmişə günün qaranlıq saatlarında daha çox ehtiyatlı olmalıdırlar. Ən azından ondan ötəri ki, bu saatlarda sürücülər qaranlıq olduğu üçün yol işıqlandırılsa belə, yaxşı görmür və eyni zamanda piyadalar da bu anlarda diqqətsizlik edirlər. Başqa sözlə demiş olsaq, sürücülərin və piyadaların səhlənkarlığı üzündən günün qaranlıq saatlarında ölümlə nəticələnən hadisələr daha çox olur. Yəni, piyadavurma halları artır.**

İstər respublikanın avtomobil yollarında, istərsə də şəhər daxili yollarda günün qaranlıq saatlarında piyadaların vurulması halları daha çox qeydə alınır. Bu isə birmanəlı olaraq, həm yol polisini, elə həm də hərəkət iştirakçılarını çox narahat eləyir. Ona görə də bu cür hadisələrin qarşısını almaq üçün Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayı qabaqlayıcı və maarifləndirici tədbirlər gerçəkləşdirir. Təbii ki, bu cür addımların atılması və eyni zamanda profilaktik tədbirlərin görülməsi bütün qəzaların, hadisələrin və o cümlədən piyadavurma hallarının qarşısının alınmasında önəmli əhəmiyyət kəsb edir.



Yol Patrul Xidməti Alayının birinci tağımının əməkdaşları da xidmət apardıqları Bakı-Quba avtomobil yolunun bütün istiqamətlərində demək olar ki, mütəmadi olaraq, yol hərəkətinin təhlükəsizliyi ilə bağlı reydlər keçirir, yoxlamalar aparır və profilaktik işlər görürlər. Tağımın hər iki stasionar postunda bir qayda olaraq yol polisi əməkdaşları 24 saat fasiləsiz xidmət aparırlar. Bu cür xidmətin gersəkləşdirilməsi birmənalı olaraq, ağır qəzaların qarşısının alınmasında çox böyük rol oynayır. Xüsusən də günün qaranlıq saatında piyadalarla bağlı təhlükəsizlik tədbirləri daha geniş vüsət alır. Hansı yerdəki piyadalar yolu keçməlidir, o istiqamətdə hərəkətin təhlükəsizliyini təmin etmək üçün əlavə naryadlar göndərilir.

Bakı-Quba avtomobil yolunun Abşeron, Ceyranbatan istiqamətində 3-4 yerdə yolüstü keçidlər inşa edilib. O da ona görə edilib ki, piyadalar yolu təyin olunmamış yerdən keçməsinlər, həmin keçidlərdən istifadə eləsinlər. Amma buna baxmaayraq, yenə bəzi piyadalar təyin olunmuş yerdən yox, qeyri-qanuni yerlərdən keçməyə çalışırlar. Bu məqsədlə yol polisi əməkdaşları piyadalarla maarifləndirici söhbətlər aparır, onlara yolüstü keçidlərdən istifadə etməyi tövsiyyə edirlər. Hansı piyadakı dəfələrlə qanunu pozur və yol polisi məcbur olur, onlar barəsində inzibati protokol tərtib edir. Yol hərəkəti




qaydasını pozduğuna görə piyadalar 20 (iyirmi) manat məbləğində cərimə olunurlar.

Bir faktı da qeyd edək ki, 1-ci tağımın əməkdaşları normadan artıq yük daşıyanlara, sükan arxasında sərxoş vəziyyətdə əyələşənlərə, manevr qaydasını pozanlara, avtomobilləri texniki baxışdan keçirməyənlərə, ara məsafəsi saxlaymanalara, təhlükəsizlik kəmərindən istifadə etməyənlərə qarşı qanunamüvafiq tədbirlər görürlər. Eyni zamanda, sükan arxasında yuxulayan sürücülər də diqqətdənkənar qalmırlar. Belə ki, bəzi sürücülər sütkanın 16 saatını sükan arxasında əyləşir, sərnişin daşıyır və bəzən yuxulayaraq, ağır qəzalar törədirlər. Bütün bu qayda pozuntularının qarşısını almaq üçün tağım əməkdaşları stasionar postda gündüz və gecə saatlarında yorğun vəziyyətdə sükan arxasında əyləşmiş sürücüləri aydınlaşdırır, onları saxlayır və səmimi söhbətlər edirlər. Yaz və yay mövsümündə sərnişin daşıyan sürücülər 16 saat sükan arxasında əyləşərkən daha tez yuxulayır və ağır qəzalar törədirlər. Bütün bunların qarşısını almaq üçünsə indidən profilaktik tədbirlər həyata keçirilir.

Görünən odur ki, birinci tağımın əməkdaşları sütkanın 24 saatını gərgin iş rejimnidə keçirirlər, yəni onlar ilk növbədə ona çalışırlar ki, xidmət aparlarkən ağır qəzalar baş verməsin. Yol Patrul Xidməti Alayının birinci tağımının komandiri, polis mayoru Vüqar Əsgərov hər gün səhər saatlarında növbə başlamamışdan öncə əməkdaşlara rəhbərliyin tapşırıqlarını çatdırır və xidmət apararkən daha diqqətli olmalarını tövsiyə edir. Tağımda əməkdaşların intizam məsuliyyəti diqqət mərkəzində saxlanılır və onların hərəkət iştirakçıları ilə mədəni, nəzakətlə rəftar olunması bildirilir.

Heç şübhəsiz ki, hər hansı qəza baş verərkən ondan ziyan çəkən hərəkət iqştirakçıları olur. Amma həm də məsuliyyət avtomobil yolunda xidmət aparan yol polisinin üzərinə düşür. Ona görə də yol polisi öz üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirir və eyni zamanda hərəkət iştirakçılarını da maarifləndirir ki, yol hərəkəti qaydalarına onlar əməl etsinlər, xüsusən də, sutkanın qaranlıq saatlarında daha diqqətli olsunlar.

**Heç kimə sirr deyil ki, bəzi piyadalar nəqliyyat vasitələrinin yüksək sürətlə hərəkət etdiyi avtomobil yolundan belə gecə saatlarında təyin olunmamış yerdən keçməyə cəhd edirlər. Bu isə birmənalı olaraq, həmin piydaların həyatını təhlükəyə qoyur və bəzən ölümlə nəticələnir. Ona görə də gecə saatlarında həm sürücülər, həm də piyadalar çox diqqətli olmalıdırlar ki, bu cür piyadavurma halları olmasın.**

**Faiq QİSMƏTOĞLU**

# MEDİA Heydər Əliyevin 100 illiyi ilə bağlı konfrans keçirdi

**Mayın 8-də Medianın İnkişafı Agentliyinin və Audiovizual Şuranın birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Ümummilli Lider Heydər Əliyevin media siyasəti və müasir Azərbaycan mediası" mövzusunda konfrans keçirilib.**

Adalet.az xəbər verir ki, tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Sonra Ümummilli Lider Heydər Əliyevin, Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Ümummilli Lider Heydər Əliyevin medianın işini, jurnalist əməyini daim yüksək qiymətləndirdiyini, jurnalist peşəsinə hər zaman dərin hörmət bəslədiyini, mətbuat işçiləri ilə yaxın təmasda olduğunu bildirib, onun jurnalistlərin problemləri ilə maraqlandığını və köməyini heç zaman əsirgəmədiyini vurğulayıb.

Ə.İsmayılov deyib ki, Ümummilli Liderin siyasətini və ənənələrini müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyev medianın inkişafına əlverişli şərait yaradılmasını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib. Bu böyük etimad media nümayəndələrinin də öz peşəkar missiyalarını həyata keçirməkdə məsuliyyətini artırıb.

Ümummilli Lider Heydər Əliyevin demokratiyanın mühüm prinsiplərindən olan söz və məlumat azadlığına, eləcə də medianın inkişafına diqqət və qayğısından bəhs edən Audiovizual Şuranın sədri İsmət Səttarov bildirib ki, məhz Ulu Öndərin 1998-ci ildə imzaladığı senzuranın ləğv edilməsi haqqında məlum Fərmanından sonra bir sıra qanunvericilik aktları qəbul olunub, Avropa standartlarına uyğun müstəqil tənzimləyici qurum olan Şura yaradılıb, televiziya və radio yayımının tənzimlənməsi sferası tam yeni mərhələyə qədəm qoyub. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və audiovizual media bazarında münbit şəraitin yaranması yeni televiziya və radio yayımçılarının yaranmasına, bu sahənin yeni forma almasına imkan yaradıb.




Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə milli etimad əsasında - xalqın iradəsi ilə hakimiyyətə gəlməsindən sonra bütün istiqamətlərdə olduğu kimi, media sahəsində də islahat xarakterli məqsədyönlü tədbirlər həyata keçirilib, bu istiqamətdə əsaslı, müsbət dəyişikliklər baş verib. Xüsusilə vurğulanıb ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Zəfər yürüşünə çıxan igid əsgər və zabitlərimizin unudulmaz qəhrəmanlıqları ilə yanaşı, arxa cəbhədə ideoloji və təbliğat müstəvisində mübarizə aparan dəyərli qələm sahibləri - vətənpərvər və peşəkar jurnalistlərimiz Azərbaycanın mənafelərini qətiyyətlə qoruyub, həqiqi reallıqları beynəlxalq ictimaiyyətə çatdırmaqla erməni yalanlarını ifşa ediblər.

Sonra "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan mediası" adlı videoçarx nümayiş olunub.

"Ümummilli Lider Heydər Əliyevin media siyasəti və müasir Azərbaycan mediası" mövzusunda keçirilən panel sessiyaya moderatorluq edən Azərbaycan Televiziyası sədrinin müavini Rafiq Həşimov Ulu Öndərin siyasi iradəsi və böyük səyləri nəticəsində Azərbaycanda plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələrin aradan qaldırıldığını deyib.

Milli Məclisin deputatı Hikmət Babaoğlu çıxışında Ulu Öndər Heydər Əliyev siyasətində media azadlığı və kütləvi siyasi şüur məsələsinə toxunub, Azərbaycanda media azadlığının konstitusion əsaslarından bəhs edərək medianı ictimai rəyi formalaşdıran universal vasitə kimi qiymətləndirib.

Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, Ulu Öndər Heydər Əliyevin milli jurnalistikamızın inkişafı sahəsində ən böyük tarixi xidmətlərindən biri 1998-ci ildə KİV üzərində senzuranın tamamilə ləğv edilməsi olub. O əlavə edib ki, Ulu Öndər cəmiyyətdə jurnalistlərə münasibətin formalaşmasında mühüm rol oynayıb, bütün ölkə jurnalistləri Heydər Əliyevi təkcə ölkə başçısı kimi deyil, həm də bir dost, onların zəhmətinə qiymət verən yaxın sirdaş kimi qəbul edib.

Audiovizual Şuranın üzvü Telli Pənahqızı Ulu Öndər Heydər Əliyevin görkəmli lider və vətəndaş kimi atdığı addımların müstəqil Azərbaycanın güclənməsində, eləcə də savadlı, peşəkar və xalqını sevən gənclərin, o cümlədən peşəkar jurnalistlərin yetişməsində vacib rol oynadığını diqqətə çatdırıb.

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov vurğulayıb ki, Ümummilli Lider tərəfindən mətbuat orqanlarının azad fəaliyyətinə yaradılan şərait, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər ölkədə fikir plüralizminin genişləndirilməsinə, söz və fikir azadlığının qorunması sahəsində əsaslı irəliləyişlərə şərait yaradıb.

# Şəhid qardaşların anası: «Ad günümdə şəhid oğlumun məzar daşını qoydular...»

**"9 mayda dünyaya gəlməyim də, övladlarımın şəhid olması da alın yazımdır"**

Bunu Adalet.az-a açıqlamasında şəhid qardaşları İntiqam və Nurlan Əsgərlinin anası Ziba xanım deyib. Ziba xanım doğum günündə baş verən təsadüfi bir hadisədən də danışıb:




"Təsəvvür edin ki, 2016-cı ildə Nurlan aprel döyüşlərində şəhid oldu. 9 may günü, yəni ad günümdə təsadüfən onun məzar daşını qoydular. Onda dedim ki, Nurlan, həmişə sən mənə hədiyyə alırdın, bu dəfə mən səni təbrikə gəldim. (Ağlayır) Ona görə hər il 9 may günü həmin hadisə yadıma düşəndə çox kövrəlirəm".

Qeyd edək ki, şəhid Nurlan Əsgərli 2016-cı il Şanlı aprel döyüşlərindəki qəhrəmanlıqlarına görə ölkə başçısı tərəfindən "Hərbi xidmətdə fərqlənməyə görə" üçüncü dərəcəli medalı ilə təltif edilib. İntiqam Əsgərli isə Vətən müharibəsi zamanı Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub. O, ölkə başçısı tərəfindən "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Allah cəmi şəhidlərimizə rəhmət eləsin!**

**Vasif Əlihüseyn**

Əntiqə Rəşid

# Allah bəndəsinə cəza verəndə əvvəlcə ağlını alır, sonra...



*Erməni mediasını diqqətlə izləyirəm. Hər dəfə izlədikdən sonra qənaətim dəyişmir, əksinə çox möhkəmlənir. Allah bir toplumu lənətləyəndə məhz onları belə cəzalandırır. Ağlını alır!*

*Ağlı olmayan toplum isə ən səviyyəsiz hərəkətlərə getməsi labüddür. Məsələn, ən yaxın qonşusuna nifrət bəsləmək, fürsət düşəndə , insan qanı axıtmaq, evlər yıxmaq, kəndləri , şəhərləri xarabazara çevirmək kimi xüsusiyyətlər ancaq ermənilərdədi. Ancaq ermənilər başqa xalqın torpağını işğal edib, orda məskunlaşmağa başlayanda həmin əraziləri "qədim erməni torpağı "kimi dünyaya tanıdır. Oradakı mədəni, tarixi abidə və tikililəri, eyni zamanda, o ərazilərdə yaşayan xalqlara məxsus musiqini, rəqsləri folkloru, kulinariyanı özünün uzaq keçmişindən gəldiyini bağırır.*

*Təsəvvür edin ki, 1828-ci ildə Qarabağa gəldiklərini qeyd etmək üçün 1978-ci ildə Tərtər rayonunun Marağa kəndində abidə ucaldan bu qaçqın taboru 1988-ci ildə həmin abidəni uçuraraq, həmin torpaqların sahibi olduqlarını "Azərbaycanın haqqı görməzdən gələn" dünyaya tirajlamağa başladılar. Hələ 1992-ci il 8 mayda Azərbaycanın əzəli və əbədi yurdu olan Şuşanı işğal edən ermənilər düz 2020 -ci ilə qədər hər il 8 mayı qələbə günü kimi qeyd etdilər. Guya qədim erməni torpağını azərbaycanlılardan geri qaytarıb və bu Azərbaycan üzərində böyük bir qələbə kimiqeyd edildi.*

*Nəhayət , 2020-ci il 27 sentyabrda Azərbaycan ordusu öz hüququ, haqqı olan doğma torpaqlarımızın işğaldan azad edilməsi uğrunda savaşa girdilər. Bütün dünyanın 80 faizi Ermənistanı və erməniləri müdafiəyə qalxsa da , haqq yerini tutdu, Azərbaycan qələbə çaldı. Bayaq yenə erməni mediasını izləyirəm. "Artsaxın informasiya qərargahı bildirir ki, bu il mayın 8-i (bazar ertəsi) iş günüdür, çünki Ermənistan hökuməti tərəfindən həmin iş gününün keçirilməsi ilə bağlı heç bir qərar qəbul edilməyib. Halbuki, hər il 8 may Artsax Respublikasının Müdafiə Ordusu və Şuşinin ( Şuşa) Qurtuluş Günü qeyd olunur və qeyri-iş günü hesab edilirdi.*

*Mayın 9-na (çərşənbə axşamı) gəlincə, "Artsax Respublikasının bayram və anım günləri haqqında" qanuna əsasən, həmin gün (Böyük Vətən müharibəsi- 1941-1945)Qələbə Günü kimi qeyd olunacaq".*

*Yadıma düşür, 2020-ci il, Şuşada ermənilər Şuşanın "azad olunması" ilə bağlı bayram tədbiri keçirdirdilər. Yeyirlər, içirlər, qol-boyun olub bir-birini təbrik edib bizə yara üstündən, yara vururdular. O kadrlara baxıb hönkür-hönkür ağladığım günlər olub.*

*İndi isə ... İndi isə ... Azərbaycan ordusuna, bizi dəstəkləyən, arxa kömək olan dövlətlərə, Ali Baş Komandana minnətdarlıq hissim içimi doldurub. Xəstə , bədbəxt, lənətlənmiş o murdar sürünü o cənnət məkandan uzaqlaşdırıblar. Başa sala- sala, ağıl verə- verə, səhv edəndə qulağını çəkə-çəkə... Uzun sözün qısası, Allah bəndəsinə cəza verəndə əvvəlcə ağlını alır, sonra qazandıqlarını...*

*Allah tərəfindən lənətlənmiş ermənilərə bir sualım var, nə qazandınız? Nəyin uğrunda özünüzü diri zarıncı kökünə saldınız?*

*Ağlınız olsaydı anlayardınız, yoxdu deyə anlamırsınız, heç vaxt anlamayacaqsınız!*

*Son olaraq: Mayın 9-11-də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçiriləcək.*

## 50 nömrəli marşrut da kart sisteminə keçdi



**Axır ki, metronun "Neftçilər" stansiyasının yaxınlığından Yeni Günəşliyə hərəkət edən 50 nömrəli marşrut mayın 8-dən kart sisteminə keçdi. Amma görünür ki, bu marşrut birdən-birə yeni sistemə keçməkdə müəyyən çətinliklər yaşayır. Belə ki, əvvəlki vaxtlara nisbətən kart sisteminə keçən gün avtobuslar dayanacağa bir qədər gec çatırdılar. Yəni, onların arasında qabaqlar interval 3-4 dəqiqə olardı. İndi isə bu məsafə daha çoxdur. Belə də olanda avtobusda sıxlıq yaşanır və sərnişinlər çox narahat olurlar.**

Hər halda, bu marşrutun kart sisteminə keçməsi müsbət haldır. Amma sadəcə olaraq, kart sisteminə keçməklə heç də hər şey yüksək səviyyədə həll olunmur. Yəni, ilk növbədə marşrutlar arasında interval çox olmamalı, xidmət mədəniyyəti yüksəlməli və sərnişinlər mənzil başına təhlükəsiz çatmalıdır. İnşallah, yaşayarıq, görərik.

## May ayında da toy eləmək olarmış



**Qəribə də olsa, bizim millət nədənsə may ayında toy eləmir. Hansı ki, may ayında təbiət daha gözəl və daha yaraşıqlı olur. Gül gül çağırır, bülbül bülbülü. Təbiətin bu gözəl çağında toy eləməmək vallah çox böyük günahdır. Amma əksər insanlar isti olmadığı üçün may ayında rayonlara gəzməyə çıxır.**

Bizimkilər də may ayında şeytanın qılçını sındırdılar. Əmim nəvəsinə kiçik toy elədilər. Toyda iştirak eləyənlər dedilər ki, indiyə qədər biz belə gözəl toy görməmişdik. Hamımıza ləzzət elədi. Kənddə güllərə, çiçəklərə, yaşıllıqlara baxıb, ovqatımız daha da gözlləşdi. İsti havada adamın yeyib-içdiyi canına yatmır. Ancaq bu toyda bütün qohum-əqrəba şənləndi, yedi-içdi və özlərini çox rahat hiss elədilər. May yaz fəslinin şahıdır və nə yaxşı ki, artıq biz bu yaz günlərində toy eləyirik. Kim toy eləyirsə, Allah mübarək eləsin!

**EMİL FAİQOĞLU**

## Azərbaycan Kahramanmaraşda konteynerlərdən ibarət məhəllə salıb

**Heydər Əliyev Fondunun və xeyriyyəçi azərbaycanlı iş adamlarının dəstəyi ilə Azərbaycan Türkiyədə zəlzələdən zərərçəkmişlər üçüb məhəllə salıb.**




Adalet.az xəbər verir ki, bunu Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı tviterdə yazıb.

O bildirib ki, konteynerlərdən ibarət məhəllə Kahranmaraş şəhərinin Türkoğlu rayonunda salınıb: "Zəhməti olan hər kəsə təşəkkür edir, millətimizə növbəti dəfə "keçmiş olsun" deyirəm".

# Tələbəlik illərimin Heydər Əliyev xatirəsi...

**1994-cü ilin soyuq fevral ayı idi. Qardaş Türkiyə Respublikasında təhsil alırdıq. Ulu Öndər Heydər Əliyev Türkiyənin ozamankı prezidenti Süleyman Dəmirəlin qonağı kimi böyük bir nümayəndə heyəti ilə Türkiyəyə gəlmişdi.**

Heyət əvvəlcə Ankaraya getdikdən sonra məlum oldu ki, İstanbul Swiss Oteldə Türkiyədə yaşayan azərbaycanlı iş adamları və tələbələrlə görüş olacaq. Bu səbəblə görüşdə iştirak üçün konsulluq tərəfindən mindən çox tələbələr arasından nümayəndə kimi 5 nəfər seçilmişdi. O siyahıda mənim də adım var idi.

Biz tələbə yoldaşlarımızla oteldəydik və mən çox həyəcanlıydım. Bir az sonra xarizmatik bir lider və dövlət xadimi, natiq bir siyasətçi, cəsur bir Azərbaycan Türkü kimi Sovetlər Birliyinin ən yüksək vəzifələrindən birində millətimizi layiqincə təmsil etmiş bir insanı yaxından görəcəkdim. Görüş başladı. Kürsüdə böyük şairimiz Bəxtiyar Vahabzadə də oturmuşdu. Ulu Öndər çıxış etdikdən sonra suallara keçildi və toplantının rəsmi hissəsi sona çatdı.

Tələbə yoldaşlarim ilə otelin foyesindəydik. Onlardan birinin anası ağır xəstə idi. Tələbələrimizin əksəriyyəti kimi o da sadə və kasıb bir ailənin övladı idi. Maddi imkanı olmadığına görə anasına baş çəkmək üçün Azərbaycana getməyə çətinlik çəkirdi.

Ulu Öndər otelin foyesində gəzişir və ona yaxınlaşanlarla söhbətləşirdi. Mən yaxınlaşıb həm söhbət etmək, həm də dostumuzun problemini söyləmək istəyirdim. Amma çəkinirdim.




”Bəlkə mənə heç cavab verməz” deyə ürəyimdə düşünürdüm. Özümdə cəsarət toplayıb ona yaxınlaşdım. Bir az utancaq və ürkək şəkildə: ”Salam, Cənab Prezident!” dedim. Mavi və nurlu gözlərini mənə tuşlayaraq ”Buyur, oğlum” dedi. Sonra qaşlarını çataraq: ”Nə işlə məşğulsunuz?” deyə soruşdu. ”Tələbəyik, Cənab Prezident” deyə cavab verdim. Əlini kürəyimə vuraraq, ”Çox gözəl. Siz bizim gələcəyimizsiniz. Nə probleminiz var?” dedikdə onun səmimiliyi və qayğısı məni cəsarətləndirdi. Ürəklənib davam etdim: ”Cənab Prezident, tələbə yoldaşımızın anası ağır xəstədir və onu görmək istəyir. Olarmı, sizin təyyarədə biz də Bakıya gedək?”. ”Əlbəttə olar” dedi və çevrilərək Həsən Həsənovu səslədi. Həsən Həsənov yanımıza yaxınlaşıb, ”Buyurun Cənab Prezident”, dedi. Ulu Öndər: ”Bu tələbələri bizim nümayəndə heyətinin tərkibinə yazın və biz nə qədər buradayıqsa bizimlə bərabər tədbirlərdə iştirak etsinlər!” Həsən Həsənov da, ”Baş üstə” dedi və getdi.

Ulu Öndər daha sonra bizə dönərək: ”Sizlər burada Azərbaycanın elçilərisiniz. Çalışqan olun və öz sahənizdə fərqlənin. Azərbaycanda sizlərə böyük ehtiyac vardır” dedi. Biz:”Oldu, Cənab Prezident! Bizlərə göstərdiyiniz qayğıya görə Sizə təşəkkürümüzü bildiririk!” deyərək sağollaşıb ayrıldıq.

Adımızı protokola daxil etdilər. Ertəsi gün İstanbuldakı bütün tədbirlərdə biz də iştirak etdik və gecə Prezidentin təyyarəsi ilə Bakıya gəldik. Həmin təyyarədə Xalq Şairi, həmyerlimiz İlyas Tapdıqla da tanış olub söhbətləşdim.Tələbə yoldaşımızla bərabər biz də Ulu Öndərin humanistliyi və gənclərə olan qayğısı sayəsində ailələrimizi ziyarət edə bildik.

Həmin ildən etibarən Azərbaycan Respublikasının Təhsil Nazirliyinin xətti ilə Türkiyə Respublikasında təhsil alan bütün tələbələrə Ulu Öndərin tapşırığı əsasında ildə bir dəfə yay tətilində təyyarə ilə gediş-dönüş biletləri pulsuz edildi.

**Bəli, 100 illiyini qeyd etdiyimiz bu günlərdə Ulu Öndər Heydər Əliyevi dərin hörmət və ehtiramla anaraq bildirmək istəyirəm ki, o cismən aramızda olmasa da miras qoyduğu dövlətçilik məktəbi uzun illər gənclərimizə və idarəçilərimizə işıq tutacaqdır. Onun əziz xatirəsi Türk milləti yaşadıqca daim yaşayacaqdır. O, sadəcə Azərbaycanın deyil, bütövlükdə Türk dövlətçilik tarixinin ən böyük şəxsiyyətlərindən biridir.**

**Habil Alıyev**
**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tabeliyində Dövlət Məşğulluq Agentliyinin Şirvan-Salyan Regional Məşğulluq Filialının Müdiri**

# Azərbaycanda elmi inkişafın Heydər Əliyev doktrinası



*Nizami Məmmədov Tağısoy*
*professor,*
*ədəbiyyatşünas-tənqidçi*

**Elmin ictimai tərəqqinin mühüm hərəkətverici qüvvəsi olduğunu müxtəlif dövrlərdə yaşamış müdriklər çoxdan sübut etmişlər. Bununla yanaşı elmin cəmiyyətə gündəlik həyatda ola biləcək problemlərin həllində kömək etməklə, həm də Kainatda yer almış xeyli gizlinlərin aşkarlanmasına cavab tapmaq baxımından mühüm vasitə olduğunu da nəzərdən qaçırmaq olmaz.**

Elm mədəniyyətin mühüm təyinedici həlqəsi olmaqla, həm də onun başlıca dinamik komponentlərindən biri olmuşdur. Elmin inkişafına pozitiv təsir göstərən ən vacib dünyagörüşü maarifçiliyin yaranması və formalaşması ilə bağlıdır. Türk xalqlarının həyatında elmə maraq hələ Əbu Nəsr Əl-Fərabidən (870-950) başlayaraq prioritetli yanaşmaya çevrilmişdir. Bir qədər sonralar ümumtürk yazılı ədəbiyyatının nümayəndələri Yusuf Balasağunlunun (1017-1077) ”Kutadqu-bilik”, Şeyx Əhməd Yuğnəkinin (XII əsr) ”Hibətül-həqaiq” (”Həqiqət çantası”) poemalarında elmi biliklərə yiyələnmə ön plana çıxarılırdı.

Heydər Əliyev Azərbaycan ictimai-siyasi, mədəni-mənəvi həyatının elə bir sferası yox idi ki, onunla bağlı dəyərli fikirlər irəli sürməsin. Bu baxımdan o, elmin inkişafına daim prioritet veriləcək bir mövqedən yanaşırdı. Çünki Heydər Əliyev elmi mədəniyyətin dominantı və başlıca həlqəsi kimi nəzərdən keçirməklə onu da yaxşı bilirdi ki, mədəniyyət elmsiz özünün baza kimi sosial funksiyasını yerinə yetirməyə qabil deyildir. Eyni zamanda Ulu öndər onu da nəzərə alırdı ki, elm rasional fəaliyyətin başlıca vasitəsi olmaqla elmi təfəkkürün, gerçəkliyə münasibətdə qanunların təhlili, onların həyatla əlaqəsi kontekstində intişar tapıb, inkişaf edə bilərdi.

Heydər Əliyevin çoxsaylı çıxış, məruzə və kitablarında onun elmə, alimə daim yüksək dəyər verdiyinin şahidi oluruq. Çünki bu, Heydər Əliyevin özünün zəngin elmi-nəzəri biliklərə sahib olması, fəaliyyətini elmi prinsiplər üzərində qurması, öz fərdi intellektual potensialına arxalanması ilə bağlı idi.

Elmin mühüm ictimai fikir, o cümlədən ədəbiyyat və ədəbiyyatşünaslıq elminin ictimai fikir sahəsində keçdiyi yolun özünəməxsusluqlarını Heydər Əliyev yaxşı bildiyindən onu elmi obyektivliyə əsaslanan müasirlik duyğusu ilə təhlil edirdi.

Onu da qeyd edək ki, indiyə qədər hazırlanmış ”Heydər Əliyev və Azərbaycan ədəbiyyatı”, ”Heydər Əliyev və Azərbaycan incəsənəti”, ”Heydər Əliyev və ədəbiyyat məsələləri”, ”Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili”, ”Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir - onu qoruyub saxlamalıyıq”, ”Heydər Əliyev və Azərbaycan mədəniyyəti”, ”Heydər Əliyev və ədəbi-tarixi proses”, ”Heydər Əliyev əbədiyyəti və ədəbiyyat” və s. kimi digər çoxsaylı kitablarda ulu öndərin humanitar elmlərin inkişafına dəstəyi və onlarla bağlı söylədiyi dəyərli fikirlər bu gün də bu sahənin ən mühüm magistral xətlərini özündə əks etdirməkdədir.

Azərbaycan elminin inkişafını və onun dünya elminə inteqrasiyasını daim diqqət mərkəzində saxlayan Prezident alimlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına da qayğı ilə yanaşırdı... Ölkəmizdə elmin bütün sahələrinin inkişafını diqqət mərkəzində saxlayan Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyyasının nüfuzunun qaldırılmasına böyük diqqət yetirirdi.

Heydər Əliyev siyasətində Azərbaycanda elmi inkişafın doktrinasında ön plana çəkən müəlliflərin əksər hissəsi belə bir fikri daha çox vurğulayırlar ki, dünyanın böyük ulu və əzəmətli xalqları, yaranmış geosiyasi situasiyalarda müdriklik zirvəsi fəth etmiş öz liderlərinə, qalibsərkərdələrinə xalqı öz ardınca apara biləcək milli ideyalara sadiq olan ictimai-siyasi xadimlərə borcludur. Burada sübut üçün İradə Hüseynova fransız yazıçısı Emil Zolyadan iqtibas gətirib, Heydər Əliyevlə bağlı mülahizələrini aşağıdakı kimi əsaslandırmışdır: ”Bəşəriyyəti həqiqətə, ədalətə və xoşbəxtliyə yalnız elm gətirib çıxara bilər”. Heydər Əliyev bilirdi ki, elm bəşər övladının həyatının yüksəlməsinin ən mühüm aparıcı qüvvəsidir, daim qloballaşan dünyanın stabil inkşafında onun dərinləşməsini təmin edə bilər. Eyni zamanda o, bunu da yaxşı bilirdi ki, ictimai həyatın və xalq təsərrüfatının, texnologiyanın, bu texnoloji inkişafdan gələn törəmə yeniliklərin heç bir sahəsi elmi biliklərin, texnika və texnologiyanın minilliklər ərzində ortaya çıxması onlar olmadan mümkün deyildir.

Saysız-hesabsız şəhidlər verib Azərbaycan xalqının qan bahasına əldə etdiyi müstəqilliyi dövründə dövlətimizə yenidən rəhbərlik etmiş Heydər Əliyev təhsilə, ölkəmizin elmi inkişafına, onun elmi-texniki potensialının yüksəlməsinə səriştəli kadr hazırlığına, alimlərin cəmiyyətdə nüfuzunun yüksəldilməsinə, akademiyanın ayrı-ayrı elmi-tədqiqat institutlarında aparılan araşdırmaların keyfiyyətinin daha da artırılmasına və nəticə etibarı ilə bütün bunların Azərbaycan dövlətinin inkişafına xidməti Heydər Əliyevin elmi-siyasi doktrinasının ana xəttini təşkil edirdi.

Digər sahələrdə olduğu kimi, Heydər Əliyevin elmi inkişaf etdirməsinin nüvəsində onun Azərbaycan dövlətinə, dövlətçiliyinə, xalqın və millətin maraqlarına xidməti ön plana çıxarılırdı. O, zəngin, təcrübəli və müdrik, qlobal dünyagörüüşünə malik siyasi lider kimi fəaliyyətini Azərbaycanın inkişaf dinamikasına xidmətdə görürdü.

Çünki Heydər Əliyev əsrlərin sınağından keçmiş, dünya çaplı siyasətçi və filosoflardan əxz etdiyi fikirləri nəinki tarixdə olanlara quru baxış prizmasından nəzərdən keçirir, həm də gələcək üçün elmi ideyaların, innovativ baxışların, elmi-texniki tərəqqinin müasir və rəqabətədavamlı Azərbaycan dövlətinin və dövlətçiliyinin tağlarının və sütunlarının elmi inkişafa dayanaraq yüksələn xətlə gedə biləcəyini uzaqgörənliklə sübut edir və bu istiqamətdə nə qədər haqlı olduğunu bütün tezis və çıxışlarında ortaya qoyurdu.

**Qeyd etdiklərimiz göstərir ki, Heydər Əliyevin alimlər ordusuna və Azərbaycan elminə verdiyi dəyər onun birbaşa Azərbaycana olan qayğısından irəli gəlirdi. Bu, onun vətəndaşlıq yanğısı, xalq sevgisi ilə bağlı idi. Heydər Əliyevin yüksək siyasi dünyagörüşü, dövlət başçısı olaraq tədbirli olması, öz xalqına bağlılığı və ona arxalanması, uzaqgörənliyi, vətənpərvərliyi, məntiqi təfəkkürə malik olması, fəlsəfi düşüncəsindəki novatorluğu, fenomenal yaddaşı, elm sahələrindəki problemləri mahiyyəti üzrə diferensiasiya etməsi, yanaşmalarında induktiv və deduktiv təfəkkür müstəvisində müvafiq arqumentasiyalardan qidalanma aparıcı nəzəriyyələrə üz tutmaqla ölkəmizdə elmin inkişafını onun daha sınanılmış yeni konsepsiya üzərinə yönəltmə bacarığı öz münbit nəticələrini verə bildi. Bütün bunlara əsaslanaraq deyirik ki, Heydər Əliyevin Azərbaycan elminin inkişafına verdiyi impuls əhəmiyyətini itirməyəcəkdir.**



*Etibar Əliyev*

# Xarici ölkələrdə buraxılış və qəbul imtahanları necə keçirilir?

## *4 NÜMUNƏ*

***FİNLANDİYA:** Məzunlar Ali məktəblərə daxil olmaq üçün Ümummili imtahan verməlidir. Şagirdlərin fin dilindən, isveç dilindən, İngilis dilindən, riyaziyyatdan və təbiət elmlərindən bilikləri yoxlanılır. İmtahanlar ödənişlidir. Və ildə 2 dəfə yazda və payızda Rəqəmsal formatda keçirilir. Buna görə də ali məktəblər Ümummili imtahanların nəticələrini nəzərə alaraq qəbul imtahanlarını müstəqil şəkildə həyata keçirirlər.*

***ALMANİYA:** Ali məktəbə daxil olmaq üçün Abitur - kamal attestatı lazımdır. Gimnaziyanı bitirdikdən sonra qəbul imtahanlarının verilməsi tələb olunur. Bunların biri mütləq şifahi formada olmalıdır. Bu fənlərin qiymətləri ilə şagirdin gimnaziyada son iki ildə təhsil aldığı dövrdə keçdiyi fənlərin qiymətlərilə toplanır. Və Abitur -kamal Atessataında əksini tapır.*

***CƏNUBİ KOREYA:** Ali məktəbə daxil olmaq üçün abituriyent bütün fənləri özündə birləşdirən”Sunın” imtahanını verməlidir. Bura daxildir: koreya dili, riyaziyyat, ingilis dili və Ali məktəbdən tələb olinan seçmə vənlər. İmtahanlar ildə bir dəfə, bir gün ərzində (səhərdən axşama kimi) keçirilir. İmtahanlara 1 ay qalmış tapşırıqları hazırlayanlar bir məkana toplaşırlar. Həmin məkanda internet və digər əlaqə vasitələri söndürülür. İmtahana gecikmək qəti qadağandır və tıxac olmaması üçün iş yerləri imtahanın keçirildiyi vaxtdan 1 saat sonra açılır.*

***ÇİN:** Çin buraxılış imtahanı ”Qaokau” adlanır. Məktəbdə Şagirdlər axırıncı ildə yalnız imtahanlara hazırlaşırlar. Fənlər bunlardır: Çin ədəbiyyatı, riyaziyyat, xarici dillər. Şagird bilikləri 2-3 gün ərzində yoxlanılır. Məsələn, günortaya qədər çin dili, günortadan sonra isə riyaziyyat yoxlanılır. Ali məktəblərə yalnız ”Qaokau”nun nəticələri əsasında qəbul aparılır. Lakin Universitet seçimi kor-koranədir. Səbəb: məzun əvvəlcədən özünün topladığı balı bilmir.*

***ZƏRURİ QEYD:** Bizim Dövlət İmtahan mərkəzi 120.000-ə yaxın şagirdin nəticələrini 1 ay müddətində açıqlayır. Stress və gərginlik 2 milyona yaxın şagird məzunu olan Çində isə bu proses 2-3 günə başa çatır.*

## *Rəşad Məcid: “İndi dünyanın müxtəlif ölkələri bu seçkinin nəticələrini həyəcanla gözləyirlər”*



**Azərbaycan Mətbuat Surașının sədri Rəşad Məcid sosial şəbəkə hesabında may ayının 14-ü Türkiyədə keçiriləcək seçkilərlə bağlı status paylaşıb.**

Adalet.az xəbər verir ki, o, qeyd edib ki, Türkiyədəki seçkilər indi təkcə Türkiyənin daxili işi sayıla bilməz: ”Əgər bu seçkinin nəticələri bölgənin, böyük bir regionun gələcəyinə təsir etmək gücündədirsə, necə təkcə Türkiyənin daxili işi ola bilər? İndi dünyanın müxtəlif ölkələri , onların xalqları öz maraq və mənafelərini güdərək bu seçkinin nəticələrini həyəcanla gözləyirlər. İranın, Ermənistanın, Rusiyanın, Ukraynanın , Fransanın və diğərlərinin öz marağı, öz arzuları var. Azərbaycanın da birinci növbədə. Bu seçki həm də Türkiyə xalqının Azərbaycana münasibətinin barometri olacaq. İnanırıq ki, Türkiyə seçiciləri mayın 14-də seçki eyforiyasının yaratdığı emosionallığı kənara qoyub soyuqqanlı qərar verməyi bacaracaqlar”!

**Əntiqə**

## "ABŞ prezidentləri Haaqa məhkəməsində cavab verməlidirlər"



**Ura.ru saytı yazır ki, Avropa parlamentinin deputatı Mik Uolles bəyan edib ki, ABŞ prezidenti Co Bayden və eks prezidentləri Barak Obama və Donald Tramp Haaqa beynəlxalq cinayət məhkəməsi qarşısına çıxarılmalıdır.**

Avrodeputatın fikirincə, eyni zamanda Corc Buş və Böyük Britaniyanın eks baş naziri Toni Bleyer də Haaqa tribunalı qarşısında cavab verməlidirlər. ”Əgər bu baş verməsə Beynəlxalq Cinayət Məhkəməsinin fəaliyyəti nüfuzunu tamamilə itirəcək”- deyə Uolles qeyd edib. Hüquq elmləri namizədi Aleksandr Mezyayev, Haaqa BCM-nin rolunu XXI əsrin neokolonializm inistitutları sisteminin yaradılmasında əsas element kimi dəyərləndirib. BCM-nin məqsədi beynəlxalq cinayətlərə qarşı mübarizə və cinayətkarların cəzalandırılması olmalıdır.

**Rüstəm Hacıyev**

## *Psixoloq: “Bu ölkədə heç bir psixoloq mənim etdiyim istirahəti etmir”*

**Sosial şəbəkələrdə bir çox videoları ilə məşhur olan psixoloq Nizami Orucovun son paylaşımı izləyicilər tərəfindən aqressiya ilə qarşılanıb.**

Psixoloq videoda bu fikirləri ifadə edib:

”Çox adam başa düşmür ki, mənim qəbulum niyə 300 manatdır?! Mənim öz inkişafım üçün xərclədiyim pullarla, yəni təhsil, biliklərimi artırmaq, mərkəzimi açmaq kimi bir çox şeylər, Bakıda ən azı 4 mənzil almaq olardı. Təkcə kitab almaq üçün son 1 ildə 1800 manatdan çox pul xərləmişəm. Gecə-gündüz mütaliə edirəm. Gözlərimin nuru gedib. Təbii ki bütün bunlar və işləməyim məndən olduqca böyük güc alır. İstirahətim, qidalanmağım üçün xərclədiyim pulların sayı-hesabı yoxdur. Mən ancaq İsveçrə şokoladı yeyirəm. Ondan aşağısını yeyə bilmirəm, orqanizmim götürmür. Çox zaman xalqıma marriflәndirivi videolarla dəstək olmağa çalışıram və zəngin düşüncə, zəngin həyat tərzi deyəndə təkcə bahalı otelləri-filan nəzərdə tutmuram. Hər gün səhər saat 10-da cəmi bir nəfəri qəbul edib 300 manatımı alıram. Mən buna layiqəm, bu mənim haqqımdır.



Bu ölkədə heç bir psixoloq mənim etdiyim istirahəti etmir, oxuduğum kitabları oxumur. Dünya görüşü məsələsini ortaya atanda özümdən zövq alıram. İnsanlar paxıllıq çəkir, buna görə nifrət edir, fərqli sözlər deyir, videolarıma meymun reaksiyası verir, 700 video var, oturub özünə nəsə götürmək əvəzinə ağzına gələni yazır”.

**Emin**

*Vasif Əlihüseyn*

# Babamın qara kağızı



*Anamın ata babası əslən Salyan rayonundandı. Adı Arastun Allahverdiyevdi. Kişi nə az, nə çox düz altmış il ibtidai sinif müəllimi işlədi. Ona görə hamı onu Arastun müəllim kimi tanıyırdı. Bununla işim yox. Nəyi deyirəm, adam 1941-ci ildə Salyandan Cəlilabada təyinatla müəllim göndərilib. Bir müddət kənddə müəllim işlədikdən sonra onu müharibəyə çağırıblar. Onda anamın atası Ağapaşa qucaqda çağa olub. Arastun müəllimin həyat yoldaşı Xanım isə öz əmisi qızı idi, uşaqlıqdan onları göbəkkəsdi ediblər.*

*Kişi Cəlilabaddan Salyana qayıdıb, ailə uşağı evdə qoyandan sonra cəbhəyə yollanıb. Hər ay ailəsi ondan xəbər gözləyib, amma ara-sıra məktub alırlarmış. Onu da deyim ki, Arastun müəllim İkinci Dünya Müharibəsinə üç qardaşıyla yollanıb. Dörd qardaşın ikisi döyüşdən qayıtsa da, digər iki qardaş itkin düşüb.*

*Günlərin bir günü Arastun müəllimin evə qara kağızı göndərilir. Valideynləri məktubu həyat yoldaşı Xanımdan gizlədirlər. Aradan bir müddət keçəndən sonra Xanım nənəm həyətdə paltar yuyanda görür ki, həyətə əlində əsa olan arıq bir kişi daxil oldu.*

*Kişi yavaş-yavaş ona tərəf gəlir və yaxınlaşanda görür ki, gələn həyat yoldaşı Arastundu, arıqlayıb tanınmaz hala düşüb.*

*Babam ağır yaralandığını və xəstəxanaya yerləşdirildiyini bildirir. Valideynləri isə onun qara kağızını gətirib arvadı Xanıma göstərəndə o, məəttəl qalır. Ondan sonra babam yenidən ailəsi ilə Cəlilabada qayıdır və torpaq alıb ev tikir. Burda müəllim kimi fəaliyyətini davam etdirir. Daha iki oğlu və bir qızı dünyaya gəlir.*

*Arastun müəllim 2003-cü ilin aprel ayında dünyasını dəyişdi. Onda mən orta məktəbin 11-ci sinifində oxuyurdum. Ona görə də həmişə onunla söhbət edib məlumatlar alırdım və sanki onları bir gün yazacaqdım. Babam altmış il müəllim işlədi, güclü mütaliəsi var idi, nə məktəb, nə kənd kitabxanasında bir kitab tapmazdın ki, oxumamış olsun. Həm də tarzən kimi toylara gedirdi. Tarı da özü öyrənmişdi. Hələ gəncliyində göz həkimi kimi teznikum da bitirmişdi.*

*Babam öləndən sonra xanım nənəm dedi ki, gedin yanında mənə də yer ayırın və məni də orda dəfn edərsiniz. Elə də etdik. Bir neçə il sonra Xanım nənəm də vəfat etdi və sevdiyi insanın yanında dəfn edildi.*

## *Vətən müharibəsi şəhidimizin atası: “O xəbəri eşidəndə ürəyim sancdı...”*

**”Bu gün Qadirin 25 yaşı tamam olur. Onu məzarı başında bir ev tikmişəm. Bu gün Qadirin məzarı şəhid ailələri, şəhidsevərlər, vətənpərvər insanlar tərəfindən ziyarət olunur. Ailədə bir qız və bir oğlan idilər. Elə oldu ki, Qadir şəhid oldu. O, sənətkar idi, avtomobillərə çexol tikirdi, Vətən müharibəsinə də könüllü getdi”**

Bunu Adalet.az-a açıqlamasında Vətən müharibəsi şəhidi Qadir Heydərovun atası Ədalət Heydərov deyib. Şəhid atası Qadirin adının yaşadılmasıyla bağlı müəyyən işlər gördüyünü bildirib:




”Qadirin yoxluğunu heç nəylə əvəz etmək olmur. Amma bircə təsəllim var ki, adı yaşadılsın. Biz Mehdiabad qəsəbəsində yaşayırıq, qəsəbədə oğlumun adına küçə verilib. Bir istəyim də odur ki, Qadirin oxuduğu Mehdiabad 1 saylı orta məktəbinə də onun adı verilsin. Bununla bağlı müraciətlər etmişəm.

Vətən müharibəsi zamanı Füzuli, Zəngilan, Cəbrayıl və Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib. Həmişə də telefonla əlaqə saxlayırdıq. Qubadlıda hündürlüyü 1165 metr olan zirvə var və sonuncu dəfə oktyabrın 28-də mənimlə telefonla danışanda həmin zirvəni düşməndən azad etdiklərini dedi. O xəbəri eşidəndə ürəyim sancdı, dedim ki, oğul, ehtiyatlı ol. Oktyabrın 30-da isə onun şəhid xəbərini aldım”.

Qeyd edək ki, Qadir Ədalət oğlu Heydərov 11 may 1998-ci ildə Cəlilabadın Əsədli kəndində anadan olub. Ailəsiylə Bakıda Mehdiabad qəsəbəsində yaşayıb. Vətən müharibəsində göstərdiyi qəhrəmanlığa görə ölkə başçısı tərəfindən ”Vətən uğrunda”, ”Qubadlının azad olunmasına görə”, ”Cəbrayılın azad olunmasına görə” və ”Cəsur döyüşçü” medallarıyla təltif edilib.

**Allah cəmi şəhidlərimizə rəhmət eləsin!**

**Vasif Əlihüseyn**

# ADR partiyasından qopmalar başladı: üzvlər istefa verdi

**ADR Partiyasının sədri Qubad İbadoğlunun fəaliyyətinə etiraz olaraq Partiyanın qurucu üzvü və idarə heyətinin üzvü İsmayıl Nəzirli istefa verməsilə bağlı bəyanatla çıxış edib. İ.Nəzirlinin bəyanatına digər təşkilat üzvləri də qoşulublar. İ.Nəzirli bəyanatı facebook hesabından paylaşıb. Bəyanatın mətnini təqdim edirik:**

”Əziz media nümayəndələri. Quruculuğunda yaxından iştirak etdiyim ADR adlı hərəkatın (sonra partiya) yaradılmasından bizi 9 il zaman ayırır. Biz bir qrup şəxs Müsavat partiyasından ayrılaraq ADR hərəkatını yaratdıq. Hərəkatı yaratdığımızda hesab edirdik ki, nəhayət respublikamızda demokratik prinsiplərlə idarə olunacaq bir siyasi partiyanın əsası qoyula bilər. Zatən təşkilatın qurulmasının ideya müəllifi olan dostlarım və mən bunu hədəf götürmüşdük. Qubad İbadoğlu faktiki olaraq bu təşkilata rəhbərliyi qiyabi həyata keçirirdi. Əsas yük təşkilatın qurucularının çiynində idi. ADR partiya olandan sonra təşkilatda hərc-mərclik, qeybət, yalançı təbliğat işə düşməyə başladı. Bir qrup şəxs Qubad İbadoğlunu öz mənasız tərifləri ilə şar kimi şişirtməyə başladılar. Təşkilat tədricən yanlış yola qədəm qoymağa başladı, avantüristlər önə çıxdı, səmimi hərəkatçılar sıxışdırldı. Təşkilata ağına-bozuna baxmadan, sıra sayını artırmaq prinsipi ilə digər partiyalardan qovulanları, kriminalları belə üzv qəbul etməyə başladılar. Qubad İbadoğlunun susqunluğu, tez təsir altına düşməsi, öz merkantil maraqlarına xidmət etməsi, bu işlərə daha da rəvac verdi. Bu isə təşkilatda sınanmış hərəkatçıların haqlı etirazına səbəb olmağa başladı.



Bu gün bir daha əmin olduq ki, Qubad İbadoğlunun ümumiyyətlə lider keyfiyyətləri yoxdur, yalnız şəxsi maraqlarını düşünən Q. İbadoğlu, çox təssüflər olsun ki, təşkilata gəlir mənbəyi kimi baxır. Təşkilatı Azərbaycanı hədəf seçən bəzi beynəlxalq güclərin alətinə çevirərək, onlardan aldığı qrantları özünün və ailəsinin rifahı üçün xərcləyir, yalnız özünün və övladlarının gələcək karyerasını qurmaq üçün istifadə edir. Onun yalançı reytinqi isə artıq havada partlamış şarı xatırladır. Əvvəlcə hərəkat, sonra partiya, daha sonra yenə hərəkata çevrilən ADR bütün bunlardan sonra aprel ayının ortalarında yenidən partiya kimi qeydiyyatdan keçmək üçün sənədləri Ədliyyə nazirliyinə təqdim etmiş və bunları partiya üzvlərindən, ictimaiyyətdən gizlətmişdir. Daha sonra isə 7 may tarixində Ali Məclisin toplantısını çağıraraq yenidən partiya kimi davam etmək qərarı vermiş və ictimaiyyətdən gizlətmişdir. Bu da onu göstərirki Q.İbadoğlu yenidən hansısa Azərbaycan əleyhinə olan güclərdən təlimat və qrantlar almışdır. Ona görə də mən və aşağıda imza edən partiya üzvləri, bundan sonra, fəaliyyətimizi ADR-də davam etdirməyi mənasız və puç hesab edərək istefa verdiyimizi bəyan edirik. Əmin olduğumuzu bildiririki bizim bəyanatımıza digər partiya üzvləri də qoşulacaqdır.

**Veyisov Fəxrəddin Qəfər oğlu**
**Tağıyeva Sevda Hüseyn qızı**
**Abdullayeva Sultan Cavanşir qızı**
**Nəzirli Orxan Dilavər oğlu**
**Məmmədova Aygün Baba qızı**
**Qasımov Səməd Səyavuş oğlu**
**Əliyeva Səkinə Qədir qızı**
**Tatarov Qurban Vilayət oğlu**
**Babayeva Tehran Baba qızı**
**Kərimov Alı Məcid oğlu**
**Hacıyeva Mədinə Cabbar qızı**
**İbrahimov Ziyadxan İslam oğlu**
**Məsmalıyeva Gulnar Yaşar qızı**
**Yusifov Qüdrət Elxan oğlu**
**Abudllayev Nizami Abdüləli oğlu**
**Kiçikov Orxan İsfəndiyar oğlu**
**Nəzirli Hüseynəli İsmayıl oğlu**
**Abdulzadə Həsrət Natiq oğlu**
**Veyisov Qəfər Xəliddin oğlu**
**Heydərli Emin Üzeyr oğlu**
**İbrahimov Sərxan Ziyadxan oğlu**
**Babayev Cavid Ərəstun oğlu**
**Yolçuyev Mansır Cavanşir oğlu**
**Məmmədov Kamil Elburus oğlu**
**Nəzirli Nərmin Baba qızı**
**Kərimov Vusal Alı oğlu**
**Vəliyeva Arzu Qədir qızı**
**Tağıyev Tağı Rəşad oğlu**
**İsgəndərov Nadir İslam oğlu**
**Qocayev Rüfət Ziyadxan oğlu**
**Veyisov Xəliddin Qəfər oğlu**
**Mustafayeva Güllü Azər qızı**
**Talıbov Fuad Tofiq oğlu**
**Orucov Oruc Novruz oğlu”.**

## *Kalın: “Taxıl müqaviləsinin uzadılması şansları var”*

**”Mayın 18-də başa çatacaq taxıl müqaviləsinin uzadılması şansları var”.**

Adalet.az xəbər verir ki, bu barədə bazar günü Türkiyə prezidentinin rəsmi nümayəndəsi İbrahim Kalın ”Habertürk” telekanalının efirində bildirib .”Ümid edirəm ki, taxıl sövdələşməsi uzadılacaq, bununla bağlı şanslar var. Bu istiqamətdə lazımi səylər göstərilir”.

22 iyul 2022-ci ildə İstanbulda qida və gübrələrin beynəlxalq bazara tədarükü ilə bağlı sənədlər paketi imzalanıb. İlkin olaraq müqavilələr 120 gün müddətinə bağlanıb.

Bu il martın 18-də Rusiya sazişin müddətini 60 gün uzadacağını elan edərək, bunun BMT ilə imzalanmış memorandumun icrasını qiymətləndirmək üçün kifayət qədər vaxt olacağı barədə xəbərdarlıq edib.

Rusiya Xarici İşlər Nazirliyi qeyd edib ki, sövdələşmənin uzadılması ilə bağlı növbəti qərar Rosselxozbank-ın SWIFT sisteminə yenidən qoşulmasından, kənd təsərrüfatı texnikasının, ehtiyat hissələrinin və xidmətlərin tədarükünün bərpasından, sığorta və təkrar sığortaya qoyulan məhdudiyyətlərin aradan qaldırılmasından, sığorta müqaviləsinin ləğvindən asılı olacaq.

*Əbülfət MƏDƏTOĞLU*



# Saz havalı şeirlər

*Onunla şəxsi tanışlığımın yaşı təqribən bir aydı...Amma sözlərinə yazılmış bəstələrə görə onu lap çoxdan tanıyıram..Bu bəstələri mənə tanıdan və sevdirən isə ürək və ruh doğmam dəyərli DOSTUM Zəka Vilayətoğludur. Mən dostumun nəğmə çələngində xüsusi yeri olan bu müəlliflə də elə Zəkanın və digər şair dostum İlqar Türkoğlunun vasitəsi ilə tanış oldum. Biz önəmli bir törəndə bir araya gəldik...*

*Həmin gün mənim yaddaşımda keçirilən mükafatlandırma ilə yanaşı, həm də yeni tanışımın mənə avtoqrafla bağışladığı kitabı ilə qaldı...Elə oradaca kitabı vərəqləyəndə diqqətimi unudulmaz şairə bacımız Fərqanə Mehdiyevanın imzası çəkdi. Belə ki, bağışlanmış kitabın redaktoru və ön sözünün müəllifi Fərqanə xanım idi. Təbii ki, Fərqanə xanımın yaradıcılığına yaxşı bələd olan oxucu kimi bu kitabı yazı masamın üstündə saxladım - məqsədim imkan düşən kimi kitabla həmsöhbət olmaq idi... Necə deyərlər həmin vaxt gəlib çatdı...Mən öncə Fərqanə xanımın " Ön sözünü " oxudum, sonra da kitabı...*

*Bu gün oxucularla Qəzənfər Bəxtiyarın "Bu ömür əriyən şamdı..." kitabı barədə oxucu fikirlərimi bölüşmək istəyirəm. Çox nəfs*







*şəkildə çap olunmuş kitabın "Ön söz"-ündə şairə xanım Fərqanə Mehdiyeva yazır ki, " Qəzənfər müəllim bütün şeirlərini sazla deyir" Açığı elə ilk kökləndiyim də bu fikir oldu. Və şeirlərlə tanış olduqca mənim də özümdən xəbərsiz hardasa "Dilqəmi"-yə kökləndiyimi hiss etdim.*

*Nə qaldı ki "döz"-dən başqa?*
*Nə qaldı ki, "az"-dan başqa?*
*Nəyim var ki, SÖZdən başqa ?..*
*Məni SÖZdən xəbər alın.*

*və yaxud:*

*Ay Qəzənfər , gözəl yaşa,*
*Köks ötürmə xəzəl yaşa...*
*Min il yaşa, yüz il yaşa ,*
*Bu dünyada iz qoyasan.*

*Kitabın vərəqlərini çevirdikcə şeirlərin ümumu ahəngi, mövzu və yazı tərzi mənə bir silsiləni xatırlatdı. Sanki Qəzənfər Bəxtiyar başını ilham pərisinin dizi üstə qoyaraq onun pıçıltısını öz ürəyinə köçürür və sonra da onları misralara çevirir. Ona görə də misraların düzümü və daşıdığı məna adama, yəni oxucuya tanış gəlir...Bir anlıq bu misraların, bu şeirin sənin öz ürəyindən pərvazlandığını düşünürsən! Bu məqamda vurğulamaq istərdim ki, məncə Qəzənfər Bəxtiyarın şeirlərinin nəğmələr çevrilməsinin əsas səbəbi budur. Şeirlərin tanış üzü və məna yükü musiqinin yaranmasına rəvac verir. Təbii ki, bu mənim oxucu qənaətimdi.*

*Qəzənfər Bəxtiyarın şeirlərində biraşıq ustadlıq elementi də mənim diqqətimi çəkdi! Fərqanə xanımın yazdığı kimi, şair şeirlərini sazla dediyi üçün onların yazılışında da sazın təsiri danılmazdı. Bu mənada şeirlər ustad aşıqlardan gəlmə özünü təqdim, özünü ifadə etmə və bir də öyüd -nəsihət vermək, öz həyat təəccürbəni misralarda canlandırmaq sözün yaxşı mənasında diqqətçəkəndi.*

*Bu sevdamız qalan oldu,*
*Min arzumuz yalan oldu,*
*Qəzənfərə olan oldu,*
*Yoxluğuna dözəmmirəm.*

*və yaxud:*

*Qəzənfər, bu həyat maraqlı gözəl,*
*Bir şirin nemətdir, ondan kam alaq.*
*Təki ömür versin Yaradan bizə,*
*Mehriban yaşayaq, mehriban olaq!*

*Mən " Bu ömür əriyən şamdı..."kitabında şairin doğma Vətənimizə ,onun təbiət və corafiyasına, özünün doğulduğu bölgəyə böyük sevgi və vurğunluğunun da şahidi oldum. Bu həm bir övlad, həm də bir vətəndaş bağlılığıdır. Ona görə də şeir səmimi alınıb.Oxuyanda pafos yox, səmimi duyğular aurasına düşürsən Qəzənfər Bəxtiyar kəndinə, Şahbuza yazdığı şeirlərdə həm tərənnüm , həm də tanıtma istəyi açıq-aşkar görünür. Bu isə , qeyd etdiyim kimi, müəllifin yurd sevgisinin böyüklüyündən , bir də duyğularındakı səmimiyyətdən qaynaqlanır.*

*Qəzənfər Bəxtiyar öyünür sənlə,*
*Bu yanar ürəyi döyünür sənlə,*
*Harada olsa da, sevinir sənlə ,*
*Mənim doğma elim-obam, Şahbuzum.*

*Bir oxucu olaraq düşünürəm ki,həmsöhbət olduğum bu kitab ona üz tutanlara yalnız saz havaları üstə səmimi, həm də düşündürücü məqamlar bağışlayacaq. Elə bu ovqatla da müəllifə uğurlar diləyir, SÖZÜN TÜKƏNMƏSİN!- deyirəm.*

## “Şəhidimizin xanımı namusuyla, qeyrətiylə övladlarını böyüdüb”

**”Mübariz Şahmurov Xocalıda qəhrəman döyüşçülərdən biri idi. Milli Qəhrəman Aqil Quliyevin dəstəsində vuruşurdu. O dəstənin döyüşçüləri 21 nəfər idi, onlardan yalnız üç nəfəri sağ qayıtdı. Mübariz Şahmurov da itkin düşdü”**

Bunu Adalet.az-a açıqlamasında Xocalı faciəsi zamanı erməni əsirliyində işgəncələrə məruz qalan Xocalı sakini Dürdanə Ağayeva bildirib. D.Ağayeva şəhidimizin oğlu Elşad Şahmurovun ailə həyatı qurduğunu deyib:

”Mübariz məzarsız şəhiddir. O, şəhid oğlanda oğlu Elşadın bir yaşı olub. Xocalı şəhidləri haqda kitab yazmışam və orda haqqında danışdığım Mübariz də var. Elşadın toy mərasiminə hörmətli millət vəkillərimiz Adil Əliyev və Elman Məmmədov gəlmişdi. Mübariz Sabirabadın Nərimankənd kəndində anadan olub. Hazırda oxuduğu məktəb şəhidimizin adını daşıyır, büstünü də qoyublar. Həyat yoldaşı və iki övladı isə Bakıda Nərimanov rayonunda yaşayır. Mübarizin xanımı əslən Azərbaycan qadınıdır. O, iki övladını 31 il namusuyla, qeyrətiylə böyüdüb. O toyda iştirak etmək hər birimizin borcu idi”.

**Vasif Əlihüseyn**

# ƏBƏDİYAŞAR ÖMÜR

**”Xalqı qəhrəman yox, qəhrəmanı xalq yetişdirir”. Onlar da xalqı qoruyur, yaşadır, xalqın mənəvi və maddi irsini, dilini, ədəbiyyatını, tarixini əbədiləşdirir, elmini inkişaf etdirir. Azərbaycan xalqı da tarix boyu çox böyük qəhrəmanlar, dahilər, böyük şəxsiyyətlər yetişdirib.**

Ulu öndər Heydər Əliyev məhz belə bir tarixi şəxsiyyət, belə bir görkəmli dünya siyasətçisi olmuşdur. Onun gördüyü işləri tarix və tarixçilər uzun illər boyu öyrənəcək, yazacaq, tədqiq və təhlil edəcəkdir. Onun xalqın rifahına yönəlmiş ideyaları nəsillərdən nəsillərə keçərək, yaşayacaqdır.

Əsrimizin ən böyük tarixi şəxsiyyətlərindən olan ulu öndər Heydər Əliyev məhz bu xalqın içərisindən yetişib, xalqın böyük dühalarının, qəhrəmanlarının, alimlərinin, yaradıcı insanlarının, söz-sənət adamlarının daimi diqqət və qayğı ilə əhatə olunmasında, elmi nailiyyətlərin, mədəni və ədəbi irsin qorunub mühafizə edilməsində, adlarının əbədiləşdirilməsində bir ömür sərf etmiş dahi insandır.

Birinci gəlişində Azərbaycan Sovetlər Birliyində əsas pilləyə qalxdı, Heydər Əliyev SSRİ dövlətinin əsas rəhbərlərindən biri oldu. Ovaxtkı İttifaq rəhbərliyi istəsə də, istəməsə də tarix göstərdi ki, Heydər Əliyev yolunu müvəqqəti ləngitmək olar, lakin dayandırmaq olmaz. Ulu Öndərimizin adı layiq olduğu qədər tarixi bir inkişaf yolu keçərək, dünya siyasətçiləri siyahısına qızıl hərflərlə yazıldı.

İkinci gəlişində müstəqil və müasir bir Azərbaycanın memarı kimi möhkəmlənməsinə və dünyəvi bir dövlətə çevrilməsinə nail oldu.

Bu, bir həqiqətdir ki, Mustafa Kamal Atatürk Türkiyə Cümhuriyyətinin tarixinə həmin cümhuriyyətin qurucusu olaraq düşdüyü kimi, Heydər Əliyev də müstəqil Azərbaycan Respublikasının tarixinə, artıq onun yaradıcısı olaraq düşmüşdür. Müstəqil Türkiyə Atatürkün əsəri olduğu kimi, müasir müstəqil Azərbaycan dövlətinin müəllifi və memarı da Heydər Əliyevdir.

Bu, şübhəedilməz və danılmaz faktdır ki, Heydər Əliyev olmasaydı, bugünkü inkişaf edən Azərbaycan dövləti də olmazdı. Heydər Əliyev Azərbaycan dövlətini və dövlətçiliyini, bütövlükdə xalqı nəinki məhv olmaq təhlükəsindən xilas etdi, həm də bu dövlətin və xalqın tərəqqisinin əsasını qoydu, milli müstəqilliyimizin əbədiliyini təmin etdi.

**”Bütün Azərbaycanlıların indi dünyada bir vətəni var. O, da Müstəqil Azərbaycan Respublikasıdır! Azərbaycan təkcə coğrafi anlayış deyil, Azərbaycan müstəqil dövlətdir, özü də möhkəm, güclü dövlətdir!”**

**”Bizim üçün tarixi bir amil var - AZƏRBAYCANÇILIQ!”**

Bəli, Heydər Əliyev Azərbaycan xalqının tarixini həm yazdı, həm də müstəqil Azərbaycan dövlətinin təməlinin, monolit birliyinin əsasını qoydu. Məhz buna görə də Heydər Əliyev tək bizim yox, bütün dünya azərbaycanlılarının yeganə, layiqli liderinə çevrilmişdir.

Belə bir tarixi şəxsiyyət haqqında insan oğlu fikirləşdikcə, fikirləşir. Onun keçdiyi həyat yolu nə qədər sadə və sadə olduğu qədər dərin, siyasi və kəhkəşan kimi möhtəşəmdir.

Sadədir, ona görə ki, bu həyat yolu hər bir kəs üçün örnəkdir.

Dərindir, ona görə ki, bu həyat yolu illər boyu oxunduqca oxunacaq, öyrənildikcə öyrəniləcəkdir.

Siyasidir ona görə ki, bu tarixi şəxsiyyət bir dərin düşüncəsi, bir sadə qələmi ilə həyata atılıb, tutduğu yol - Haqq yolu, Ədalət yolu olub. Siyasi təfəkkürü və əyilməz mövqeyi ilə böyük bir imperiyanın od-alovundan salamat keçib, liderlik adı qazanıb, Ulu Öndərlik zirvəsinə yüksəlib.

Kəhkəşanlıdır ona görə ki, o, ömrünü sadə həyat tərzi ilə başlayıb, dünyəvi həyat tərzinə qədər yüksəlib, lakin bununla belə dəyişilməyib, həmişə sadə görünüb və sadə olaraq da qalıb. Həmişə xalqının ümid mənbəyi olub. Xalqın əli ondan, onun əli Ulu Tanrıdan üzülməyib.

Söz yox ki, Heydər Əliyevə qarşı bu xalq istəyi, el məhəbbəti bizi istəməyənləri, mənfur erməni xislətliləri narahat edirdi, onlarda qısqanclıq yaradırdı. Sonrakı hadisələr bunun tarixi sübut olduğunu bir daha təsdiqlədi Lakin ”tarix ən ədalətli hakimdir”, - deyiblər. Azərbaycan xalqı tarixə bir daha ona görə minnətdardır ki, Heydər Əliyev kimi XX əsrin dühasını bir daha özünə qaytardı. Azərbaycanın tale kitabını mahir bir memar kimi Ulu Öndərin özü səhifələdi. Həlli vacib məsələləri yoluna qoydu. Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. O, dövlətçiliyimizi məhv olmaqdan qorudu. Bir əsrdə ikinci dəfə milli dövlətçiliyi dağılmaq təhlükəsindən xilas etdi və möhkəmləndirdi.

Azərbaycan dövlətçiliyinin son bir qərinəlik tarixinin məntiqə söykənən təhlili göstərdi ki, öz vətənimizdə didərgin, köçkün düşməyimizin başlıca səbəblərindən biri 1982-1993-cü illərdə Azərbaycanda güclü və qətiyyətli dövlət başçısının olmaması idi.

1993-cü ildən sonra biz şahidi olduq ki, Azərbaycan vətəndaş müharibəsindən, ərazisi parçalanmaqdan, qanunsuz silahlı dəstələrdən yalnız möhtərəm Heydər Əliyevin qətiyyəti, möhkəm iradəsi və inamı hesabına xilas olundu. Xalq yaxşı bilir ki, 15 iyun 1993-cü ili Milli Qurtuluş günü kimi qeyd etməyimizin köklü bir əsası və səbəbi var. Əgər Heydər Əliyev bu tarixdə hakimiyyətə gəlməsəydi, nə bugünkü müstəqil dövlətimiz, nə də ümumbəşəri demokratik inkişafımız olardı

Şuşa və Laçın erməni işğalçıları tərəfindən zəbt olunduqdan sonra Azərbaycanın qala qapısı və dilbər guşəsi, Azərbaycan üçün çox böyük strateji əhəmiyyət kəsb edən Kəlbəcər də bu müsibətlə üzləşdi, işğal olundu. Kəlbəcər ildönümü ilə əlaqədar 1996-cı il aprel ayının 1-də Prezident Sarayında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Kəlbəcər rayonu sakinlərinin nümayəndələri ilə görüşündəki çıxışından bəzi sətirləri xatırlamaq yerinə düşər: ”Bu gün Kəlbəcər rayonunun ermənilərə təhvil verilməsindən üç il keçir. Kəlbəcər ictimaiyyətinin nümayəndələri ilə bugünkü görüşün keçirilməsi, mən deyərdim ki, tarixi bir hadisədir. Yəqin ki, bu gün indiyə kimi ictimaiyyətə məlum olmayan çox məqamlar açıqlanacaq,




faktlar deyiləcək və Kəlbəcər camaatına, eyni zamanda, Azərbaycan xalqına məlum olacaq ki, Kəlbəcər kimi alınmaz bir qalanın ermənilərə təhvil verilməsində kimlər günahkardır, kimlər xəyanət ediblər. Kəlbəcər rayonuna bir neçə dəfə müsibət üz vermişdir. Birinci müsibət 1992-ci il aprel ayının 8-də, ikinci müsibət 1993-cü il aprel ayının 4-də baş vermişdir. Bütün bunlar artıq tarixin qara səhifəsi kimi yaddaşımıza yazılıb...”

Ümummilli lider Heydər Əliyev xəyanətkar erməni qəsbkarlarının törətdiyi Kəlbəcər faciəsi ilə bağlı ağır ittiham irəli sürmüşdür: **”Bu faciəni heç vaxt unutmaq olmaz, faciə bizə nə qədər qəm-qüssə, kədər gətirsə də, onu daim yaşatmaq lazımdır ki, bu faciədən hərə özü üçün ibrət götürsün. Yaşatmaq lazımdır ki, dünya xalqları bilsin - Azərbaycanın başına nə kimi bəlalar gəlibdir və erməni qəsbkarları nə qədər vəhşidirlər ki, Azərbaycan xalqının başına bu cür bəlalar gətiriblər. Ona görə bunu yaşatmaq lazımdır, unutmaq olmaz, nəsillərdən -nəsillərə ötürmək lazımdır”.**

Heydər Əliyev dərin zəkası, müdrik siyasəti və səbriylə imperiyanın haram dişli çarxından salamat çıxdı, qalib gəldi, millətinə və xalqına XİLASKAR oldu, Türk Dünyasının liderinə çevrildi.

Dünya səviyyəli bütün beynəlxalq tədbirlərlə Ulu Öndər xitabət kürsüsündən düşmürdü. Böyük cəsarət və tarixi sənədlərlə bütün dünyaya bəyan edirdi ki, Ermənistan dövləti işğalçıdır və havadarlarının köməyi ilə torpaqlarımızı istismarda saxlayır. Bu işğalda iştirakı olan dövlətləri ikili standartlardan əl çəkməyə çağırırdı. Böyük ümid və dolğun inamla təkid edirdi ki, biz çalışırıq ki, torpaqlarımızı sülh yolu ilə işğaldan azad edək. Yox, əgər sülh yolu ilə olmazsa, hərbi yolla azad etməyə gücümüz, iradımız və xalq birliyimiz var. Xalqa və hərbi gücümüzə arxalanan Ulu Öndər çox böyük cəsarətlə deyirdi: **”Torpaqlarımızın işğal yolunun açarı erməni havadarlarının əlindədir. Əgər bu gün bu məsələ həll edilmirsə, bunun zamana ehtiyacı var. Əmin ola bilərsiniz ki, biz torpaqlarımızı işğaldan azad edəcəyik. Sizlə birlikdə doğma yurdlarımıza qayıdacağıq. İnanın, qayıdacağıq! ”.**

Ulu Öndər XXI əsrin başlanğıcında bir daha Azərbaycanın gələcəyi naminə, onun müstəqilliyinin təminatı üçün dünya şarı üzərində bir məşəl yandırdı. Bu məşəl əsrin müqaviləsi, Bakı-Tbilisi-Ceyhan neft kəməri və bunun kimi Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən digər müqavilələr, sazişlərdir. Dünən xəyal kimi səslənən bu fikirlər bu gün həqiqətə çevrildi. Məhz H.Əliyevin əlləriylə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməl daşı, bünövrəsi qoyuldu. Dünya dövlətlərinin marağına səbəb olan və bizi istəməyən qüvvələri heyrətə salan bu böyük siyasi-iqtisadi addım ömrünün ixtiyar çağında da bütöv Azərbaycanımız, ümumiyyətlə, türk dünyamız üçün gecəli-gündüzlü çəkdiyi əzab-əziyyətin və məqsədyönlü fəaliyyətin nəticəsidir. Bu uğurlar Azərbaycanımızın bu günü, sabahı və gələcəyi üçün əbədi məşəl kimi alovlanacaq və gələcək nəsillər bu alovun şöləsindən həmişə bəhrələnəcəkdir.

Xalqın və tarixin yaddaşına əbədi həkk olunan ”Əsrin müqaviləsi”, tarixi ”İpək yolu” və digər dünyəvi aktlar Azərbaycanı Avropaya və oradan da okeanın o biri üzünə bağlayır. Salınan bu körpünün, uzanan bu yolun üzərində min illərlə Azərbaycan övladı, Azərbaycan gəncliyi addımlayacaqdır.

Həqiqətə çevrilən ”Bakı-Ceyhan”, ”Bakı-Supsa”, ”Bakı-Ərzurum” kəmərləri dünyanın boynuna sarınmış ”qızıl boyunbağı”, ”mirvari” kimi daim parıldayacaq, bərq vuracaqdır. Bu parlaq günəş dünyanın diqqətini bizə daha çox cəlb edəcək və bu işıqdan, bu nurdan xalqımız daim bəhrələnəcəkdir.

80 il ömür sürən bir insan böyük türk dünyasına, müstəqil Azərbaycana minillik tarix yazıb getdi. Xalq inanır ki, bu gün Azərbaycan bayrağı daha qüvvətli əldə dalğalanır və inamla daha yüksəkliklərə qaldırılacaqdır.

Kainatda saysız-hesabsız parlaq ulduzlıar var. Ancaq ”Dan ulduzu”, ”Karvanqıran” və digər böyük ulduzlar daha çox bərq vururlar. Onlar məğribdən məşriqə qədər istiqamət verən, kainatın yol göstərənləridirlər. Dahilər də bəşəriyyətin yol göstərəni, gələcəyə işıq saçanıdırlar. Ulu öndər Heydər Əliyev də məhz Azərbaycan xalqının taleyinə belə bir parlaq ulduz kimi doğmuşdur. Bu ulduzun şöləsi Azərbaycanımızı yalnız ugurlu yollara aparacaqdır.

**Məhəmməd Peyğəmbərin (ə.s.) bir kəlamı var: ”Dünyada ən xoşbəxt adam əməli gözəl, ömrü uzun, layiqli övladı olan adamdır”.** Bu kəlamlar elə bil Ulu Öndər üçün deyilib. Bu, Azərbaycan xalqının daş yaddaşında qızıl hərflərlə yazılmış tarixi həqiqətdir.

Bu gün Heydər Əliyev siyasətinin uzaqgörənliyi, onun layiqli davamçısı hörmətli prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin möhkəm iradəsi, cəsarətli addımı, düzgün siyasəti və cəsur ordumuzun göstərdiyi əzm və rəşadət nəticəsində Qarabağımız azaddır. Biz artıq qalib bir xalqıq. Bu qalibiyyət, bu zəfər bizim milli qürurumuzun, mənəviyyatımızın qalibiyyətidir. Azərbaycan xalqı 44 gün savaşda Zəfər çalan bir xalq kimi dünya hərb tarixinə qızıl hərflərlə düşdü. Bu qalibiyyəti bizə yaşadan, Vətən ugrunda can verən bütün şəhidlərimizin ruhu qarşısında və eləcə də canlarını sipər edən qazilərimizin önündə baş əyirəm.

**Odlardan, alovlardan keçmiş səməndər xarakterli şəxsiyyət, xalqın inandığı, güvəndiyi lider ulu Öndər Heydər Əliyevin ruh qarşısında baş əyirəm Nə qədər ki, Azərbaycan var, Ümummilli Lider də yaşayacaqdır!**

**Eşq olsun həqiqət kimi yaşayan bu ruha!**

**Esq olsun Əbədiyaşar bu ömürə!**

**AYTƏN MİSİRZADƏ,**
**Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinin şöbə müdiri, Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının müdavimi.**

# Xalqın qəlbində əbədi yaşayacaq böyük şəxsiyyət

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə 2023-cü il ”Heydər Əliyev İli” elan olunub. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi ilə əlaqədar həm ölkəmizdə, həm də ölkəmizdən kənarda təntənəli tədbirlər keçirilir. Ulu Öndər Heydər Əliyevin şərəf dolu ömür yolu geniş öyrənilir.**

Tarixin bütün dönəmlərində dahi və əvəzolunmaz şəxsiyyətləri olur. Belə şəxsiyyətlər zəkalarının itiliyi və əzəməti ilə yaşadıqları əsrə sığmırlar. Özlərindən sonra pozulmaz parlaq izlər qoyurlar.

Buna görə də onlar bütün zamanlarda xatırlanırlar, tarixin və xalqın yaddaşında əbədi yaşayırlar. Bu tarixi şəxsiyyətlərlə xalq qürur duyur, bütün nəsillər öyünüb qürur duyur. XX yüzillikdə xalqımızın dünyaya bəxş etdiyi əsrlərə sığmayan belə əzəmətli və nəhəng tarixi şəxsiyyət Ümummilli Liderimiz Heydər Əliyevdir. Böyük nadir şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı, dövləti və dövlətçiliyi üçün gördüyü əzəmətli və nəhəng işlər qalın-qalın kitablara sığmaz. Bu əvəzsiz dövlət xadiminin adı Azərbaycan tarixinin səhifələrinə qızıl hərflərlə yazılıb.

Müstəqil və müasir Azərbaycanın memarı və qurucusu olan Ümummilli Liderimiz Heydər Əliyev tariximizdə dərin iz qoymuş nəhəng şəxsiyyətdir. Ulu Öndər xalqımızın tarixinə Azərbaycan dövlətinin qurucusu və banisi kimi daxil olub. Xalqımızın yaddaşında əbədi və dərin izlər qoymuş əzəmətli qətiyyət və iradə sahibi olmuş Ümummilli Liderimiz ölkəmiz üçün ən mürəkkəb və keşməkeşli günlərdə yaranmış ağır vəziyyətlərdən çıxmağın ən düzgün yolunu tapmağı böyük məharətlə bacarmışdı. Ulu Öndəri uca zirvələrə qaldıran, liderlik səviyyəsinə yüksəldən, zamanlara sığmaz edən ən ali keyfiyyətlərdən birincisi doğma xalqına bağlılığı, sonsuz sevgisi və dərin inamı idi. Xalq da öz liderinə sadiq idi, bu əzəmətli şəxsiyyəti özünə əbədi mayak sanırdı. Bənzərsiz şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən Ümummilli İider Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmiş, Azərbaycan xalqının heç vaxt tükənməyəcək sevgi və məhəbbətini qazanmışdı.

Ötən əsrin yetmişinci illərindən Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başladı. Həmin illər Azərbaycan tarixinə yüksəliş və sürətli inkişaf dövrü kimi düşüb. Artıq əsrlərin səhifələrində tarixləşmiş o illərdə ölkəni idarə etmək, inkişafa, tərəqqiyə nail olmaq heç də asan deyildi. Bu o vaxtlar, o zamanlar idi ki, Azərbaycan Respublikası keçmiş Sovetlər Birliyinin tərkibində birbaşa Moskvadan idarə olunurdu. Lakin Ulu Öndər Heydər Əliyev Azərbaycanın daim çiçəklənməsi və tərəqqisi naminə böyük çətinliklərlə də olsa, mərkəzin diqqət və qayğısını ölkəmizə yönəltdi. O illərdə bu addımı atmaq ölkə rəhbərindən böyük iradə, sarsılmaz qətiyyət və yenilməz cəsarət, hər şeydən öncə isə böyük risk tələb edirdi. Böyük tarixi şəxsiyyət Heydər Əliyev bunu çox qətiyyət və məharətlə bacardı.

Keçmiş ittifaq süquta uğradıqdan sonra Azərbaycan Respublikası da öz dövlət müstəqilliyini bərpa etdi. Həmin günlərdə ölkəmiz Ermənistanla müharibə vəziyyətində idi. Heç vaxt torpaqlarımızdan gözünü çəkməyən ermənilər o illərdə yaranmış tarixi şəraitdən yararlanaraq havadarlarının köməkliyi ilə ölkəmizin iyirmi faizdən çox ərazisini işğal etdilər. Həmin illərdə Azərbaycana rəhbərlik edənlər qətiyyətsizlik və iradəsizlik nümayiş etdirərək vaxtlı-vaxtında Silahlı Qüvvələr yarada bilmədilər. Bundan məharətlə istifadə edən ermənilər qanla yoğrulmuş işğalçılıq planlarını həyata keçirtdilər.

1993-cü ilin iyununda ölkədə baş verən hadisələr çox gərgin xarakter almışdı, vəziyyət gərginləşmişdi. Elə gərginləşmişdi ki, yenicə müstəqillik qazanmış Azərbaycan dövləti dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. O zamanlar ölkəmizin düşdüyü ağır durum tələb edirdi ki, xalqı düşdüyü bu fəlakətdən qurtarmağa qadir olan dahi bir şəxsiyyət hakimiyyətə gəlsin. Bu, həmin dövr idi ki, ölkədə hərc-mərclik, hakimiyyətsizlik hökm sürürdü. Xalqımız və ölkəmiz üçün belə ağır zamanda milyonların dəvəti ilə Ümummilli Liderimiz Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı. Xalq tarixinin bu həlledici günlərində seçimini çox düzgün etdi. Çünki Ulu Öndər gəlişi ilə Azərbaycanı, Azərbaycan xalqını, onun dövlətini real təhlükələrdən xilas etdi. Vətənimizin başının üstünü almış qara buludlar az bir vaxtda dağıldı.

Xalqın tələbi ilə hakimiyyətə qayıdandan sonra heyrətamiz iradə və qətiyyət nümayiş etdirən Ümummilli Liderimiz ölkəni düşdüyü fəlakətdən qurtarmağa müvəffəq oldu. Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdan kimi uğurlara hesablanmış səmərəli islahatlara başladı. Böyük sürətlə həyata keçirilən bu səmərəli islahatlar sayəsində qısa müddət ərzində ölkəmizin həyatının bütün sahələrində ciddi dönüş yarandı.

Hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan Respublikasının Prokurorluğu ölkə rəhbəri cənab Heydər Əliyevin daimi diqqət mərkəzində olmuşdu. Prokurorluğun fəaliyyətinin hüquqi əsasını təşkil edən normativ aktlar, o cümlədən ”Prokurorluq haqqında”, ”Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, ”Prokurorluğun rəsmi emblemi haqqında”, ”Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında” qanunlar dövlət başçısının təşəbbüsü ilə qəbul olunmuş və ”Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi qaydaları haqqında” Əsasnamə onun sərəncamı ilə təsdiq edilmişdir. Ulu Öndər 26 aprel 2000-ci ildə Azərbaycan Respublikasının prokurorluq orqanlarının rəhbər işçiləri ilə görüşü zamanı demişdir: ”Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır...”

Respublikanın prokurorluq işçiləri dövlət başçısının göstərdiyi böyük qayğıya və yüksək etimada cavab olaraq, həmin tarixi nitqdə Ulu Öndərin prokurorluq qarşısında qoyduğu vəzifələrin yerinə yetirilməsi üzərində əzmlə çalışırlar. Məhkəmə-hüquq islahatları çərçivəsində həyata keçirilmiş islahatlar nəticəsində tamamilə yeniləşmiş, demokratik və sivil bir təşkilata çevrilmiş prokurorluq bundan sonra da göstərilən böyük etimadın doğruldulması üçün bütün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.

Məhz bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ordumuz 27 sentyabr 2020-ci ildə düşmən təxribatı nəticəsində balanan Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında 28 ildən çox erməni qəsbarlarının tapdağında qalmış torpaqlarımızı işğaldan azad etdi. Xalqımıza sevinc dolu günlər yaşatdı.

Ümummilli lider Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli fəaliyyəti milli-mənəvi irsimizin əsasını təşkil edir və gənc nəsillər üçün sözün həqiqi mənasında örnək yeridir. Ömrünü Azərbaycan xalqına həsr etmiş Ulu Öndər həm keçmiş İttifaq dövründə, həm də müstəqillik illərində Azərbaycanımızın tərəqqisi naminə nəhəng işlər gördü. Ölkəmizin hüquqi, iqtisadi, siyasi, elmi, mədəni, hərbi və başqa sahələrində böyük tarixi şəxsiyyət Heydər Əliyevin fəaliyyətinin pozulmaz izləri bu gün də qalmaqdadır. Məhz böyük tarixi şəxsiyyətin yaratdığı qüdrətli ölkəmiz 21-ci əsrdə də qətiyyətlə addımlayır. Bu gun ölkəmiz ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında daha da sürətlə inkişaf edir.

**Azərbaycanın və xalqımızın qurtuluşu, həmçinin xoşbəxt gələcəyi naminə qətiyyətlə böyük siyasət meydanına atılan ulu öndərimiz Heydər Əliyevin adı və ideyaları əbədi yaşayacaq. Ulu Öndərin işıqlı ideyaları zaman-zaman həyata keçəcək və hər birimiz üçün qürur mənbəyi olacaq. Azərbaycan xalqının Ümummilli Liderinə olan sevgisi, istəyi heç zaman tükənməyəcək. Ulu Öndər Heydər Əliyevin həyat yolu və siyasi fəaliyyəti Azərbaycan vətəndaşları üçün örnək və qürur mənbəyi olacaq.**

**Səfər Əhmədov,**
**Ədliyyə polkovniki,**
**Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Dövlət İttihamının müdafiəsi üzrə şöbəsinin rəisi**

## Keçmiş döyüşçü: “Şuşaya qayıdacağımız günü səbirsizliklə gözləyirəm...”



**”8 may gününü 44 günlük Vətən müharibəsindən öncə ürək ağrısıyla qeyd edirdik. Hər il 8 may günü gələndə fikirləşirdim ki, Şuşa həmin gün daha çox düşmən əlində əziyyət çəkir, bizi qınayır”**

Bunu Adalet.az-a açıqlamasında keçmiş döyüşçü, Şuşa sakini Şunasi Babayev deyib.

Ş.Şabayev Şuşaya köçəcəkləri günü səbirsizliklə gözlədiklərini bildirib:

”İndi zabit oğlum Şuşada xidmət edir. Bundan böyük qürur ola bilməz. Şuşamız azaddı, Azərbaycan əsgərinin nəzarətindədir. Vaxt var idi Paşinyan Şuşada Cıdır düzündə ”yallı” oynayıb bizə gözdağı verirdi. Amma Şuşa işğaldan azad ediləndən sonra Ali Baş Komandan Cıdır düzündə paxlavayla çay içib Paşinyana cavab verdi.

Bizi siyahıya alıblar və Şuşaya qayıdacağımız günü səbirsizliklə gözləyirəm. İnşallah Şuşada görüşərik”.

**Qeyd edək ki, 1992-ci il 8 may günü erməni silahlı birləşmələri Şuşa şəhərini işğal etmişdi. Lakin 2020-ci il 27 sentyabrda başlayan 44 günlük Vətən müharibəsi zamanı Müzəffər Azərbaycan Ordusu 8 noyabrda Şuşanı düşmən işğalından azad etdi.**

**Vasif Əlihüseyn**

## Zelenski: Rusiyanı sürprizlər gözləyir

**Rusiyanı xoşagəlməz sürprizlər gözləyir.**

Bunu Ukrayna Prezidenti Vladimir Zelenski deyib.

”Ukraynaya əks-hücum əməliyyatı keçirmək üçün daha çox vaxt lazımdır, çünki ordunun hələ də müttəfiqlərimizin vəd etdiyi köməyə ehtiyacı var. Ukrayna ordusu əlində olanlarla irəli gedə və uğur qazana bilər.

Amma biz çox insan itirə bilərik. Hesab edirəm ki, bu, qəbuledilməzdir. Ona görə bizə hələ vaxt lazımdır”, - Zelenski bildirib.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

№ 18 (2342) 12 may 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ermənistan Azərbaycana dəymiş ziyanın əvəzini nə vaxt ödəyəcək?

**Heç kimə sirr deyil ki, 1990-cı illərin əvvəllərindən Ermənistan Azərbaycan torpaqlarını işğal edib. Nə az, nə çox, düz 30 ilə yaxın 20 faiz ərazimiz ermənilərin işğalı altında qalıb. Ədbəttə, dünyada çox müharibələr olub - 100 illik, 25 illik, 7 illik və sair və il axır. Amma bu müharibələrin heç birində ermənilərin törətdyi cinayətləri başqa işğalçılar eləməyiblər. Düzdü, şəhərlər, qəsəbələr, kəndlər bombalanıb, artilleriya atəşinə tutulub və bu atəşlər zamanı da təbii ki, böyük dağıntılar yaranıb. Bunlar müharibənin yazılmış və yazılmamış qanunlarıdır. Ancaq ermənilərin törətdiyi müharibə cinayətlərinin anoloqu və oxşarı yoxdur.**

Aydındır ki, ermənilər heç də Azərbaycan torpaqlarnın 20 faizini öz gücləri ilə işğal eləməmişdilər. Onlar rusların və digər havadarlarının köməkliyi ilə bu cinayətləri törətmişdilər. Düşünürdülər ki, nəinki 30 il, heç 100 il keçsə də, Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmayacaqlar. Lakin Ali Baş Komandan İlham Əliyvin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gündə bu işğala son qoydu, 9 rayonmuz ermənilərdən azad edildi. Belə bir əməliyyatın aparılmasını nə ermənilər, nə də onların havadarları gözləyirdilər. 44 günlük "İldırım sürətli" döyüş əməliyyatı dünyaya bəyan etdi ki, Azərbaycan öz torpaqlarını özü də azad eləmək gücünə malikdir. Ancaq təəssüf ki, 30 ildə BMT, ATƏT və digər beynəlxalq təşkilatlar məlum 4 qətnaməni icra etmədi, prosesi dondurdu, ağzına su alıb durdu və üstəlik də ermənilərə bir daha havadarlıq elədi.

Dünyada analoqu olmayan müharibə cinayətləri torpaqlarımız işğaldan azad olnandan sonra bir daha həm beynəlxalq təşkilatlara, həm də digər qurumlara aydın oldu. Aydın oldu ki, ermənilər işğal etdikləri rayonlarımızın daşını-daş üstə qoymayıblar. Ağdam kimi, Füzuli kimi, Cəbrayıl kimi, Zəngilan kimi, Kəlbəcər kimi, Qubadlı kimi şəhərlər yerlə yeksan olub. Azçox bəzi binalar Laçında qalıb. Onun da əksərini söküb aparıblar. Sanki bu ərazidən vəhşi bir qəbilə keçib. Yaxud da fil sürüsü meşədən keçərkən ağacları necə məhv edirsə, bax onlar da şəhərlərimizi, kəndlərimizi, qəsəbələrimizi elə viran günə qoyublar. İstər yaşayış binalarının, istər sosial obyektlərin, istərsə də məktəb və xəstəxanaların damı, döşəməsi, pəncərəsi və hətta qapıları belə sökülüb aparılıb. Çoxları bilməz, amma kənd adamları yaxşı bilir ki, daş evləri tikərkən çay daşından, qara daşlardan isti fadə olunur. Bax, onlar Füzuli şəhərində evləri sökərkən qara daşları da söküb aparıblar.




Təbii ki, ermənilər bu cinayəti tək həyata keçirməyiblər, onlar rusların və iranlıların yardımı ilə bu vəhşiliyi törəiblər. Deyilənlərə görə, hər evi 300 dollara ermənilər və ruslar iranlılara satıblar. Evin içərisindəki qiymətli əşyalardan tutmuş, həyətlərdəki mal-qoyuna, avtomobilə qədər hamısını yığıb aparıblar. Üstəlik də Azərbaycanın flora və fanunasına yüz il bundan belə də dirçəltmək mümkün olmayan ziyanlar vurublar. 200-300 ilin çinar ağaclarını, palıd ağaclarını, qovaq ağaclarını və digər qiymətli ağacların hamısını kəsib aparıblar. Zəngilanda dünyada ikinci yerdə olan çinar meşələrini məhv ediblər. Daha doğrusu, həmin ağacları qarıraq, Frnasa və İrana göndərib qiymətli taxta kimi istifadə edərək, baha qiymətə başqa ölkələrə satıblar. Qızıl mədənlərimizi, mis mədənlərimizi, mişar daşı mənbələrinin hamısını kəsib aparıblar. Hətta meşələrdə olan nadir heyvanları belə rəhm etmədən ya ovlayıblar, ya da öldürüblər. Onların vəhşiliyi o həddə çatıb ki, qıra bilmədikləri meşələrə od vurub yandırıblar. Qəbiristanlıqlarımızdakı qiymətli mərmər daşlarının hamısını söküblər və satıblar.

Bir sözlə, bu müharibə cinayətləri ən böyük cinayətlərdən biridir. İqştisadçı-ekspert Təbriz Süleymanov deyir ki, ermənilər Azərbaycan iqtisadiyyatına 1 trilyona yaxın ziyan vurublar. Bu ziyanın içərisində onların əmlakları, var-dövlətləri, Azərbaycan təbiəti və eləcə də digər qiymətli, zəngin maddi və mənəvi dəyərlərimiz var. Qədim tarixi abidələrimiz, min illərin yadigarı olan tikililəri, məscidlərimizi, kurqanları və müqəddəs yerlərimizi bu şərəfsiz millət ya mundarlayıb, ya da dağıblar. Onlar işğal etdikləri yerlərdə Azərbaycan toponimlərinin hamısının ya adını dəyişib, ya da yer üzündən siliblər. Amma bütün bu cinayətlərə çox təəssüf ki, beynəlxalq təşkilatlar və o cümlədən BMT və ATƏT uzun müddət göz yumublar və bu gün də göz yumurlar.

Artıq Azərbaycan tərəfi bu müharibə cinayətləri ilə bağlı və ölkəmizə dəymiş bir trilyon dollara yaxın ziyanı ödətdirmək üçün erməniləri Beynəlxalq Ədalət Məhkəməsinə verib. Amma hələ ki, Beynəlxalq Ədalət Məhkəməsi bu günün özündə də lazımi qərarı çıxartmayıb. Ancaq ermənilər müraciət edən kimi o dəqiqə həm beynəlxalq təşkilatlar, həm də adını çəkdiyimiz Beynəlxalq Ədalət Məhkəməsi məsələni gündəliyə çıxarır və erməniləri müdafiə eləyən haqsız qərarlar, qətnamələr qəbul edirlər.

Dünyanın inkişaf etmiş ölkələri həmişə ermənilərin haqsız işlərini müdafiə ediblər, amma bizim haqlı işimizə gözlərini yumub və ağızlarına su alıb durublar. Azərbaycan Laçıında sərhəd-keçid məntəqəsini qurandan sonra ermənilər bir hay-həşir qopardı ki, gəl görəsən. O dəqiqə Avropa ölkələri, xüsusən də, Fransa başladılar onları müdafiə etməyə. Ki, Azərbaycan yolu bağlayıb. Hansı ki, Aərbaycan öz ərazisində dünyanın hər yerində olduğu kimi, sərhəd-keçid məntəqəsi yaradıb və gömrük sistemi qurub və burada heç bir beynəlxalq hüququn pozulmasından söhbət gedə bilməz. Hətta Fransanın xarici işlər naziri tumanını başına keçirib, iki daşın arasında Bakıya gəldi ki, həmin keçid məntəqəsi götürülsün və ermənilər Azərbaycan ərazisinə keçərkən yoxlanılmasın. Təbii ki, onun da cavabı verildi və Fransanın da xarici işlər nazirinə öz yeri göstərildi. Yeri göstərildi ki, bizim işimizə burnunuzu soxmayın!



**Təbii ki, Beynəlxalq Ədalət Məhkəməsi bizim xeyrimizə qərar çıxartsa, ermənilər o məbləği ödəyə bilməyəcəklər. Amma o məbləği ödəyə bilməsələr də canları çıxıb, onun əvəzindən dədə-baba torpaqlarımız olan Zəngəzuru, Göyçəni bizə qaytarmalıdırlar. Çünki onlar cəzalandırılmalıdırlar ki, bir də müharibə baş verərsə, belə cinayətlər törətməsinlər. Və bizdə belə bir deyim var: "Küçük qulağı kəsəndən qorxar". Ermənilərin də qulağı kəsilməlidir ki, ömrülərinin sonuna qədər belə cinayətləri yaddan çıxmasın və bir daha onu eləməsinlər!**

**FAİQ QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Sevda Səfərli: ""Vətən sizə oğul dedi" kitabım, Şuşanı azad edənlərə minnətdarlığımdır"

*Ömrümün bahar çağıdır,*
*Amma qəlbim qəm tağıdır.*
*Qəm tağım - Vətən dağıdır,*
*Vətənə yetməyim gəlir,*
*Şuşaya getməyim gəlir.*

Adalet.az xəbər verir ki, bu gün əslində alınmaz qala sayılan Şuşanın alınmasından, işğal olunmasından 31 il keçir. Bu illər ərzində xalqımız ürəyinin bir parçası olan Şuşanı, Qarabağı bir an da olsun unutmadı. Ötən Şuşalı günləri, yurddakı xoşbəxt anları. yana-yana, sızıltı ilə xatırlaya-xatırlaya, gözləri yaşla, ürəyi qəhərlə dola-dola "Şuşam" deyərək köks ötürdü.

*Xarı bülbüllər açanda,*
*Kəkotu ətir saçanda,*
*Qartal qıy vurub uçanda,*
*Gülünü dərməyim gəlir,*
*Şuşanı görməyim gəlir.*

Nəhayət qüdrətli Azərbaycan Ordusu qollarını çirmələdi və torpaqlarımızı, xüsusən Qarabağın rəmzi olan Şuşanı işğaldan azad etdi. "Şuşam" deyib qəhr olanların, həsrət çəkənlərin gözü də güldü, ürəyi də sevindi, 28 illik həsrətin verdiyi "başaaşağılıq" hissinin yerini qürur hisssi doldurdu. İndi vətənini, el-obasını sevən hər kəs Azərbaycan ordusuna, sağlamlığına ağır zərbə dəymiş qazilərə, vətənin dar günündə əlinə silah alıb döyüşə atılan igidlərə özünü minnətdar, borclu hesab edir, ruhu ilə vətən göylərinə çəkilmiş Şəhidlərin müqəddəs ruhu qarşısında baş əyir!

*Yaranızdan qan verdiniz Vətənə,*
*Ucaltdınız şan verdiniz Vətənə,*
*Şərəfli ad-san verdiniz Vətənə,*
*VƏTƏN yarasına məlhəm oldunuz,*
*Vətən çiçəklənsin deyə, soldunuz.*

Şuşalı şair Sevda Səfərli yurdunu düşmənlərdən azad edənlərə özünü borclu bilənlərdəndir. Odur ki, yeni çapdan çıxmış kitabı ilə Qarabağ fatehlərinə, Şuşa qəhrəmanlarına minnətdarlığını bildirmək istəyib. Şair Sevda xanım "Vətən sizə oğul dedi" kitabını mənə hədiyyə kimi bağışlayanda o bildirdi ki, kitabım, ordumuzun göstərdiyi qəhrəmanlığın zərrəsini qiymətləndirməkdə aciz olsa da, amma belə bir toplunu yazmasam, minnətdarlığımı bildirməsəm, ürəyim partlayardı:"Hər fatehimiz, hər döyüşçümüz 44 günlük savaşda bir dastana, bir 5 cildlik külliyyata sığmayacaq qəhrəmanlığa imza atıb. Təbii ki, mən bütün bunları bir kitaba sığdıra bilməzdim, amma ixtisasca müəllim olduğum üçün bu kitabı, məktəblilərə əlavə dərslik üçün, gənc nəslə maariflənmək üçün nəzərdə tutdum. Amma inanıram ki, bütün yaş kateqoriyasından olan oxucu kütləsinin sevimli kitabı olacaq"

Biz də öz növbəmizdə kitabı vərəqləyirik:

*Torpağı sevdiniz torpaqlaşdınız,*
*Bayrağı sevdiniz bayraqlaşdınız,*
*Vətəni sevdiniz qardaşlaşdınız,*
*Vətənləşən, torpaqlaşan şəhidlər!,*
*Qardaşlaşan,bayraqlaşan şəhidlər!*

İftixar, qürur, göz yaşı, kədər, sevinc: Sevda xanımın misralarında elə ilk andaca oxucu bir-birinə zidd olan amma hamısı bir yerdə olmağa məhkum hisslərin girdabına düşür.

Hətta onun Şuşa səfəri , 30 illik Şuşa özləmi, Şuşa vüsalı belə o hisslər girdabından qurtulmağa imkan vermir:

*Vətən, ğöz yaşını silməyə gəldim,*
*Nə dərdlər çəkmisən, bilməyə gəldim,*
*30 illik dərdi bölməyə gəldim,*
*Gəlmişəm,dərdini mənimlə böl sən,*
*Daha dərdim olmaz qoynunda ölsəm.*
*Sil gözün yaşını, gözünə qurban,*
*Mənə balam deyən özünə qurban.*

Kitabı vərəqlədikcə şeirlərdə başqa bir ruh da "qarşıma çıxır", tanış Ruhdu, tanıdığımız Ruhdu, yurdunu təkrarsız şəkildə tərənnüm edən, sevən və o sevgisi ilə torpaq olan, vətən olan, amma vüsala çatmayan bir Ruh!

*Cıdır düzü, sinəndə gül bitəndə,*
*Xarıbülbül gül içində itəndə,*
*Durna qatarları burdan ötəndə,*
*Salamımı yetirirəm mən sənə,*
*Salam olsun əziz ana Vətənə!*

*Cıdır düzü, Vaqif səndə yatıbdı,*
*Tənhalıqdan o da qəmə batıbdı.*
*Fəryadları gəlib mənə çatıbdı,*
*Qoyma qərib məzarını sel yusun,*
*Məzarında qoy rahatca uyusun.*

*Tər güllərin mənimlə boy olardı,*
*Əllərimə, qollarıma dolardı,*
*Hərdən dəli külək onu yolardı,*
*Ellərinin həsrətini çəkirəm,*
*Yellərinin həsrətini çəkirəm.*

Tanıdınızmı, siz də? Bəli Məhəmmədhüseyin Şəhriyar! Sevda xanımla eyni həsrəti, nisgili yaşamış ulu şairimiz! Amma Sevda xanım xoşbəxtdir, əli vətənə çatdı, ünü vətənə yetdi! Ulu Şəhriyarın ruhu isə hələ də göylərdə "Bütöv Azərbaycan" haraylayır! Bəlkə bir gün...

Başım Sevda xanımın səmimi, ürəyimi yerindən oynadan vətən həsrətinə - yurd vüsalına elə qarışıb ki, kitab haqqında oxuculara məlumat verməyi az qala unudacaqdım. 44 günlük Vətən müharibəsində iştirak edən şuşalı iğid oğullarımızın şərəfli döyüş yolundan bəhs edən "Vətən sizə oğul dedi"kitabının redakroru tədqiqatçı-jurnalist, publisist Vasif Quliyev, ön sözün müəllifi Azərbaycan ədəbiyyatının hazırda ən tanınmış söz sahibi, yazıçı Aqil Abbasdır.




Müəllifin ikinci kitabı olan "Vətən sizə oğul dedi" 3 fəsildən ibarətdir. Birinci fəsil Vətən müharibəsində şəhid olmuş 9 nəfər Şuşa şəhidinin döyüş yolundan bəhs olunur. Sevda xanımla söhbətimiz zamanı o söyləyir di ki, hər bir şəhidin həyatı və keçdiyi döyüş yolu haqqında geniş məlumat verilib:

"Şəhidlərin ailə üzvlərinin, döyüş yoldaşlarının müsahibəsi də kitabda öz əksini tapıb. Birinci fəsil yazılarkən, göz yaşlarım məni heç tərk etmədi" İkinci fəsil isə "Şəhid şagirdlərim" adlanır. Bu fəsildə isə müəllif Vətən müharibəsində şəhid olmuş şagirdlərinin şərəfli döyüş yolunu qələmə alıb. Bir zamanlar dərs dediyi şagirdlərinin valideynlərindən və doğmalarından aldığı müsahibə əsasında yazılmış bu fəsil də təsirlidir. Sevda müəllimin iztirablarını təsəvvür etmək çətin deyil. Axı, öz şagirdinin ölümü haqqında yazmaq bir müəllim üçün çox ağırdır. Xoşbəxt gələcək naminə şagirdləri ilə elm yollarında birgə addımlayan və onlara ali məktəbə qəbul olmağı arzulayan müəllif öz şagirdlərinin nakam taleyini təəssüf hissi ilə qələmə alıb:

*Tarixə yazıldı bu haqq savaşı,*
*Sellərə dönmüşdü elin göz yaşı,*
*Qanla yuduq Qarabağda hər daşı,*
*Dərdimizə sevinc qatdı şəhidlər,*
*Bayraq kölgəsində yatdı şəhidlər!*

Kitabın üçüncü fəsli isə 44 günlük Vətən müharibəsinin şuşalı qazilərinin və döyüş iştirakçılarının şərəfli döyüş yolundan bəhs edir. Bu bölmədə 30 nəfər Vətən müharibəsi qazisinin və iştirakçısının həyatı,döyüş yolu elə özlərinin verdiyi müsahibə əsasında yazılıb.

Bəlkə də çoxunuz Şuşada bayrağımızı dalğalandıran polkovnik Səbuhi Abdullayevi, tank bölüyünün komandiri, baş leytenant Hüseyn Ələkbərlini, baş leytenant Cümşüd Babayevi, XTQ- nin baş giziri Eldəniz Əliyevi , XTQ-nin gizirləri Nurani Mikayılovu, ayağını Vətən yolunda qurban vermiş Hüseyn Cəfərovu və digər şuşalı qaziləri şəxsən tanıyırsınız. "Şuşa " nəşriyyatında çap olunan bu kitabla tanış olduqca, Sevda müəlliməyə haqq qazandırıram.

Həqiqətən orta məktəblərdə dərslik ola biləcək bir tarix kitabı, desək yanılmarıq. Bu kitabdakı hər cümlə gənc nəslin vətənpərvər yetişməsində əhəmiyyətli şəkildə rol oynaya bilər. Hətta, nisgil, kədər süzülən misralardan sonra kitab nikbinliklə başa çatır. "Dağldılmış abidənin fəryadı" adlı birpərdəli dram əsəri həmin nikbinliyi özündə ehtiva edir.

Məsələn, oxucular var ki, M.O.Vaqifin Cıdlr düzündəki abidəsinin dağıdılmasına həsr olunan bu dram əsərinin çox dramatik, düşündürücü, ibrətamiz olduğunu söyləyirlər. Oxuculardan şair Əyyub Şırlanlı bildirir ki, bu birpərdəli dram əsərində bütöv bir mənzum faciənin təsirini duymaq olar: "Əsərinin sonunda qələbə əzmi, inam ön planda verilib deyə, nikbinlik məhz burdan qaynaqlanır". Hələ də Sevda xanımı tanımaynlar varsa, oxusun: Sevda Nadir qızı Səfərli 1961-ci il dekabr ayının 16-da Şuşa şəhərində anadan olub. 1978-ci ildə H.Hacıyev adına Şuşa şəhər 4 nömrəli orta məktəbi bitirdikdən sonra - 1981-ci ildə M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutuna qəbul olub. "Ana" adlı ilk şeiri 1977-ci ildə "Şuşa" qəzetində çap olunub.

1978-ci ildən başlayaraq şeirləri rayon və respubluka mətbuatında ("Azərbaycan gəncləri", "Azərbaycan müəllimi" qəzetlərində) çap olunub. 1986-cı ildə institutu bitirərək ixtisası üzrə Şuşa şəhərində müəllim kimi pedaqoji fəaliyyətə başlayıb. 1998-ci ildə Azərbaycan Müəllimlər İnstitutunda Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə yenidən ali təhsil alıb. Filoloq kimi pedaqoji fəaliyyətini davam etdirib. Pedaqoji fəaliyyətlə yanaşı yaradıcılığını da mütəmadi şəkildə davam etdirib. Beləki, "Azərbaycan müəllimi", "Şuşa" qəzetlərində şeirləri, oçerkləri, vətənpərvərlik mövzusunda publisistik məqalələri müntəzəm olaraq çap olunub. "525-ci qəzet", " Paralel",İmpuls" qəzetlərində və poeziya almanaxlarında : "Qarabağım", Vətənim", "Dolub boşalan dünya", "Gözüm yolda, könlüm səsdə" ,"Şairlər dünyanın tənha adası" antologiyalarında şeirlərim çap olunub. 2005-ci ildə " Xarı bülbül həsrəti" adlı ilk şeirlər kitabı çap olunub. Kitabda Vətən həsrəti, doğma Şuşanın düşmən tapdağı altında qalması, Vətən torpağının , səfalı yurd yerlərinin tərənnümü, azadlığa inam, düşmənə nifrət hissi daha qabarıq verilib. Müntəzəm olaraq "Azərbaycan müəllimi" qəzetində çap olunan Vətən nisgilli, Şuşa həsrətli şeirləri toplanaraq " Xarı bülbül həsrəti" adlı şeirlər kitabına çevrildi.

Yazını tanınmış yazıçı Aqil Abbasın kitab üçün yazdığı "Ön söz" dən bir parçanı təqdim etməklə yekunlaşdırırıq:" Şuşa şəhidləri haqqında yazılan kitaba fikir bildirmək istəyirəmsə, deyərdim ki, Ağdamı, Zəngilanı, Cəbrayılı, Füzulini, Qubadlını, Kəlbəcəri azad edənlərlə Şuşanı azad edənlərin fərqi bircə ondadır ki, onlar Azərbaycanın Məkkəsini, Mədinəsini, Kərbəlasını- Şuşanı azad ediblər. Bu gün şəhidlər Tanrı yanında bayram edirlər. Şəhidlər müxtəlif bölgələrdə, kəndlərdə doğulurlar, amma şəhid olanda onlar bir yüksəklikdə olurlar- Tanrının yanında".

**Sevda Səfərli, Sizə redaksiyamız və öz adımdan uğurlar diləyirəm !**

**Əntiqə Rəşid**

## *Kəmalə Abiyeva: "Silin o səfeh paylaşımları"*



**Son günlər "Eurovision" musiqo yarışmasında Azərbaycanı təmsil edən Tural və Turan qardaşlarının geyimi müzakirə olunur. Yenə də sosial şəbəkələr ikiyə bölünüb.**

Adalet.az xəbər verir ki, şair Kəmalə Abiyeva bu mövzu ilə bağlı fikir bildirib

"Öncə deyim ki,oğlanların müzakirə olunan köynəklərini bəyənmədim. Amma Amması odur ki, ekizlər Turan və Tural Zaqatalada böyüyüb. Məktəbdə pianoda çalmağı öyrəniblər. Ataları onların həvəsini görüb ikinci əl sintizator alıb oğullarına. Beləcə öyrəniblər. Atalarını tez itiriblər. 15 yaşında özlərindən böyük 20 və 21 yaşlı qardaşları qəzada dünyasını dəyişib. Ana himayəsindədilər. Ana güc tapıb özündə əkizlərin ayaqda qalması üçün. O qədər istedadlı və çalışqandılar ki, heç bir musiqi təhsili olmadan bacardılar. Öz mahnıları ilə qalib oldular. İndi də 4 ölkədə trendə düşüblər. Alqışa, sevgiyə layiq deyillərmi? Layiqdilər. Özləri azad olanda Geyimləri maraqlı, gözəl olub. İndiki geyimdə isə stilistləri günahkardı. Bu qədər aşağılayıcı paylaşımlar etməyin.

22 yaşlı gənclərin bu qədər çabasını, istedadını görməzdən gəlməyin. Sevinməyi bacarmırsız! Sevməyi bacarmırsız!

Onlara uğur, o anaya bu balalarının sevincini yaşamağı arzulayıram.

Sizin isə fikirləriniz, şərhləriniz utancvericidi. Hər kəs olduğu qədər görür başqasını məncə. Utanın!!! Oğlanları təhqir etməyin. Silin o səfeh paylaşımları, şərhləri. Yanaşmanız o geyimdən pisdir".

**Eminquey**

## *Azərbaycanda ilk dəfə olaraq Səhnə teatrı "ev teatrı" üslubunda tamaşa hazırlanıb*



**"Ev teatrı" - adından da göründüyü kimi bir evin az sayda "qonaqları" üçün otaq şəraitinə uyğun olan tamaşalar hazırlayan teatrdır. Bu, müasir teatr formasıdır və bu üslubda hazırlanan tamaşalarda müxtəlif teatr məktəblərinin qazandığı nailiyyətlərin sintezindən geniş istifadə edilir.**

Dünyada geniş yayılmasına baxmayaraq Azərbaycanda ilk dəfə olaraq Səhnə teatrı R.İbrahimbəyovun "Şirəbənzər" və E. Olbinin "Zooparkda nə baş verdi?" tamaşalarını "ev teatrı" üslubunda hazırlamışdır. Hər iki tamaşanı quruluşçu rejissoru Elvin Mirzəyevdir.

Günü- gündən tamaşaçıların rəğbətini qazanan tamaşalara, xalq artistləri Fəxrəddin Manafov, Şükufə Yusupova, Pərviz Məmmədrzayev və digər sənət adamları da təşrif buyururlar.

"Şirəbənzər" və "Zooparkda nə baş verdi?" tamaşaları, üç ilə yaxındır ki, mütamadi fəaliyyət göstərən, " Bir dəfə Qarabağda", "Molla Nəsrəddin 2022", "Qaranlıqdan işığa", " Qurd əfsanəsi" və " Elçilik" tamaşaları ilə tamaşaçı rəğbəti qazanmış Səhnə teatrının repertuarını zənginləşdirir.

Hər həftənin şənbə və bazar günləri Səhnə teatrı tamaşaçılarının yolunu gözləyir. Biletləri İTİCKET.AZ saytından ala bilərsiniz.

**Emin**

## Hüseyn Ərəblinskini qadın paltarı geyindiyinə görə qınayanlar...

### Rejissordan CAVAB



**Adalet.az xəbər verir ki, Füzuli Dövlət Dram Teatrının rejissoru Mirzə Nicat "Eurovision" təmsilçilərinin geyimi ilə bağlı yazılara narazılığını bildirib.**

"Kökünüzdən qopmayın. Siz avropalı deyilsiniz. Heç vaxt da olmayacaqsınız. Başqasına bənzəməyə çalışmayın, özünüzdə olanı inkişaf etdirin. Özünüzü kiçiltməyin. Biz meşşan xalq deyilik. O allı-güllü uşaqları "müdafiə" edənlərin böyük əksəriyyəti doğmalarını onlarla evlənməyə əsla icazə verməz. Bir az da səmimi olaq. Heç onları asıb kəsən də yoxdur. Müasirlik və inkişaf başqa şeydir.

Bu yaxınlarda bir dostum dedi ki, Hüseyn Ərbəlinskini qadın paltarı geyindiyinə görə təhdid edən adamlar indi qadın paltarı geyinməyən aktyora gülmür".

## Nura Suri: "3 gündür şok yaşayıram"




**"Bizə min şükür. Bizdəki hadisələri həzm edə bilməyən mən 3 gündür şok yaşayıram. Yaxşı ki, indiyə kimi proqramlara, xəbərlərə baxmamışam, ürəyim partlayardı. Bu nə dünyadır biz yaşayırıq?!"**

Adalet.az xəbər verir ki, bu sözləri müğənni Nura Suri sosial şəbəkə hesabına yazıb.

""Show" TV-də "Vazgeçme" proqramına 3 gün baxdıqdan sonra seriallar haqqında dediklərimə peşman oldum. Seriallardakı hadisələr daha normal imiş. Türkiyədə qız uşaqlarını pul qarşılığı ərə verirlər (satırlar), şəkildəki uşağı ərə veriblər, sonra da ərə verildiyi yerdə öldürüblər.

15 yaşlı qız itib, polis axtarmayıb. Qohumu gənc qız (yaşıdı) efirə çıxıb narkotik alveri ilə məşğul olan insanlar tərəfindən oğurlandığını deyir, polisə məlumat verdiklərini və sonra qızın tamamilə yerli-dibli itdiyini iddia edir. Ya polis əlbirdir, ya da veclərinə deyil.

Mən hələ çox qısa və qəbulolunan formada yazmışam. Baxsanız, dəhşətə gələrsiniz.

2 gün xəbərlərə baxdım beynim "error" verdi. Küçədə alovlu silahdan atəş açıb qonşusunu öldürən, küçənin ortasında arvadını döyüb öldürən, qadın paltarı geyinən başı bağlı kişilərin parkdan uşaq qaçırmaq istəyən, bildiyiniz qorxulu filmlərdən betər hadisələr.

Bizə min şükür. Bizdəki hadisələri həzm edə bilməyən mən 3 gündür şok yaşayıram. Yaxşı ki, indiyə kimi proqramlara, xəbərlərə baxmamışam, ürəyim partlayardı. Bu nə dünyadır biz yaşayırıq?!"

**Eminquey**

## Nuranə Nurdan diqqət çəkən status...



**Mədəniyyət.Tv-in aparıcısı, şair Nuranə Nur satış obyektlərinin üzərindəki afişalarla( plakatlarla) bağlı münasibətini bildirib.**

Adalet.az xəbər verir ki, xanım aparıcı sosial şəbəkədə hər kəsin marağına səbəb olan statusu ilə diqqət çəkib: Gənc şair, "10 m2 ərazisi olan ət dükanının üstündəki "Ət dünyası" , "Ət aləmi " ...yazıları.

Heç "MədəniyyƏT" sözünü bu qədər ilahiləşdirmirlər bizim ölkədə".-sözlərini qeyd edib.

İzləyiciləri Nuranə Nurla həmfikir olublar.

## Əkbər Qoşalı: "O adlar hər ikisinə haram olsun!"



**Şair, publisist Əkbər Qoşalı da Turan və Tural Bağmanovları tənqid edənlər sırasındadır.**

Adalet.az xəbər verir ki, o, facebook hesabında "Eurovision" təmsilçiləri haqda kəskin fikirlər bildirib:

"Azərbaycanı bu gədələrin təmsil etməsindən çox məyusam. Bəlkə andıra qalmış səsləri, bir qırıq istedadları vardır - ola bilər; bəlkə "EuroVision"un mərət qalmış standartlarına-filana uyğundur - bilmirəm ancaq sən qəhrəman Azərbaycanı təmsil edirsənsə, bu nə geyim, o nə LediQaqapərəstlikdir?!.

Tərs kimi adları da TuralTuranmış O adlar hər ikisinə haram olsun! Yetkim olsa, hər ikisinin adını dəyişər, yarışdan da geri alardım."

**Əntiqə**

# Nadir Qədimli: "Şuşadan gələn səs" Ağdamda bayram əhvalı yaratdı"

***Mayın 6-da Ağdam elində maraqlı bir hadisə yaşanıb.***

***Bəli, hadisə! Hadisənin iki iştirakçısı var, bir səbəbkar, bir də səbəbkara dəyər verən: Səbəbkar Ali Baş komandan tərəfindən "Vətən Müharibəsi Qəhrəmanı" medalı ilə təltif olunmuş, Şuşaya ilk bayraq sancan və 28 ildən sonra Gövhərağa məscidində azan oxuyan XTQ- Xüsusi Təyinatlı Qüvvələrin baş giziri Yaşar Hüseynovdur, dəyərli olub dəyərlimizi də dəyərləndirməyi özünə borc bilən şair - dramaturq Nadir Qədimlidir. Ağdamda hadisə günü ola bilmədiyim üçün çox üzgünəm, amma Nadir müəllimlə zəngləşdik, söhbətləşdik və tədbiri ən xırda detallarına qədər öyrəndim. Elə bilin ki, mən də tədbirdəydim! İndi sizə N.Qədimli ilə olan söhbətimizi çatdırsam, siz də elə biləcəksiniz ki, o hadisənin içərisində siz də olmusunuz!***

**-Nadir müəllim, 6 mayda Ağdamda həm hava gözəl olub, həm də bir bayram əhval ruhiyyəsi hökm sürüb orda... Nə məsələ imiş?**

-Vətən uğrunda döyüşlər hər zaman adi, sıradan bildiyimiz oğulların heç də adi-sıradan biri olmadığını sübut edən amildir.

Bəlkədə müharibənin yeganə ən yaxşı xüsusiyyəti odur ki, el arasında deyirlir" papağ altda yatan oğullar" bax onları üzə çıxarır, sevdirir, el arasında ehtirama layiq edir. Bizim Yaşar da elə igidlərdəndi. Nəinki bütün Ağdamın, bütün Azərbaycanın, Azərbaycanın hüdudlarından kənarda yaşayan azərbaycanlıların əzizidir. Düşündüm ki, bütün qəhrəmanlara dastan yazılır, mahnılar qoşulur, romanlar həsr edilir , bəs o zaman biz niyə sakit duraq? Mütləq, fəxrimiz, qürurumuz olan Yaşara bir əsər həsr etməliyəm!



**- Bəs, qərarı nə vaxt verdin?**

- 44 günlük müharibə təzəcə bitmişdi, sosial şəbəkələrdə müharibə ilə bağlı video-görüntülərə baxırdım. Təsadüfən, bir videoda gördüm ki, bir igidimiz Şuşada əvvəl bayrağımızı binanın üzərinə sancır , sonra da əzan oxuyur! Videonu izləyəndə sevincimdən hönkürtü ilə ağladım! Bir az da araşdırandan sonra öyrəndim ki, bu bizim Yaşardı.

**- Y. Hüseynovu əvvəllər tanıyırdın ki?**

- Özünü şəxsən tanımırdım! Amma Hüseynovlar ailəsini Ağdamda, Qarabağda tanımayan var ki? Rəhmətlik Əhəd kişinin oğullarının hamısı qəhrəmandı. I Qarabağ müharibəsində şəhid olmuş igid Füzuli Hüseynovun balaca qardaşıdı Yaşar.

1989-1994-cü illərdə Sadiq yerli batalyonda Fərman da Ağdam Polis İdarəsinin əməkdaşı kimi Qarabağda ağır döyüş yolu keçdiyini bilməyən yoxdu.



**- Başladın yazmağa...**

- Şair təbiətli insanlar çox kövrək olur, adi bir, tutaq ki, gülün, çiçəyin boynunun bükülməsi onlara böyük təsir edir. İndi sən de, 28 il sonra Şuşada ilk dəfə dalğalandırıb məni sevinc göz yaşlarına qərq edən Yaşar haqqında yazmaya bilərdimmi? (gülür)"Şuşadan gələn səs" beləcə yarandı. Eyni zamanda məqsədim münaqişənin yol açıdığı faciələri, Azərbaycan xalqının - ailələrinin başına gələn hadisələri diqqətə çatdırmaq oldu. Bu həm də Azərbaycanın hərb tarixinin təbliğ olunması deməkdir. ...

**- İndi də "Şuşadan gələn səs" adlı əsərin Ağdam Dövlət Dram Teatrında tamaşa qoyulması haqqında danış...**

- Tez bir zamanda Yaşarla bağlı əsər yazdığımı hamı bildi, beləcə xəbər hər tərəfə yayıldı.Əsərin tamaşaya qoyulması ilə bağlı Ağdam Dövlət Dram Teatrının təklifinə ürəkdən şad oldum. Tez razı oldum. Əsər rejissor Kərim Həsənli peşəkarlığı sayəsində ən yüksək səviyyədə səhnələşdirildi. Tamaşanın quruluşçu rəssamı Müşfiq Qarayevin, musiqi tərtibatçısı Azər Şükürovun, rejissor assistenti Ceyhun Yusifovun və rolların ifaçıları Nuranə Əliyevanın, Elmir Hümbətovun, Fərhad Fərhadzadənin, Camal Zamanovun, Ülviyyə Qasımovanın, Sadiq Bağırovun, Rəmzi Gülməmmədovun, İxtiyar Məmmədovun, Hakim Cəfərlinin peşəkarlığı əsəri elə ilk andan tamaçılara sevdirdivə hər kəsin ürəyincə oldu.

Bunun üçün mən Ağdam teatrının baş rejissoru Kərim Həsənliyə və kollektivə dərin təşəkkürümü bildirirəm.

**- Eşitdiyimə görə, tamaşa anşlaqla keçib...**

- Hə zal dolu idi, tamaşanın premyerasına Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov başda olmaqla rayon ictimaiyyətinin nümayəndələri iştirak etdi.

**-Sənin elə digər əsərlərin də səhnə əsəri kimi çox maraqla qarşılanıb...**

- Hə, 1998-ci ildə "Qarabağım qan ocağım" mənzum dramım rejisor Ədalət Ziyadxanov tərəfindən Ağdam Dövlət Dram Teatrında tamaşaya qoyulub.

Tərbiyəvi əhəmiyyət kəsb edən məzmununa, poetik rəngarəngliyinə, aktyorların oyununa, rejissor quruluşuna, dekorasiya tərtibatına görə tamaşa böyük uğur qazanıb. Əsərin belə uğurlu alınması Azərbaycan Dövlət Televiziyasının diqqətindən yayınmadı. Tamaşa AZTV tərəfindən kadra alındı və hazırda orada qorunub saxlanılır. Həmin teatrda "Özəlim, Gözəlim", "Təftiş əməliyyatı", "Günahsızlar" pyeslərim tamaşaya qoyulub. Hətta "Özəlim, Gözəlim" komediyası əsasında televiziya tamaşası hazırlanıb. 2021-ci ildə Ağdam Dövlət Dram Teatrı ilk mövsümü "Günahsızlar" əsərim əsasında hazırlanan tamaşa ilə açıb və ilk tamaşa hərbçilər üçün təqdim edilib. 44 günlük müharibədən sonra səhnəyə qoyulan "Günahsızlar" tamaşası festivala təqdim olunub.



Üstəlik Mədəniyyət Nazirliyi və Teatr Xadimlər İttifaqının "Fəxri Diplom"una layiq görülüb.

**- Nadir müəllim mənə göndərdiyin fotolara baxdım, hamının üzündə bir iftixar, sevinc, təbəssüm var...Hesab edirəm, səhv eşitməmişəm, doğrudan da sənin tamaşaya qoyulmuş bu əsərin sözün həqiqi mənasında rayonda əsl bayram əhval-ruhiyyəsi yaradıb. Amma çox təəssüf ki, belə gözəl tamaşanı da, o ovqatı da izləyə bilmədim, qaçırdım...**

- Kədərlənmə, "Şuşadan gələn səs" 15 may tarixində Bakı şəhərində də nümayiş olunacaq.

**- Hə, o zaman görüşənə qədər! Uğurlar və yeni əsərlər arzulayıram!**

**Əntiqə Rəşid**

# Qaradəniz - keçmişin mirası və təbiətin gözəlliyinin qovuşduğu yer

**Pontosdan Romaya, Bizans, Səlcuqlu və Osmanlıya qədər Qara dəniz bölgəsi əsrlər boyu mühüm sivilizasiyalara ev sahibliyi etmişdir. Monastırları, kilsələri, tarixi malikanələri, qalaları, minilliklərə aid yaşayış məskənləri və qaya məzarları ilə zəngin tarixə malik olan bu coğrafiyada onlarla görməli yer var. Qədim irsi və ecazkar təbiəti ilə seçilən Qara dəniz bölgəsində ziyarət edəcəyiniz tarixi ərazilər sizi başqa bir dünyaya aparacaq.**

Gəlin Qaradəniz bölgəsində tarixin kəşfinə çıxaq!

### *Pompeiopolis, Kastamonu*

Pompeiopolis, 19-cu əsrin əvvəllərində Kastamonu Taşköprü yaxınlığında yerləşən Zımbıllı Təpənin qalıqları ilə eyniləşdirilən qədim Paflaqoniyadır. Şəhər Gök çayı vadisində yerləşir. Pompeiopolis Roma sərkərdəsi Böyük Pompeyin eramızdan əvvəl 64-cü ildə Şimali Anadoluda Pontus Krallığını fəth edərkən qurduğu yeddi şəhərdən biridir.

Eramızın 2-ci əsrində ən yüksək çağını yaşayan bu şəhər Roma Paflaqoniya vilayətinin paytaxtı idi, çünki bəzi yazılarda "Paphlagonia Metropolis" adına rast gəlinir. Sonuncu qazıntılar zamanı ərazidə sütunlu küçə, qədim yol, teatr və türbələr aşkar edilmişdir. Burda insanlıq tarixinin kəşfinə çıxa biləcəksiniz.

### *Alacahöyük, Çorum*

Alacahöyük Çorumdan 50 km cənub-qərbdə, indiki Alaca mahalı sərhədləri daxilində yerləşir. Ərazidə əsrimizin əvvəllərində başlayan qazıntılar hələ də davam edir. Bura Xetlilərin əsas mədəniyyətini formalaşdıran, Orta Anadolunun yerli sakinləri olan Hattilərin şəhəridir. Ərazidə aşkar edilən qəbirlərdən Alacahöyükün diqqətçəkən tapıntıları üzə çıxarılmışdır. Alimlər bu əsərlərin zənginliyinə əsaslanaraq məzarları "padşah məzarları" adlandırmışlar. Tapıntılar bəlkə də ən qədim Tunc dövrü sivilizasiyasını əks etdirir və Ankara Anadolu Mədəniyyətləri Muzeyində sərgilənir.

### *Hattuşa (Hitit İmparatorluğu'nun*



### *Başkenti), Çorum Yazılıkaya, Çorum*

Hattuşa və ya indiki adı ilə Boğazkale, Mərkəzi Anadoluda məhsuldar bir vadidə yerləşir.

Çorumdan 85 km məsafədədir, e.ə. II minillikdə Hetlərin paytaxtı olmuşdur. Məbəd və saray xarabalıqları, monumental heykəlləri və təntənəli qapıları və tunelləri, nəhəng istehkamları olan bu qədim şəhərin yerləşməsi onun vaxtilə böyük imperiya xalqının məskəni olduğunu təsdiqləyir. Yazılıkayada açıq səma altında qaya məbədinin divarlarına həkk olunmuş tanrı və tanrıça silsiləsi araşdırılaraq, bu insanların inancları haqqında çox bilgi öyrənilmişdir.

Qazıntılar göstərdi ki, ərazidə hələ e.ə. 5-ci minillikdə ilk məskunlaşma olmuşdur. Burda aşkar edilən minlərlə het lövhəsi bugünə qədər məlum olan antik tarix bilgilərini dəyişdirdi. Het mətnləri ilk dəfə deşifrə edildikdə, alimlər onların e.ə. 2-ci minilliyin əvvəlləri tarixə naməlum olan bir imperiyaya aid olduğunu anlayıblar. Düşünün, söhbət Misir və Aşşur Babil krallıqları ilə rəqabət apara biləcək bir imperiyadan gedir...

Bu antik şəhərdə tarixin kəşfinə çıxa biləcəyiniz yerlər bunlardır: böyük məbəd, Aslan qapısı, Yerkapı və ya Sfinks qapısı, Krallar qapısı, dəfn otaqları və Frig qalası, Böyük Saray və yaxşı inşa edilmiş digər qalalar.

Həm Boğazkale, həm də Çorum Muzeylərini ziyarət etmək, bölgəni kəşf etməyiniz üçün çox faydalı olacaqdır.

### *Sapinuva, Çorum*

Sapinuva, Çorumdan 70 km cənubda, Ortaköy qəsəbəsi yaxınlığında yerləşir.

Hitit şəhəri Özderesi vadisinin şimal yamaclarında yerləşən düz və geniş yaşayış məntəqəsidir. Sapinuvanın strateji mövqeyi xüsusilə vacibdir. Şəhəri əhatə edən dağlar, Amasya düzündə terraslar şəklində yüksələn yayla və 5 km-ə qədər uzanan istehkamlar sayəsində şəhər çox rahat şəkildə müdafiə oluna bilirdi.

Hetit şəhəri olan Sapinuvanın xarabalıqlarının tapılması tarix üçün böyük sürpriz oldu.

1990-cı ildən bu ərazidə arxeoloji tədqiqatlar aparılsa da, Sapinuvanın Het hakimiyyəti dövründə oynadığı rol və əhəmiyyətə dair bir çox məsələlər sirr olaraq qalmağa davam edir. Sapinuvada qazıntı aparan tədqiqatçılar onun Hetitlərin ikinci paytaxtı və ya hökmdarların kral iqamətgahı olduğunu iddia edirlər.

Ərazidə indiyə qədər edilən ən qiymətli kəşf e.ə. 2-ci minilliyə aid üç mindən çox gil lövhədən ibarət kolleksiyadır.

Sapinuva ziyarətçiləri erkən Hetit şəhəri, məbədlər, evlər və sarayların təməllərini seyr edəcək, və ərazidə fərqli yerlərdən tapılan gil qabların ahəngindən zövq alacaqlar.

Tapıntıların əksəriyyəti Çorum Muzeyində sərgilənir.

**Qara dəniz ekskursiyaları sadaladıqlarımızla bitmir, bölgəni canlı gözlərlə kəşf etmək sizə fərqli səyahət təcrübəsi yaşadacaq. Özəlliklə ənənəvi istirahət formalarından yorulmusunuzsa bu təcrübədən yararlanın. Səyahət planınızı ümumilikdə bütün Qara dəniz regionunu əhatə edəcək şəkildə qura bilər, yaxud ayrı-ayrı bölgələrin təklif etdiyi sərgüzəşt imkanlarından yararlana bilərsiniz: Şərqi Qara Dəniz Bölgəsinin təbiəti və tarixi, Mərkəzi Qara dənizin mədəni irsi və təbiəti, qədim küçələr, şəlalələr və Qərbi Qara Dəniz Bölgəsinin bir çox gözəllikləri sizə ayrı-ayrılıqda çox əyləncəli, məlumatlandırıcı və məmnunedici səyahətlər təklif edir.**

**"XƏZƏR-AUDİT 2020"**
**Məhdud Məsuliyyətli Cəmiyyəti**
**VÖEN: 1703554881**
**İcazə: № AT/267, 10.04.2023.**
**Bakı şəhəri, Yasamal rayonu. Ş.Mehdiyev küçəsi, 271**
**Telefon: İş; (012) 5331960; mobil; (050;055) 3130599**

**№oeU8GhShf3** **"14" aprel 2023-cü il**

## MÜSTƏQİL AUDİTOR HESABATI

**Rəy**

Mən "Dostlar MM Kredit İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN 7500296931) 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətinin hesabatdan, məcmu gəlirlər hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları İttifaqın 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (və ya düzgün və ədalətli təsəvvür yaradır).

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq İttifaqdan asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik İttifaqı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik ittifaqın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər İttifaqın maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**"XƏZƏR-AUDİT 2020" MMC-nin direktor-auditoru:**
**A.M. Musayev**

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Anlaşma Memorandumu imzaladı

**Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə Qazaxstanın L.N. Qumilyov adına Avrasiya Milli Universiteti arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi Fondun prezidenti Günay Əfəndiyeva və Universitetin rektoru Yerlan Sıdıkov imzalayıblar.**

Memorandum Fond ilə Universitet arasında tərəfdaşlıq əlaqələrinin və mədəni mübadilələrin yaradılması məqsədilə imzalanıb. Sənəddə türk dövlətlərinin mədəni irsinin təbliği və inkişafı yönündə konfransların, seminarların, sərgilərin və s. təşkili, Fondun beynəlxalq tədbirlərinə Universitetin akademik heyətinin cəlb olunması, ümumtürk yazılı mənbələrinin tədqiqinə dair layihələrin keçirilməsi, Universitetin bu istiqamətdə araşdırma aparan tələbələrinə dəstəyin göstərilməsi üzrə birgə əməkdaşlıq nəzərdə tutulmuşdur. Mərasimdə Fondun təşkilata üzv və müşahidəçi dövlətlərin, eləcə də müxtəlif xarici ölkələrin elm və təhsil müəssisələri ilə qarşılıqlı münasibətlərin qurulmasına xüsusi önəm verdiyi diqqətə çatdırılıb. Tədbir çərçivəsində Günay Əfəndiyeva Universitetdə yaradılmış Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan auditoriya ilə tanış olub. Fondun prezidenti Ulu Öndərin geniş miqyaslı fəaliyyətinə, çoxşaxəli irsinə həsr olunmuş müxtəlif nəşrlərə baxış keçirib.



Mərasimdə həmçinin, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Hikmət Babaoğlu, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun layihə meneceri Talgat Muxanov, L.N. Qumilyov adına Avrasiya Milli Universitetinin Türkologiya kafedrasının professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Daha sonra Universitetin tələbələrinin ifasında türk xalqlarının dillərində kompozisiyalar səsləndirilib.

## Nazilə Güneli əvəz edəcək



**Uzun illər "Space.Tv"də yayımlanan "Banu" proqramının aparıcısı Günel öz yerini Nazilə Səfərliyə verdi.**

Adalet.az xəbər verir ki, bu barədə Nazilə Səfərli İnstagram hesabında məlumat verib. Şairə Günelin ailə vəziyyəti ilə xarici ölkəyə köçdüyünü qeyd edib: "Əminəm ki, çoxlarınız Günel xanımın gedişinə üzüləcəksiniz. Səmimi olacağam, mən də üzüldüm. Mənə də asan olmayacaq "Banu" izləyicilərinin könlünü almaq. Günel xanım ailə vəziyyəti ilə əlaqədar xarici ölkəyə köçdü"

**Əntiqə**

**27.06.2023-cü il tarixində saat 11:00-da "İnşaat" ASC-nin illik hesabat yığıncağı keçiriləcək.**
**Ünvan: Bakı şəhəri, C.Hacıbəyli 30**

**Eyvazov İftixar Zöhrab oğlu vəfat etdiyi üçün onun adına "iLKiN-2007" MMC tərəfindən verilmiş şəhadətnamə (VÖEN-1001198591) ləğv edilsin.**

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 129**
Çapa imzalanmışdır: 11.05.2023